www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 noyabr 2014-cü il Bazar ertəsi № 287 (5996) Qiyməti 40 qəpik

**Xəbər**

## Azərbaycanda vəhhabilərə peyntbol qadağası qoyuldu

yazısı səh.14-də

**Gündəm**

### Müsavatın müşavirəsi qurultay kimi gərgin keçdi



Qubad İbadoğlunun barışıq təklifi birmənalı qarşılanmadı; İsa Qəmbər "net" mövqe sərgilədi, "Problem partiyanın içində deyil, hakimiyyətlə Müsavat arasındadır" dedi...

yazısı səh.3-də

### Yeni ildə əfv olacağı barədə xəbərlər ciddiləşir

yazısı səh.6-da

### Deputatlarımızdan Batumi qalmaqalına reaksiya

yazısı səh.5-də

### 12 noyabr vertolyot insidentinin iki dərsi

yazısı səh.11-də

### Mediada nifrət dili

Batumda Güney Qafqaz ölkələri mediasının monitorinqinin nəticələri açıqlandı

yazısı səh.4-də

### Ankara Universitetindəki konfrans Azərbaycanda etiraz doğurdu

yazısı səh.11-də

*Müdafiə Nazirliyindən yeni açıqlama:*

### "Düşmən heç bir xüsusi əməliyyat keçirməyib..."

yazısı səh.2-də

### ABŞ və Türkiyə ciddi anlaşma içində...

yazısı səh.12-də

### Süfrəmizdəki şirniyyatlar haqda acı həqiqətlər

yazısı səh.14-də

### Rusiyada yeni inqilab yetişir

yazısı səh.12-də

### Binəqədidə yenə ağaclar kəsildi, sakinlər etiraza qalxdı

yazısı səh.13-də

### Polis Bakının bağrını yaran xuliqan baykerlərlə bacaracaqmı?

yazısı səh.15-də

**"Anti-İŞİD" qrupunun yaradılması xəbərinə MTN-dən reaksiya gəldi**

# BAKI TƏHLÜKƏSİZLİK ÇƏMBƏRİNƏ ALINIR

Hakimiyyət Avropa Oyunlarının təhlükəsizliyinin qorunması üçün terrorla mübarizədə təcrübəsi olan dövlətlərdən biri ilə anlaşıb; Naxçıvandakı dindarın həbsinin pərdəarxası...




yazısı səh.6-da

# Türkiyə başımız üzərindən Ermənistana əl uzadır

Qardaş ölkənin paytaxtında sərhədlərin açılmasının lobbiçiliyinə yönəlik beynəlxalq konfrans keçirilib; Ərdoğan iqtidarı 2015 bədnam yubiley ilini Azərbaycanı qurban verməklə adlamaq istəyir?..

yazısı səh.8-də



*Rauf Arifoğlu:*

### "Allah YAP hakimiyyətinə də, sizlərə də insaf versin..."

yazısı səh.9-da



*Fəzail Ağamalı:*

### "...mənim Hüseyn Abdullayev problemim yoxdur..."

yazısı səh.7-də



*Müsavat başqanının yeni müavini:*

### "Yol pulumu, gündəlik xərclərimi atam verir..."

yazısı səh.10-da



# Yeni ildə əfv olacağı barədə xəbərlər ciddiləşir

## Mirvari Qəhrəmanlı: "Məhbusların işində ayrı-seçkilik olmayacaq..."

**31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə əfv veriləcəyi barədə xəbərlər yayılıb. İndiyə qədər hər il bu bayramda əfv sərəncamı imzalanıb. Bunları nəzərə aldıqda Yeni ilə olan inam günbəgün artmaqdadır. Hətta bu əlamətdar gündə "Qızıl amnistiya" olacağı da deyilir.**

Bu barədə AzVision.az-a Ombudsman Aparatının Milli Preventiv Mexanizm (MPM) qrupunun rəhbəri Vüqar Məhərrəmov bildirib. O qeyd edib ki, əfv olunmaq istəyən məhbusların sayı artıb. "Ayın sonunda müraciətləri Əfv Komissiyasına göndərəcəyik. Tanınmış məhkumlardan hələ ki, əfvlə bağlı bizə müraciət edən olmayıb. Biz dustaqlar arasında əfv etmənin qaydaları ilə bağlı maarifləndirmə işləri aparırıq". Vüqar Məhərrəmovun sözlərinə görə, hər il olduğu kimi bu il də 31 dekabr günü ərəfəsində əfv sərəncamı veriləbilər.

İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı da əfv sərəncamına olan inamlarının yüksək olduğunu qeyd etdi: "İşçi Qrupunun reqlamenti qəbul olunub. Orada qeyd olunub ki, 2 aydan bir toplanmalıdır. Çox güman ki, dekabrda iclasımız olacaq. İşçi Qrupuna xəstəliyi olan məhbuslarla bağlı sənədlər təqdim olunur. Deyilə bilər ki, niyə öncə xəstə məhbuslar nəzərdə tutulur. Çünki günbəgün xəstəliyi artan məhbuslarımız var. Dekabrda olacaq iclasımızdan sonra sənədlər Əfv Komissiyasına və iclasda iştirak edən hökumət nümayəndələrinə təqdim olunacaq. Bizə nə zaman əfv olacağı deyilmir. Bunlar prezidentin səlahiyyətindədir. Hər ilin axırında bu sərəncam verilir. Ümid edirəm ki, azadlığını çox istədiyimiz insanlar həbsxanadan çıxacaq".

Hüquq müdafiəçisi "Qızıl amnistiya"ya da ümid etdiklərini də söylədi: "Arzum budur ki, Azərbaycanda bir dəfə də olsa, "Qızıl amnistiya" olsun. Bu, çoxunun istəyidir. Bildiyimiz kimi, məhbuslarla bağlı müxtəlif siyahılar var. İstərdik ki, bu siyahılarda adları çəkilən bütün məhbuslar azadlığa çıxsın. Ölkəmizin imici üçün yaxşı olar. Beynəlxalq təşkilatlardan buna görə bəyanatlar eşidirik. Azərbaycan insan haqlarını pozan ölkə kimi imicini formalaşdırıb. İşçi Qrupunun üzvü olmaq o demək deyil ki, hər şeydən xəbərdarsan. Amma hesab edirəm ki, veriləcək əfvə çox adam düşəcək. Hələ ki, 15-ə yaxın insanın siyahısını vermişik. Məhbuslardan bizə çoxlu sayda müraciətlər var. Adlarını çəkmək istəmirəm. Hazırda iki iş məndədir. Bazar ertəsi katibliyə təqdim edəcəyəm. Mətbuatda bəziləri İşçi Qrupuna etibar etmədiklərini deyirlər. Əmin edirəm ki, məhbusların işində ayrı-seçkilik olmayacaq. Biz İntiqam Əliyev, Leyla Yunus və bu tipli məhbusların məsələsini hər yerdə qaldırırıq. Həbsdə olub müraciət etmək istəyənlər, amma bəzi nüanslara görə müraciət edə bilməyənlər əmin olsunlar ki, onların hər birinin problemi müzakirə olunacaq".

❑ Cavanşir ABBASLI

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Məhbuslar türmələrdə soyuqdan donur

Tofiq Yaqublunun saxlandığı yerdə istilik sistemi yoxdur; Orxan Əyyubzadənin anası oğlunun həyatının təhlükədə olduğunu deyir, İlqar Məmmədov müalicə müəssisəsində müayinə olunur...



**Havaların soyumasından sonra siyasi məhbuslarla bağlı ürək ağrıdan xəbərlər gəlməkdə davam edir. Onların saxlandıqları cəzaçəkmə müəssisələrində üzləşdikləri çətinliklər, istilik sisteminin zəif olması dustaqların səhhətlərində ciddi fəsadlar yaradıb.**

Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu noyabrın 23-də 13 saylı Cəzaçəkmə Müəssisəsində atası ilə görüşüb. Görüşdən dərhal sonra musavat.com-a açıqlama verən Nigar Yaqublu müəssisədə istilik sisteminin olmamasından şikayətlənib: "Noyabr ayının bitməsinə baxmayaraq, hələ də həbsxanaya istilik verilməyib. Buna səbəb kimi texniki problemlər göstərilir. Soyuq atamın həyatına ciddi təhlükə yaradır. Onsuz da səhhətində ciddi problemlər var".

Həbsdə olan REAL Hərəkatının sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova musavat.com-a bildirib ki, o, əri ilə telefonla danışıb: "Vəziyyəti bir az yaxşılaşıb. Müalicəyə başlayıblar. Hələ bir neçə gün məntəqədə qalacaq".

Müsavat başqanının həbsdəki digər müavini Fərəc Kərimlinin və qardaşı Sirac Kərimlinin vəkili Nemət Kərimli şənbə günü onlarla görüşdüyünü qeyd etdi: "Hər ikisinin səhhəti normaldır. Siracda yalnız tez-tez ürək ağrıları baş verir. Sorğu vermişik. Ola bilsin ki, ciddi müayinədən keçsin. Onlarla bağlı indiyə qədər heç bir istintaq hərəkəti aparılmayıb. Qardaşlar faktiki olaraq, girov saxlanılır".

Gənc siyasi məhbus Orxan Əyyubzadənin anası Rəhimə Məmmədova övladını itirmək qorxusu ilə yaşadığını söylədi: "Xəstəliyi daha da pisləşib. Buna baxmayaraq, təcridxanada heç bir köməklik göstərilmir. İstilik sistemi isə bərbad vəziyyətdədir. Orxan dedi ki, tez-tez özündən getmələri yaranıb. Təcili övladıma müalicə lazımdır. Təcridxana yeməyini belə qadağan ediblər. Bu, övladımın səhhətinin ağır olmasından xəbər verir. Gündə gedə bilmirik. Bu isə onun ac qalmasına səbəb olur".

"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının həyat yoldaşı Məlahət Zeynallı ərinin səhhətində heç bir yeniliyin olmadığını bildirdi: "Bəzi məsələlər var ki, dəqiqləşəndən sonra mətbuata veriləcək. Səhhəti ağır olaraq qalır".

Pərviz Həşimlinin vəkili Bəhruz Bayramov isə son durumla bağlı bunları dedi: "İki gün öncə görüşmüşəm. Hər şey normaldır".

Nemət Pənahlının həyat yoldaşı Həcər Pənahlı dekabrın 8-də görüş gününün olduğunu söylədi: "Tək otaqda qalır. Səhhəti ağırdır. O cür şərait şəkər xəstəsi üçün çox ağırdır. Əfvlə bağlı heç bir sözü yoxdur".

❑ Cavanşir ABBASLI



# Çox sayda alman İŞİD-çi öldürüldü

**İŞİD terror qruplaşmasının tərkibində vuruşan Almaniya vətəndaşlarının sayı açıqlanıb. anspress-in məlumatına görə, Almaniyanın konstitusiya müdafiəsi federal xidmətinin rəhbəri Hans-Georg Maasen verdiyi açıqlamada bildirib ki, indiyə kimi 550 alman Suriyaya gedərək, terror qruplaşmasına qoşulub: "Son məlumatlara görə, Almaniyanın ən azı 60 vətəndaşı Suriya və İraqda İŞİD tərəfdə vuruşaraq həlak olub. Bu terror qruplaşmasının təbliğatına acınacaqlı bir uğurudur. Onlardan 180 nəfərdən çoxu Almaniyaya geri qayıdıb".**

Qeyd edək ki, Almaniyada təhlükəsizlik orqanlarının keçirdiyi genişmiqyaslı əməliyyat zamanı terror birləşmələri, o cümlədən İŞİD-lə əlaqədə şübhəli bilinən doqquz nəfər saxlanılıb.



# Müdafiə Nazirliyindən yeni vertolyot açıqlaması

## "Düşmən heç bir xüsusi əməliyyat keçirməyib..."

**"Ermənistanın hərbi-siyasi rejiminin helikopter hadisəsi ətrafında bir neçə gündür qaldırdığı ajiotaj elə bir həddə çatıb ki, artıq düşmən tərəfi xalqı sakitləşdirmək və dünya ictimaiyyətinin diqqətini cəlb etmək üçün davamlı surətdə dezinformasiyaya əl atır, faktları qarışdırır və yalan yaymaqla hərəkətlərinə bəraət qazandırmağa çalışır".**

Bunu Ermənistanın son günlər apardığı informasiya təxribatı ilə bağlı suala cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya bildiriblər. Müdafiə Nazirliyi bir daha qeyd edib ki, vurulan Mi-24 döyüş helikopterinin və pilotlardan ikisinin qalıqlarının, o cümlədən birinin cəsədinin ərazidən çıxarılması üçün guya Ermənistan tərəfinin hansısa xüsusi əməliyyat keçirməsi barədə yayılan məlumatların heç bir əsası yoxdur: "Bu, uydurmadır və erməni xalqının diqqətini yayındırmaq məqsədi güdür. Tam əksinə, düşmən tərəfi son günlər Mi-24 döyüş helikopterinin vurulduğu ərazidə təxribat törətməklə gərginliyi saxlamağa və bu məsələyə bəzi beynəlxalq təşkilatları da cəlb etməyə cəhd göstərir. Azərbaycan tərəfi ilk gündən helikopterin qalıqlarının və ekipaj üzvlərinin cəsədlərinin ələ keçirilməsi və ya hər hansı başqa məqsədlə bu istiqamətdə heç bir addım atmayıb. Bildiririk ki, düşmən tərəfinin bu ərazidə "xüsusi əməliyyat keçirməsi" kimi absurd, uydurma və əsassız fikirləri qətiyyətlə rədd edir, həmin istiqamətdə ərazinin tam olaraq Silahlı Qüvvələrimizin nəzarətində olduğunu bəyan edirik".

# Mənzillər ucuzlaşdı, kartof-yumurta isə bahalaşdı...

**Başa çatan həftənin son günlərində ölkənin bazarlarındakı bir sıra məhsullarda qiymət artımı müşahidə olunub. Bu barədə musavat.com-un əməkdaşının aldığı məlumata görə, topdan-satış mərkəzlərində kartofun bir kiloqramının qiyməti 60 qəpikdən 71-72 qəpiyədək qalxıb. Bu səbəbdən indiyədək 21 manata alınan 35 kq-lıq kartofun bir kisəsi 25 manata satılıb.**

Eyni səbəbdən parakəndə satış ünvanlarında qiymət 80-90 qəpikdən yuxarı olub. Özü də bu, xaricdən ölkəyə idxal olunan məhsulun qiymətidir. Yerli məhsul isə 1 manatdan yuxarıdır. Kartofun qəfildən bahalaşmasının səbəbinə gəldikdə, bunu inhisarçıların bazarda həyata keçirdiyi əməliyyatın məntiqi nəticəsi kimi izah edirlər. "İndiyədək kartof əsasən İrandan idxal olunurdu. Ancaq artıq İran məhsulu bazardan sıxışdırılır və ölkəyə bu adda məhsul Hollandiyadan daşınacaq", - deyə, mənbəmiz bildirib. Güman olunur ki, qiymət artımı da Avropadan məhsul daşıyan inhisarçıların daha çox qazanc götürməsinə hesablanıb.

Həftəsonu daha bir məhsulun qiyməti kəlləçarxa qalxıb. Belə ki, son vaxtlaradək ədədi 8-9 qəpiyə satılan yumurta 12 qəpiyə qalxıb. Yumurtanın qiymətinin ardınca digər məhsulların da qiymətinin qalxacağı istisna deyil. Rusiyada yaşanan son durumla əlaqədar bu ölkədən ətin idxalında məhdudlaşmaların olması səbəbindən ət məhsullarının da qiymətinin qalxacağı barədə xəbərlər var. Azərbaycanın istehsallı yağların qiymətlərində artım müşahidə olunduğu halda bir sıra xarici markalı yağların, o cümlədən Türkiyənin "Kırlangıç" kimi duru yağların da satışı inhisarçıların səyi nəticəsində məhdudlaşdırılıb.

Qeyd edək ki, iqtisadçı ekspertlər bazarlarda növbəti qiymət artımının olacağını proqnozlaşdırırlar və artıq ilkin addımlar atıldı. Ancaq maraqlısı budur ki, ərzaq məhsulları bahalaşdığı halda paytaxtın mənzil bazarında qiymətlər kəskin şəkildə düşüb. Belə ki, Bakının nisbətən kənarlarında 2 otaqlı Kiyev, Minsk və Leninqrad layihəli mənzillər 75-80 min dollara satıldığı halda son günlərdə qəfildən 5-10 min dollar ucuzlaşıb. Hətta ev bazarında çalışanlar ciddi şəkildə ziyana düşdüklərini, aldıqları mənzilləri realizə edə bilmədiklərini deyir. Məlumata görə, mənzillərin qiymətindəki ucuzlaşma Rusiya iqtisadiyyatındakı tənəzzül, rus rublunun dəyərdən düşməsi, həmçinin Rusiyada yaşayan həmvətənlərimizin maliyyə çətinliklərinin yaranması ilə əlaqədardır.

❑ Vüqar MURAD

YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014

# Müsavatın müşavirəsi qurultay kimi gərgin keçdi

## Qubad İbadoğlunun barışıq təklifi birmənalı qarşılanmadı; İsa Qəmbər "net" mövqe sərgilədi, "Problem partiyanın içində deyil, hakimiyyətlə Müsavat arasındadır" dedi...

**Dünən Müsavat Partiyası qərargahında partiyanın ümumrespublika müşavirəsi keçirildi. Müşavirədə 300-dən yuxarı partiya üzvü iştirak edirdi. Zal tamamilə dolduğundan dəhlizdə toplaşanlar monitor vasitəsilə tədbiri izləyirdilər.**

Toplantını açan Müsavat başqanı Arif Hacılı çıxışında son aylar keçirilən zona müşavirələrindən söz açdı və bu tədbirlərin davamlı olacağını vurğuladı. İlin sonunda keçiriləcək bələdiyyə seçkilərinə mövzusuna toxunan partiya sədri dedi ki, Müsavat artıq qərar verib və iştirak məsələsini rayon təşkilatlarının öhdəsinə buraxıb.

Ardınca o, Müsavatın sonuncu qurultayı və qurultaydan sonrakı proseslər haqda danışdı. O bildirdi, narazılıq edənlərin bəzilərinin davranışı partiyanın maraqlarına zidd olmaqla yanaşı nizamnamə pozuntusu ilə müşayiət olunub: "Müsavata heç bir rəğbət bəsləməyən, Müsavatı istəməyən çevrələr bundan istifadə edir. Hakimiyyətin tam nəzarəti altında olan televiziya kanalları Müsavat Partiyasında gedən prosesləri şişirtmək və Müsavatı nüfuzdan salmaq üçün bu proseslərdən yaralanmaqdadır". O, başqanlığa sabiq namizəd Səxavət Əlisoyun partiyadan çıxarılma səbəbini açıqladı: "Səxavət Əlisoy mənim saxtakarlıqla seçildiyimi, Məclisin, Divanın, MNTK-nın legitim olmadığını və seçkilərin də saxtakarlıq şəraitində keçirildiyini iddia edib. Nizamnaməyə zidd davranaraq, partiya strukturlarının qərarlarına məhəl qoymayıb. Müsavat Partiyasının qurultayının legitimliyinin şübhə altına almağa heç bir əsas yoxdur. Bu proseslər durdurulmalıdır. Qeyri-müəyyənliyə son qoyulmalıdır".

A.Hacılı Müsavat başqanlığına sabiq namizəd Qubad İbadoğlunun qurultay ərəfəsindəki pozuntularla bağlı MNTK-ya təqdim etdiyi arayışdakı iddialara da münasibətini bildirdi: "Arayış MNTK tərəfindən araşdırılıb və cavab verilib. Ancaq mən bir neçə məsələyə aydınlıq gətirmək istəyirəm. Burada iddia olunur ki, qurultaydan əvvəl partiyanın rayon təşkilatları qeyri-qanuni olaraq buraxılıb. Bu, belə deyil. Bir neçə rayon təşkilatının sədri vəfat etdiyindən Divanın qərarı ilə yeni sədr təyin olunub. Başqa bir iddia var ki, Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsində Arif Hacılının adamları çox olub. Halbuki Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi təşkil ediləndə mən həbsxanada olmuşam. Belə qeyri-ciddi məsələləri qaldırmaq Müsavat üzvlərinin mənafeyinə ziddir".

Müsavat başqanının müavini Elman Fəttah isə çıxışında partiyadaxili məsələlərdən danışdı. O, qeyd etdi ki, partiyada bütün qərarlar kiminsə təsiri ilə deyil, konsensus yolu ilə qəbul olunub: "Başqanlığa və ya partiya strukturlarına namizəd olan heç kəsə təzyiq, aqressiya olmayıb. Yalnız müəyyən məsələlər sosial şəbəkələrdə qaldırılıb. Seçkidən sonra da bəzən haqsız ittihamlara cavab vermişik. Partiyanın bütün üzvləri bilməlidir ki, Müsavat əleyhinə olan qüvvələrin sistemli şəkildə qarayaxma kampaniyası aparması partiyanın parçalanmasına gətirib çıxara bilər".

Başqanlığa sabiq namizəd Tural Abbaslı isə çıxışında Müsavat üzvləri bir-birinə qarşı emosional davranmamalı olduqlarını bildirdi: "Bizim hər birimizin məqsədi rejimin dəyişməsinə nail olmaqdır. Bunun üçün Müsavatın güclənməsinə çalışmalıyıq. Qurultayın nəticələri ilə bağlı etirazımız yoxdur. Ancaq mən haqsız yerə təhqir olunan insanlardan biriyəm. İndi biz bir-birimizə qarşı vuruşuruq. Mənim iradım Müsavat rəhbərliyinədir. Çünki qalib tərəf səbirli olmalıdır. Bu şəraitdə narazılıq edənlərə qarşı tədbirlərin görülməsinin əleyhinəyəm. Biz fraksiya yaradaraq öz sözümüzü deməliyik".

Başqanlığa sabiq namizəd Qubad İbadoğluna isə çıxış üçün reqlamentdən 4 dəfə artıq vaxt ayrıldı. Q.İbadoğlu qeyd etdi ki, Müsavatın bu günə gəlməsinin bir neçə səbəbi var: "Səbəblərdən birincisi ondan ibarətdir ki, Müsavat dəyişməlidir. Qurultaydan qabaqkı Müsavat yoxdur. O Müsavat İsa Qəmbərə sevgi üzərində qurulmuşdu. Müsavatda yeni dönəm artıq İsa bəyin o xarizması ilə idarə olunan dönəm deyil. Onu xəyallarda saxlamaq olar. İndiki dövr Müsavatın qaydalarla, şəffaf şəkildə kollegial idarə olunması dövrüdür. İndi keçid dövrünü yaşayırıq. Bu dövrdə baş verənlər onu göstərdi ki, Müsavatda daxili demokratiya problemi var. Biz bunun üzərində düşünməliyik. Müsavatçılar Azərbaycanı demokratik görmək üçün ilk növbədə partiyadaxili demokratiyadan başlamalıdır. Təəssüf ki, idarəetmədə aqressiya önə çıxdı, bəzi müsavatçılar partiyadan çıxarıldı. Ən böyük problem ondan ibarətdir ki, qərarlar birtərəfli verildi. MNTK-nən qərarları gərginliyin artmasına xidmət elədi".

Bu zaman Q. İbadoğlunun çıxışına yerdən replikalar atıldı, narazılıq edildi. A.Hacılı zaldakıları sakitliyə çağırdı. Q.İbadoğlu çıxışına davam edərək qeyd etdi ki, Müsavat rayon təşkilatlarının qəbul etdiyi bəyanatlar partiyanın parçalanmasına xidmət edir: "Gedənləri xəyanətkar adlandırmaq təhqirə bərabərdir. Arif Hacılının ailə üzvləri mənim əleyhimə yazılar yazıblar. Vaqif Hacıbəylinin sosial şəbəkələrdə yazdığı fikirlərin əksəriyyəti mənim əleyhimə yönəlib. Partiya demokratik üsulla idarə olunmalıdır. Arif Hacılı İsa Qəmbər deyil. Arif Hacılı İsa Qəmbər kimi idarə edə bilməyəcək. Yeganə yol ədalətli MNTK qərarlarının verilməsindən keçir. Bu barışığa gətirib çıxara bilər. Biz Müsavatdan heç vaxt getmək niyyətində olmamışıq".

Qubad İbadoğlu özünün Barışıq Naminə Təkliflər Paketini də açıqladı: "MNTK tərəf ola bilməz. MNTK sədri ilə bağlı məsələyə yenidən baxılsın, MNTK ədalətli qərarlar qəbul eləsin, partiyadan çıxarılanlar Müsavata bərpa olunsun. Ağsaqqallardan ibarət etimad komitəsi yaradılsın. Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin protokolları dərc olunsun. Müsavat qurultayı öz işini tam şəkildə başa çatdıra bilmədi. Nizamnamədəki normalar nəzərə alınaraq uzun bir müddətdə növbədənkənar qurultay çağırılsın və Müsavatın proqram və Nizamnaməsinin təkmilləşdirilməsi ilə bağlı məsələlərə baxılsın, həm də strukturların yenidən seçilməsi məsələsi qoyulsun".

Müsavat qurultayında say komissiyasının sədri olmuş Mirbaba Babayev isə qurultayın demokratik keçirildiyi, seçkilərin demokratik olduğunu bəyan etdi. O, geniş və hər kəsin rəğbətini qazanan çıxışında onu da dedi ki, Nizamnamədə fraksiya yaradılması nəzərdə tutulmayıb: "Mən yenidən qurultay keçirilməsinin də tərəfdarı deyiləm. Partiyanın bütün seçkili orqanları legitimdir. Biz Qubad İbadoğlu və Vurğun Əyyub kimi insanları itirməməliyik".

Müsavat Məclisinin üzvü İkram İsrafil Q. İbadoğlu və tərəfdarlarını Müsavat əleyhinə fəaliyyət göstərməməyə çağırdı. O qeyd etdi ki, Q. İbadoğlunun tərəfdarları İsa Qəmbərin əleyhinə yönəlmiş, onu təhqir edən fikirləri dəstəkləyir ki, onlardan biri də Müsavat Qadınlar Təşkilatının sədri Ellada Məmmədlidir.

Göyçay rayon təşkilatının sədri Namiq Hacıbəyli çıxışında partiyadan gedənləri ögey qardaş adlandırdı.

Partiya fəalı Yusif Süleymanlı çıxışında facebook-da A.Hacılıya yaxın şəxslərin yazılarına etirazını ifadə etdi.

Düyaxanım Cahan isə Müsavat Qadınlar Birliyinə olan iradlara etirazını bildirdi. Məclis üzvü Valeh Hümbətoğlu isə barışıq tərəfdarı olduğunu dedi.

Məclis üzvü Fəzli Mehdiyev isə Arif Hacılının Müsavatın başqanı və deməli simvollarından biri olduğunu deyərək, ona qarşı təhqirlərə son verməyə çağırdı. Ellada Məmmədli isə İ. İsrafilin çıxışına etiraz edərək, onu mövqesiz adlandırdı: "Mən İsa Qəmbərlə artıq 25 ildir eyni yoldayam. Öz fikrimdə müstəqil biriyəm, başqaları kimi qul deyiləm. Bu gün mənim siyasi tələblərimi ödəyən lider kimi Qubad İbadoğlunu görürəm. Bunun üçün məni öldürməlisiniz? Biz düşmənik?"

Müsavat başqanının müavini Nüşabə Sadıqlı isə qeyd etdi ki, A. Hacılını dəstəkləyənlərə qarşı da kampaniya aparılır. O, E. Məmmədlini nəzərdə tutaraq, Müsavat rəhbərliyini ittiham etməməyə çağırdı: "Siz Arif Hacılını dəstəkləyənləri niyə təhqir edirsiniz? Niyə qəbul etmirsiniz? Mən Müsavat daxilində fraksiya yaradanlara da etiraz edirəm. Pozuntular olmuşdusa niyə Qubad İbadoğlu qurultayda tribunada demədi?" Q. İbadoğlu isə yerindən "Orda desəydim, vəziyyət bundan da pis olardı", - deyə etiraz etdi.

Arif Hacılı yekun çıxışını edərək bildirdi ki, bütün fikirlərin açıq şəkildə deyilməsindən çəkinmək lazım deyil. O, narazılarla görüşdən imtina etməsi barədə iddiaların əsassız olduğunu söylədi: "Hər zaman bildirmişəm ki, hər kəslə dialoqa hazıram. Heç vaxt heç kimin arxasında gizlənməmişəm. Ancaq mənim əleyhimə həmişə kampaniya aparılıb. Heç kəs mənə qarşı çox ciddi təhqir və böhtanlarına görə partiyadan azad edilməyib. Ancaq hər hansı bir xanıma, onun ailə üzvlərinə qarşı təhqir və böhtan olan yerdə Nizamnamə qaydaları işə düşməlidir. Mən hər kəslə müzakirələrə hazıram. Bizim hədəfimiz Müsavatın içində deyil, hədəfimiz hakimiyyətdir. Burada haqlı olaraq deyildi ki, Arif Hacılı İsa Qəmbər deyil. Müsavatda İsa bəyin rəqibi yox idi. Mən bilirəm ki, mənim başqanlığımı qəbul etməyən müəyyən insanlar var. Ancaq bu, o demək deyil ki, partiya daxilində qarşıdurma yaranmalıdır. Kim bu gün mənə etimad göstərmir, üç ay, 6 ay sonra göstərəcək. Çünki mən özümü tanıyıram, nə cür fəaliyyət göstərəcəyimi bilirəm. Əlavə bir üstünlüyüm də var. Çünki mənim arxamda, Müsavat Partiyasının arxasında İsa Qəmbər kimi lider durur".

Daha sonra Müsavatın sabiq başqanı İsa Qəmbər bələdiyyə seçkiləri, siyasi məhbuslar və partiyada yaranmış vəziyyətlə bağlı çıxış etdi: "Biz müsavatçı siyasi məhbusların və digər siyasi məhbusların azad olunması istiqamətində iş aparmalıyıq. Lakin qurultay sonrası araqarışdırmalarla üzbəüz qalmışıq. Mən oktyabrın 11-də Məclisdə çıxış edərkən bu məsələyə toxunmuşam. Mövqeyim dəyişməyib. Həmin vaxtdan bu günədək bu məsələlərlə bağlı çıxış etməmişəm, yalnız bir cümlə yazmışam. Narazıların bir qrupu deyir ki, seçkinin nəticələrindən narazı deyillər, ancaq partiyadaxili demokratiya olmalıdır. Ən böyük qismi isə deyir ki, seçkilərdə ədalət prinsipi pozulub. Ən kiçik qrupu isə saxtakarlığın olduğunu bəyan edib. Kimlərinsə partiyanı saxtakarlıqda ittiham etməsini necə normal qəbul edə bilərik? Hakimiyyət üçün Müsavatın saxtakarlıqda ittiham olunmasından gözəl nə ola bilər? Problem partiyanın içində deyil, hakimiyyətlə Müsavat arasındadır. Biz söz azadlığından danışırıq, bəziləri isə söyüş azadlığı istəyir. Bu şəkildə bizə demokratiya dərsi keçməyə cəhd edirlər".

O, partiya daxilində fraksiya yaratmaq istəyənlərə də cavab verdi: "Hər birimiz Müsavata daxil olanda Nizamnamənin tələblərini yerinə yetirəcəyimiz barədə öhdəlik götürmüşük. Partiyanın strukturlarına legitim qurum yaradıla bilməz. Təəssüflər olsun ki, Müsavatda məğlub tərəf MNTK-nı tərəf saxlamaqda ittiham edir. Qurultaya qədər MNTK tərəfsiz idi, qurultaydan sonra tərəfə çevrildi? Burda bildirdilər ki, MNTK tərəfsiz olmalıdır. Çox maraqlı tezisdir. Amma nədənsə, seçki dövründə MNTK-nın tərəfsiz olması zərurəti haqqında danışmırdılar".





Qubad İbadoğlu isə buna etiraz edərək: "Qurultaya qədər MNTK tərəf olubsa, bu yanaşma ilə yenə tərəf olmalıdır" - deyə sual ünvanladı. Bu zaman İsa Qəmbər Qubad İbadoğluna qəzəbli şəkildə səsini ucaldaraq, "sadəcə, prinsipial olmaq lazımdır, Qubad bəy, "Bu mənim xeyrimədirsə, olmalı, xeyrimə deyilsə, olmamalıdır" - deyə bir şey yoxdur" cavabını verdi.

Q. İbadoğlu İ. Qəmbərə "Niyə əsəbləşirsiz" dedi. A. Hacılı isə Q. İbadoğluna yerdən danışmamağı məsləhət gördü.

İ.Qəmbər çıxışına davam edərək, yenə üzünü Qubad İbadoğluan tərəf tutaraq əsəbi şəkildə hər şeyin aydın göründüyünü bildirdi. O, yeni qurultay tələbinin partiyanın əleyhinə yönəldiyini vurğuladı və qeyd edlədi ki, belə olduğu halda narazıların fəaliyyətləri gec, ya tez, Nizamnamə ilə ziddiyyət təşkil edəcək: "Hər kəs nə istədiyini ayrı şəkildə müəyyənləşdirsin. Yeni qurultay ideyası partiyaya qarşı yönəlmiş ideyadır. İmza toplamaqdan danışılır. Cəhd edə bilərsiniz, başlayın görək bacarcaqsınızmı? Partiyanı hədələmək, xəyanətdir. Bunun başqa adı yoxdur. Mən Müsavat Partiyasının başqan seçdiyi Arif Hacılı ilə bir yerdəyəm. Kim bu yolda olmaq istəyirsə, gəlsin, mübarizəmizi davam etdirək. Kimsə özünə başqa lider axtarırsa, buyursun, öz yolunu getsin".

Bundan sonra zalda bir qadın "İsa Qəmbər qurultaydan öncə Arif Hacılıya dəstək vermək üçün üzvlərə təzyiq edib" replikası atdı. İsa Qəmbər əsəbi şəkildə "bəsdirin, bu qədər yalan olmaz, yalan danışmayın. Mən təzyiq etsəydim, Arif Hacılı 228 yox, azı 350 səs toplayardı" cavabını verdi...

Müşavirə partiya himninin oxunması ilə yekunlaşdı.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014

**Noyabrın 23-də Batumda Almaniyanın Deutsche Welle Akademiyasının təşkilatçılığı ilə "Nifrət dili və informasiya savaşı: keyfiyyətli jurnalistikaya çağırış" adlı konfrans işə başlayıb. İki gün davam edəcək konfransda Güney Qafqaz respublikaları mediasının monitorinqinin nəticələri açıqlanacaq, media uzmanları mövzu ilə bağlı müzakirələr aparacaq. Almaniya qurumunun Güney Qafqazdakı tərəfdaşı isə Gürcüstan Jurnalist Etikası Xartiyasıdır.**



# Mediada nifrət dili

## Almaniyanın Deutsche Welle Akademiyası Batumda Güney Qafqaz ölkələrinin mediasının monitorinqinin nəticələrini açıqlayır

Deutsche Welle-in sifarişi ilə Azərbaycanda media monitorinqini "Yeni Nəsil" Jurnalistlər Birliyi, Gürcüstanda Jurnalist Etikası Xartiyası, Ermənistanda "Yerevan Press Club"u aparıb. Ölkələrin hər birində iki qəzet, iki sayt, iki telekanal 1 ay ərazində monitorinq edilib. "Yeni Nəsil" layihə çərçivəsində "Yeni Müsavat", "525-ci qəzet"in, APA, Contakt.az internet portallarının, İctimai Televiziya və ANS telekanallarının son 1 aydakı işini araşdırıb.

Konfransa "Yerevan Press Club"un prezidenti Boris Navasardyan moderatorluq edib. İlk çıxış edən Deutsche Welle-in təmsilçisi Petra Raşkevits Güney Qafqaz ölkələrində aparılan monitorinq nəticələrinin mediada nifrət dilinin həddən artıq qabarıq olduğunu göstərdiyini deyib: "Söhbət yalnız münaqişədə olan ölkələrin (Ermənistan və Azərbaycan nəzərdə tutulur) konfliktlə bağlı qarşılıqlı ittihamlarından getmir. Hər üç ölkənin mediasında həm etnik, həm siyasi, həm dini, həm də sosial həyatın bir sıra sahələrinə aid yazılarda nifrət dili var. Ölkələrin siyasi həyatına gəlincə, əgər Azərbaycan və Ermənistan mediasında nifrət dili bu daha çox xarici siyasətlə bağlı yazılarda müşahidə olunursa, Gürcüstanda bu dil daha çox daxili siyasi duruma aid məqalələrdə, reportajlarda var. Biz hər üç ölkə mediasındakı problemləri dəqiq müəyyən etməklə gələcək fəaliyyətimizi onların aradan qaldırılması yönündə davam etdirmək niyyətindəyik".

Almaniya təmsilçisinin çıxışından sonra söz "Yeni Nəsil" Jurnalistlər Birliyinin rəhbəri Arif Əliyevə verilib. Arif Əliyevin çıxışından bəlli olub ki, Azərbaycan mediasında nifrət dili daha çox siyasi xarakterli məqalələrə, reportajlara aiddir: "Söhbət həm daxili, həm də xarici siyasətdə Azərbaycan mediasının, daha dəqiqi bizim monitorinq apardığımız qurumların hazırladığı materiallardan gedir. Azərbaycanla Ermənistan arasında münaqişənin davam etməsi bu sahəyə ən ciddi təsir edən amillərdəndir. Münaqişəyə aid demək olar bütün yazılarda sağlam təhlildən çox, beynəlxalq medianın qəbul etmədiyi prinsiplərlə yanaşmalar var. Bu, iqtidaryönlü mediada, o sıradan telekanallarda daha qabarıq hiss edilir. Bu, Azərbaycan oxucusuna, seyrçisinə adi görünə bilər, ancaq, "düşmən tərəf" ifadəsi belə beynəlxalq normalara görə nifrət yaradılmasına xidmət edir və birmənalı şəkildə bundan imtina edilməlidir. Müxalifət mediasında isə diqqət çəkən daha çox daxili siyasətlə bağlı mövzuların işıqlandırılması zamanı nifrət dilindən istifadə edilməsidir. Seçki dönəmində müxalifət mediasının əsas hədəfi təbii ki, iqtidar olur. Ancaq indi Azərbaycanda seçki bitib və müxalifyönlü media üçün gündəmin əsas mövzuları müxalifətdaxili proseslərlə bağlıdır. Bu haqda yazılarda nifrət dilindən bəzən o qədər gen-bol istifadə edilir ki, tənqid olunan şəxslər haqlarında səslənən ittihamları 20 illik mübarizə həyatlarında iqtidar düşərgəsindən eşitmədiklərini dilə gətirirlər".

Arif Əliyev Azərbaycan parlamentarlarının da nifrət dili sevgisindən danışıb: "Parlementdən verilən reportajlarda deputatların sitatları bu cür monitorinqlər üçün əyani vəsait hesab oluna bilər. Azərbaycanda vətəndaş cəmiyyətinə basqılardan hər kəsin xəbəri var. Bu məsələ dünya liderlərinin, o sıradan ABŞ prezidentinin çıxışlarında da yer alıb. Bu haqda Milli Məclis müzakirələri zamanı ABŞ-a, eləcə də Qərb institutlarına qarşı olduqca sərt, kin, nifrət yaradan ifadələr işlədilib və təbii, bu ifadələr mediada olduğu kimi verilib".

"Yeni Nəsil"in prezidenti onu da vurğulayıb ki, siyasi reportajlarla müqayisədə sosial yazılarda nifrət dili nümunələrinə xeyli az rast gəlinir.

Ermənistanda aparılan monitorinqin nəticələrini "Yerevan Press Club"un təmsilçisi Elina Poqosbekyan açıqlayıb. Onun çıxışından bəlli olub ki, Ermənistan mediasında nifrət dili az qala bütün sahələri əhatə edir. Məqalə və reportajlarda tənqid edilən tərəf ən kəskin ifadələrlə təqdim olunur: "Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bizdəki durum da Azərbaycandakı vəziyyətin oxşarıdır. Demək olar bütün materiallarda intiqam çağırışları səslənir. Anlaşılan odur ki, münaqişə nizamlanmayana qədər bu durumun düzələcəyini, sağlam yanaşmanı gözləmək yersizdir. Ermənistan mediasında niftər dili nümunələri bir çox ölkələrdə olduğu kimi daha çox siyasi düşərgə təmsilçilərinin leksikonu ilə yaranır. Məsələn, Ermənistan parlamentində iqtidar nümayəndələrinin müxalifətçiləri satqınlıqda, əclaflıqda, şərəfsizlikdə, seksual azlıqlara aid olmaqda ittiham etməsilə bağlı nümunələrin sayı-hesabı yoxdur. Məsələn, parlamentin son sessiyalarından birində iqtidar deputatı müxalifət təmsilçisinə dedi ki, onun çıxışından Azərbaycan neftdollarlarının qoxusu gəlir, o milli maraqları satmaqla, ölkəsinə xəyanət edir. Nifrət dili bir sıra qəzetlərin "analitik məqalə" adlandırdığı yazılarda da çoxdur. Belə yazılarda müəlliflər son dərəcə absurd, heç bir fakta əsaslanmayan, sırf sağlam olmayan təxəyyülə söykənən ittihamlar səsləndirərək tənqid hədəflərini açıq təhqirə keçirlər. Bəzi yazılarda təhqirin dozası o qədər artıqdır ki, onları burada səsləndirməyə utanıram. Sadəcə onu deyim ki, indi Ermənistan mediasında siyasətçilərin təhqir edilməsi üçün ən populyar ifadə Avrovision mahnı yarışmasının qalibi seksual azlıq təmsilçisi Konçita ilə bağlıdır".









## Azərbaycan və Ermənistan mediası "etnik" xəstəlikdən əziyyət çəkir, Gürcüstan mediası demokratiyadan sui-istifadə edir

Gürcüstanda demokratik azadlıqların Azərbaycan və Ermənistandakından çox olması media sahəsinə də təsirsiz ötüşməyib. Gürcüstan Jurnalist Etikası Xartiyasının icraçı direktoru Tamar Ruxadzenin çıxışından bəlli olub ki, ölkə mediası bu azadlıqdan təxminən sui-istifadə edir: "Gürcüstanda az qala hər il hansısa seçki prosesi var. Seçkilər zamanı mediada hakimiyyəti və müxalifəti təmsil edən qrupların debatları zamanı nifrət dilindən geniş istifadə edilir. Bəllidir ki, Gürcüstanda medianın əsas yükü telekanalların üzərindədir. Siyasi mübarizə, təbliğat kampaniyası telekanallar vasitəsilə aparılır. Böyük ehtimalla burada təmsil olunan jurnalistlər Gürcüstanda seçki dönəmlərində TV tok-şoularında baş verən qalmaqallarla, ağır söyüşlərlə müşayiət olunan əlbəyaxa döyüşlərlə tanışdırlar. Bu tendensiya iqtidara və müxalifətə yaxın yazılı və elektron mediada da davam edir. Məsələn, bu yaxınlarda Gürcüstan müxalifətinə yaxın media orqanlarından biri baş nazir İrakli Qaribaşvilini açıq mətnlə zebra adlandırmışdı. Bu, onun keçmiş baş nazir Bdzina İvanişvilinin əlaltısı kimi təqdim edilməsi üçün idi. Gürcüstanda hər kəsə bəllidir ki, İvanişvilinin evində sözün əsl mənasında böyük zoopark var. Heyvanların, xüsusən onların nadir növlərinin həvəskarı olan Bdzina İvanişvili buna görə çox tənqid olunub. Onun dəvəquşuları, punqvinləri, atları və tutuquşuları, hətta qaranquşları haqqında mediada çoxsaylı sözatmalar, hətta lətifələr yazılıb. Və yeni baş nazir Qaribaşvilinin fəaliyyətini təftiş etmək istəyən jurnalist faktalogiyanın ciddi təhlilini ortaya qoymaqdansa fikrini kəsə ifadə etmək üçün baş naziri İvanişvilinin heyvanlar bağçasının üzvlərindən birinə bənzətmişdi. Təbii, bütün bunlar sağlam tənqidlə bir araya sığa bilməz".

Gürcüstan mediasının "əcnəbi sevimliləri" sırasında ilk yeri Rusiya prezidenti Vladimir Putin tutur. Gürcüstanda Putinin ünvanına sərt və təhqir dolu ittihamlar səsləndirməyən media orqanı demək olar, yoxdur.

Gürcüstan mediasını digər iki ölkədən fərqləndirən daha iki cəhət var. Bunlardan biri milli zəmində nifrət leksikonunun o qədər də qabarıq olmaması, ikincisi isə jurnalistlərin cəzalandırılmasına qanuni qadağalardır. Gürcüstan mediasında yunanlar, ermənilərlə gürcülər arasında lokal problemlər haqqında məqalələr, reportajlar verilir. Ancaq onlarda nifrət dilinin faizi Ermənistan və Azərbaycan mediasındakı etnik zəminli nifrət ritorikasından xeyli azdır. İkinci məsələyə gəldikdə, bu, Gürcüstan mediasının Azərbaycan və Ermənistan mediasından böyük üstünlüyü kimi təqdim oluna bilər. Sərt tənqidlərə baxmayaraq Gürcüstanda media nümayəndələrindən, medi orqanlarından məhkəmələrə müraciətlər edilmir. Bu qətiyyən məmurların medianı saya salmaması kimi qiymətləndirilməməlidir. Səbəb qanunların medianı məmurlardan yüksək səviyyədə qorumasıdır. Ona görə də ölkədə məmur-media arasındakı münasibətlərin çözümünü daha çox media institutları, söz azadlığı ilə məşğul olan vətəndaş cəmiyyəti təmsilçiləri, qurumları üzərlərinə götürür.

Yaxşı nümunədir.

❑ **Aygün MURADXANLI, Batum**

YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014

**Xəbər verildiyi kimi, Gürcüstanın Batumi şəhərində "Avropa Birliyinin Şərq Tərəfdaşlığı" çərçivəsində Vətəndaş Cəmiyyəti Forumu keçirilib. Tədbirə dəvətlilər arasında "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu da olub. R.Arifoğlu tədbirin ilk günü şahidi olduğu skandalla bağlı reportaj hazırlayaraq musavat.com-a və "Yeni Müsavat" qəzetinə yollamışdı. Həmin reportaj dərc edildikdən sonra baş redaktora və rəhbərlik etdiyi media qurumlarına qarşı hücumlar oldu. Hücumçular isə sözügedən tədbirdə iştirak edən ermənilər və... bir neçə azərbaycanlı ictimai fəal idi.**

# Deputatlarımızdan Batumi qalmaqalına reaksiya



**İqbal Ağazadə:**
"Rauf Arifoğluna hücum edənlərin iqtidardakılarla nə fərqi var?!"



**Sabir Rüstəmxanlı:**
"Bir sıra insan haqları təşkilatları dövlətimizin maraqlarını ayaq altına atmaqla məşğuldurlar"



**Zahid Oruc:**
"Erməniçilik düşüncə tərzidir. Bu hadisəyə dəstək verənlər açıq şəkildə erməniçiliyin daşıyıcılarıdır"



**Fazil Mustafa:**
"İndiyədək görməmişəm ki, hansısa xarici nümayəndə Qarabağla bağlı müsbət mövqe nümayiş etdirsin"

Xatırladaq ki, ermənilər R.Arifoğlundan Avropa Birliyinə şikayət etmişdilər. Baş redaktordan şikayət edilməsinə səbəb tədbir çərçivəsində Çexiyanın "People in Need" təşkilatının foyedə Azərbaycan əleyhinə plakatlar asması haqda Azərbaycan nümayəndə heyətimizin etirazının Rauf Arifoğlu tərəfindən ictimailəşdirilməsi olub.

Yaşanan qalmaqaldan sonra ölkə daxilində "Yeni Müsavat"ın baş redaktoruna qarşı xüsusi bir qara "piar" kampaniyası başladılıb. Xüsusilə bu işdə bəzi müxalifət və QHT təmsilçiləri daha fəal görünür.

Xırda bir qrup bir qəzetçini şahidi olduğu olay barədə reportaj hazırlayıb qəzetində dərc etdiyi üçün təhqiramiz ifadələrin müşayiəti ilə suçlayır. Amma cəmiyyətin ictima-siyasi fəal kəsiminin əksəriyyəti isə Rauf Arifoğluna açıq dəstək nümayiş etdirir.

R.Arifoğlu əsasən Azərbaycan əleyhinə plakatlar asan Çexiyanın "People in Need" təşkilatı haqda "ermənipərəst" ifadəsinə görə ittihamlara məruz qalıb. Xatırladaq ki, həmin "ermənipərəst" ifadəsi R.Arifoğluna məxsus deyil. O sözü tədbirdə iştirak edən Azərbaycan nümayəndə heyətinin üzvlərindən biri işlədib.

Yaranmış vəziyyətlə bağlı bir neçə deputatın fikrini öyrəndik.

Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Batumidə baş verən qalmaqalda ziddiyyətli məqamların olduğunu diqqətimizə çatdırdı: "Rauf bəy kimin nə deməsindən asılı olmayaraq, informasiyanı işıqlandırır. "Yeni Müsavat" informasiya mənbəyidir. Batumidə baş verənlərlə bağlı ziddiyyətli məqamlar var. Bir tərəf məhbuslar məsələsini müdafiə edir. Bunu biz də müdafiə edirik. Digər tərəf isə, Dağlıq Qarabağın nümayəndə heyətini foruma qatmaq istəyiblər. Bunlar ayrı-ayrı məsələlərdir. İnformasiyanı çap edən tərəfi qınamaq doğru deyil. Qəzet heç cür qınanmamalıdır. İnsanlar fərqli fikrə dözümlü yanaşmağı bacarmalıdırlar. Biz fərqli fikrə görə təzyiqlər kampaniyası aparan iqtidarı tənqid edirik. Maraqlıdır, özümüz fərqli fikrə dözümlüyükmü? Heç kim eyni cür düşünməyə məhkum deyil. İnsan bir məsələyə müxtəlif istiqamətdən yanaşa bilər. Buna görə insanları öldürmək, tutmaq, təhqir etmək olmaz. Haqlı olduğunu sübut edəcək addımlar at ki, hər kəs sənə həsəd aparsın. Söyərək, əzərək yox. İqtidarda olsanız fərqli nə edərdiniz? Sizlərin əlində imkan olsa, fərqli fikirləri asıb-kəsərsiniz. Mən bu cür düşünürəmsə, yerimin harada olmağını özüm müəyyən edirəmsə, sən mənə yer göstərən deyilsən ki? İnsanlar bu təfəkkürdən xilas olmağı bacarmalıdırlar. Demokratiya hamının eyni cür düşünməsi deyil".

İ.Ağazadə qeyd etdi ki, hər kəsin fəaliyyətini tarix sübut edir: "Cəmiyyət hər şeyi gözəl bilir. Tarixə baxdıqda kimin kim olduğu aydın görünəcək. Fikirdən qəhrəman olmaz. Bu gün Azərbaycanda fikirdən qəhrəmanlar düzəldən cəmiyyət yetişib. Qəhrəmanlıq meydanlarda olur. Bu nədir, hər kəsdən fikir qəhrəmanları düzəldiblər? Heç həbsxanada olmaq da qəhrəmanlıq deyil. Dəfələrlə qeyd etmişəm ki, demokratiyanın bərqərar olması kiminsə həbsdə olmasından asılı deyil. 2003-də bundan çox məhbus var idi. Təkcə bir seçki üzrə 600 siyasi fəal, partiya funskioneri həbsdəydi. Demokratiya gəldi? Bu qışqıranlar hakimiyyətin müstəvisini qorumağa xidmət edənlərdir. Sizlər hakimiyyətin dəyirmanına su tökənlərsiniz".

Millət vəkili cəmiyyətdə qəribə bir tendensiyanın yarandığını qeyd etdi: "Parlamentdə təmsil olunursan, olunmayan səni satqın çıxarır. Məni də parlamentdə olduğuma görə tənqid edirlər. O insanlara sual verirəm ki, iqtidar 10 il bundan öncə demokratik idi? Baxsaq görərik ki, yox. Bəs o zaman sizlər niyə parlamentdə təmsil olunurdunuz? Özü də bir nəfərlə yox, 5 nəfərlə. Bir partiyanın bir nəfərlə parlamentdə təmsil olunması ayıbdısa, başqa partiyanın 5 nəfərlə təmsilçiliyi 5 dəfə çox ayıbdır. Ayıbınıza kor olub, susun. Təəssüf edirəm ki, savadına, mədəniyyətinə bələd olduğum insanlar da bu qrupa qoşulur. Azərbaycanın faciəsi bundan başlayır. Bu qrup çoxluq olsa belə, formaldır".

VHP sədri, deputat Sabir Rüstəmxanlı da dövlət maraqlarının daim öndə olduğunu vurğuladı: "Azərbaycandan kənarda dövlət maraqlarının öndə olduğu yerdə iqtidar-müxalifət söhbəti yoxdur. Azərbaycan milli maraqları yüksəkdədir. İqtidar və müxalifət nümayəndələri əgər vətəndaşdılarsa, millətin, dövlətin qeyrətini çəkirlərsə, milli mövqedən çıxış etməlidirlər. Hazırda bir sıra insan haqları adı altında qurumlar yaranıb. Dövlətimizin maraqlarını ayaq altına atmaqla məşğuldurlar. Azərbaycan beynəlxalq aləmdə nə qədər tənqid olunsa, bunların mövqeyi o qədər möhkəmlənəcək. Hətta Azərbaycana qarşı müxtəlif sanksiyaların olmasına belə razıdırlar. Belə hadisələrdə başqa yol yoxdur. Dövlət maraqları nəzərə alınmalıdır. Xüsusilə beynəlxalq təşkilatlarda. Özümə gəlincə isə, daxilimizdə insanların haqqını qorumalıyıq. Həbs olunmaların pisləməliyik. Hər birinin müdafiəsinə qalxmalıyıq. İnsan haqları adı altında erməni dəyirmanına su tökənlərə qarşı hamımız çıxış etməliyik. Bu bizim vətəndaşlıq borcumuzdur".

Deputat Zahid Oruc bildirdi ki, bir qrup adam Batumidəki tədbirdə baş verən qalmaqalın mahiyyətindən ictimai fikri yayındırıb diqqətləri Rauf Arifoğlunun üzərinə fokuslaşdırmağa çalışır: "Rauf bəy bir qəzetçi kimi orada baş verənlərə işıq salıb. Batumi qalmaqalı barədə Azərbaycan ictimaiyyəti ilk olaraq məhz onun hazırladığı reportajlardan xəbər tutub. Buna görə bir qəzetçinin qınanması, söyülməsi demokratiya ilə ziddiyyət təşkil edən davranışdır. Əslinə qalsa, vətəndaşlıq mövqeyi olan media təmsilçilərimiz belə situasiyalarda daha doğru addım atırlar. Onlar yaxşı anlayırlar ki, belə anlarda azərbaycanlılara məxsus olan mövqe ortaya qoymaq lazımdır. Hesab edirəm ki, Rauf Arifoğlu və nümayəndə heyətinin, bəzi QHT təmsilçilərinin tədbirdə Azərbaycana qarşı aparılan kampaniyaya qarşı mövqeləri yerində və düzgün idi. Onların planlarının ifşa olunması baxımından əlamətdar idi. Çexiya təşkilatının planı əvvəlcədən müəyyənləşdirilmişdi. Onlara dəstək verən bəzi qüvvələr aldıqları vəsaitləri doğruldurlar. Rauf bəyə və digərlərinə qarşı olan davranışın iki səbəbi var. Birincisi, bu şəxslər göstərirlər ki, Azərbaycana qarşı olan kampaniyanın içərisindədirlər. Bundan paraları çıxır. İkincisi, isə bu kampaniyanı təşkil edənlər bunu insanlıq davası kimi aparmırlar. İnsan haqları geosiyasi alətə çevrilib. Rauf bəyin və digərlərinin belə vəziyyətlə üzləşməsi, düşünürəm ki, ölkəmizin siyasi mühitini şəffaflaşdıracaq. Kimlik məsələlərini daha dəqiq görməyə imkan verəcək".

Deputat bəzi mətbuat orqanlarının bu hadisədəki mövqeyini də sərt tənqid etdi: "Bəzi jurnalistlərin məlum mövqeləri onları cəmiyyətə bir daha tanıdacaq. Mənə görə erməniçilik milli mənsubiyyət məsələsi deyil. Düşünürəm ki, onlar soyadlarına görə bu mənsubiyyəti daşıyırlar. Erməniçilik düşüncə tərzidir. Bu hadisəyə dəstək verənlər açıq şəkildə erməniçiliyin daşıyıcılarıdır. Bu nə qədər sərt səslənsə də, belədir. Onlara qarşı dirəniş göstərənlər dövlətçiliyimizin maraqlarını qoruyanlardır. İndiyə qədər hakimiyyətin siyasətini bu insanların sərt şəkildə tənqid etdiyini görmüşük. Onlara qarşı cavabımız da olub. Amma bu məsələdə haqlı olduqlarını deməк lazımdır. İndiyə qədər çox tədbirlərdə olmuşam. Görməmişəm ki, erməni siyasi nümayəndələri iqtidarla olan davalarını siyasi müstəviyə çıxarsınlar".

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa da Batumi toplantısında baş verənlərə münasibət bildirib: "Beynəlxalq təşkilatlarda ölkəmizin marağının qorunması vacibdir. Siyasi məhbusları bəhanə edərək, Azərbaycana qarşı aparılan kampaniyaya qarşı çıxan Azərbaycan nümayəndə heyətinin əksər üzvünün davranışı normal bir vətəndaş mövqeyidir. Bu məsələdə onlara dəstək vermək lazımdır. Beynəlxalq aləmdə Azərbaycana qarşı aparılan siyasətin əngəllənməsinə hamımız çalışmalıyıq. İndiyə qədər xaricdə çox tədbirlərdə olmuşam. Görməmişəm ki, hansısa gürcü, yaxud xarici nümayəndə Qarabağla bağlı müsbət mövqe nümayiş etdirsin. Batumidə baş verən qalmaqalda da həm Rauf bəyin, həm də digərlərinin mövqeyi haqlıdır. Orada buna mütləq etiraz səsi qaldırılmalıydı. Bütün hallarda Azərbaycanın qınaq obyektinə çevrilməsi doğru deyil. Burada söhbət iqtidar və müxalifətin mövqeyindən getmir. Azərbaycanın marağından söhbət gedir. Hansısa cinahda olmağın fərqi yoxdur".

❑ **Cavanşir ABBASLI**

# İşçi Qrup Rostova nə vaxt çatar?



**Tofiq Yaqublu**
**yaqublu@gmail.com**

(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)

Bizimkilərin ermənilərin hərbi helikopterini vurması məni çox sevindirdi. Bəli, düşmənlə belə davranmaq lazımdır. Ancaq bununla yanaşı bəzi əlavə qənaətlərimə də səbəb oldu. Baxdığım videosüjetlərdən aydınca görünür ki, iki düşmən helikopteri səngərlərimizə maksimum yaxınlaşaraq, lap alçaqdan dal-qabaq uçurlar. Niyə məhz birini vurmuşuq? Onların ikisini də vurmaq lazımıydı! Əgər desələr ki, çalışdıq, ancaq birini vura bildik, bu, çox pis izahat olar. Çünki Azərbaycan ordusunun qüdrəti və arsenalında olan ən mükəmməl silahlarla çox öyünürük. Düşünürəm ki, bu, həqiqətdir. Elə isə kifayət qədər rahat məhsuldar atışı niyə yerinə yetirə bilməmişik?

Yox, əgər deyilsə ki, siyasi cəhətdən düşünülərək, belə addım atılıb, atəşkəs dövründə birdən-birə belə kəskin addım sülh danışıqlarında mövqeyimizi zəiflədə bilərdi, yenə də səhv yanaşmadır. Əgər eyni anda biz dalbadal düşmənin iki helekopterini vursaydıq, beynəlxalq reaksiya bir helikopterin vurulduğunda olduğundan artıq olmayacaqdı. Yəni cəmi bircə hadisə baş vermiş olacaqdı. Bir sözlə, heyif əldən çıxan o ikinci helikopterdən.

***

Bir az da ölkədəki siyasi məhbuslarla bağlı yaradılmış İşçi Qrupun işi haqda danışmaq istəyirəm. Bu Qrup yarandığı gündən cəmi iki dəfə toplaşa bilib. Bu gedişlə...

Yox, yaxşısı budur bir əhvalat danışım. 70-ci illərdə kənddə kiminsə maşın alması ciddi hadisə sayılırdı. Çünki o vaxtlar belə səadətə tək-tük ailələr qovuşa bilirdilər. Maşın alan evdə mütləq şadyanalıq olardı. Göz aydınlığına gələnlərin əksəri pay-püş alardı. Sözsüz ki, maşın sahibi yaxşı stol açardı, gözaydınlığına gələnlərə layiqli qonaqlıq verərdi. Bu məclislərin bir özəlliyi də varıydı ki, maşın alan adam məclis üzvü Rusetə necə getdiyindən, maşını necə tapdığından, qiyməti necə öldürdüyündən və evə çatanacan yolboyu başına gələnlər haqda məclis üzvlərinə müfəssəl məlumat verərdi. Bir dəfə belə hadisə Ləmbəlidə qeyd olunarkən məclis məzəli sonluqla bitib. Belə ki, maşın alan adam bu prosesin ən xırda detallarına həddən çox vaxt ayırırmış. Təsəvvür edin ki, gecə saat 12-də o, hələ maşını Novosibirskinin bazarından çıxartmayıbmış. Qonaqlar da həm etika, həm də müftə qonaqlığın xatirinə diqqətlə ona qulaq asırlarmış. Qəhrəmanımız nəhayət, urusun pulunu verib, maşını bazardan çıxardır. Camaat bir yüngülləşir ki, aha, deyəsən, indi bozartmadan yeyib, çaxırdan vurmaq üçün tam rahat və münbit vəziyyət yaranır. Amma sən saydığını say. O, indi də az qala yolun hər kilometrini necə keçdiyini nəql etməyə başlayır. Necə maşın "obqon" edib, onu neçə maşın "obqon" edib, "pavarotu" saatda neçəylə kəsib, QAİ saxlayanda onunla nə danışıb, təkər partlayanda onu necə dəyişib və s. haqda əvvəlki müfəssəlliklə danışmağa davam edir. Vaxt isə keçirmiş. Qonaqlar narahat olmağa başlayırlar. Kənd camaatıdır, tezdən durmaq lazım gəlir, o qədər iş-güc var ki. Axırda məclis üzvlərindən birinin səbri çatmır, deyir ki, ay qardaşlar o, bu gedişlə səhər açılana Rostova ancaq çatar. Təklif edirəm ki, dağılışaq, yolun qalanına sabah yığılıb qulaq asarıq.

Düşünürəm ki, İşçi Qrupu bu gedişlə heç Rostova da çata bilməyəcək...



# Oynaşdan gəlib ər başı yarmaq mərəzi

Xalid KAZIMLI

**Biz də qrant alırıq. Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu Qarabağ həqiqətləri mövzusunda yazılan və "Yeni Müsavat"da dərc olunan yazıları maliyyələşdirir və bu, qəzetin ayaq üstə qalmasına yardımçı olur. Həmin qrant layihəsinə daxil olan vəsaitin necə xərcləndiyi barədə də KİV DDF-yə vaxtaşırı hesabat verilir. Zatən, görülən iş göz önündədir - yazılar fasilə olmadan qəzetdə dərc olunur.**

KİV DDF-dən ölkədəki ciddi media qurumlarının hamısı bu cür vəsaitlər alırlar. Onların içində qeyri-ciddi media qurumları da var, eyni zamanda özlərini "ölkənin yeganə cəsarətli və müxalifət qəzeti" adlandıranlar da, günortadan sonra dissidentlik eşqinə düşənlər də. Onlar da bu pulları həvəslə alırlar, daha necə xərcləyirlər, xərcləmirlər, üstündən ayırıb kimə əl tuturlar, tutmurlar, özləri bilərlər.

Ancaq söz-sözü gətirəndə nəyə görəsə "hökumətdən pul almaq" töhməti "Yeni Müsavat"ın üstündə qalır. Özü də çox vaxt bu ittiham elə həmin hökumətin həmin fondundan bizim qədər pul alan qəzetdə yer alır. Bu necə olur: bizim aldığımız çirkli pullardır, sizin aldığınız halal pullar? Və bu, bizə töhmətdir, sizə şərəf?

(Həm də KİV DDF-nin media qurumlarına verdiyi pul vəsaiti hakimiyyətin, hakim partiyanın, YAP-ın pulu deyil, birlikdə müstəqil olması üçün əlləşdiyimiz, min bir əziyyətlər, qurbanlar bahasına qurduğumuz dövlətin puludur, sadəcə, həmin vəsaitin sərəncamçısı hələlik Əliyev iqtdarıdır).

Bir bu deyil. Dövlət ötən il iqtidarın sərəncamında olan, müxalifətə yaxınlığı ilə tanınan, müstəqil fəaliyyət göstərən mətbuat orqanlarında çalışan jurnalistlərə təmənnasız ev payladı. Onların sırasında bizim qəzetdə çalışan iki nəfər də vardı (bir sabiq işçimizə isə ev Mətbuat Şurasının xətti ilə qismət olmuşdu). Yenə özünü ölkənin yeganə müxalifət qəzeti adlandıran media qurumunun əməkdaşları da hakimiyyət tərəfindən verilən həmin evdən imtina etmədilər, aldılar və içində asudə yaşayırlar.

Amma nəyə görəsə həmin evlər bizim başımızın töhmətidir (söz sözü gətirən kimi üzümüzə çırpılır: "rejimdən ev aldılar"), onlar isə həmin evdə yaşaya-yaşaya dissident, "radikal müxalifət" olaraq qalırlar. Məntiq varmı? Bəlkə də var, amma bu cığal adamın məntiqindən başqa bir şey ola bilməz.

Bu ölkənin ən məntiqsiz, hətta ən absurd iddialarından biri də başqa-başqa dövlətlərdən, şübhəli-şübhəli fondlardan (onların içində təbii ki, şəffaf və xoşməramlı donor təşkilatları da var) qrant alanların öz ölkəsinin dövlətindən (KİV DDF, Mətbuat Şurası, QHT Şurası və s.) qrant alanları ittiham etməsidir. Şüarları da çox sərtdir: "Siz rejimə işləyirsiniz, yaltaqlıq edirsiniz".

Folklorumuzda bu durumu gözəl izah edən və el arasında hələ də işlədilən bir kəlam var: "Oynaşdan gəlib ər başı yarmaq". Öz qəbahətlərini bilib dillərini dinməz qoymaq əvəzinə at kimi adamın üstünə kükrəyirlər.

Sanki özləri pul verənlərə işləmir və yaltaqlıq etmirlər. Batum forumundakı qalmaqal, başqalarının işlətdiyi bir kəlmə sözün ("ermənipərəst") qəzetdə yer almasına görə Rauf Arifoğlunun və "Yeni Müsavat"ın üzərinə təşkil edilən hücum göstərdi ki, onlar aşırı canfəşanlıqla həmin təşkilatın müdafiəsinə qalxaraq öz həmvətənlərini belə boğazlamağa hazırdırlar. Bəs o təşkilatdan gələn qrant kəsilsə, necə olacaq? Yenə də onun müdafiəsinə qalxacaqlarmı? Yoxsa hücum edən tərəf özləri olacaq? Güman ki, ikinci olacaq. O zaman o təşkilatın "insan haqları uğrunda gördüyü işlər, siyasi məhbusların azadlığı üçün çəkdikləri əziyyət" unudulacaq.

Bu, gerçəkdən də psixiatriyya elminin öyrəndiyi xəstəlik növünə xas durumdur. Daima başqalarından şübhələnmək, hər şeydə gizli bağlılıqlar, konspirasiya axtarmaq, baş verən heç nəyin adi hərəkət olduğuna, təsadüfən alındığına inanmamaq, hər deyilən sözü "sənə dil verən var, Züleyxa" ritorikası ilə izah etmək və sair bu sayaq xroniki şəkkaklıqlar bir-birinə qarışmış maniyaların insanlara kütləvi sirayətinin nəticəsidir.

Bunun günahı mövcud hakimiyyətdədir. Rejim insanları o qədər təqib etdi, o qədər sıxdı, o qədər aldı-satdı ki, indi bir çoxları təqibolunma və özünüböyütmə maniyasından əziyyət çəkirlər.

## "Anti-İŞİD" qrupunun yaradılması xəbərinə MTN-dən reaksiya gəldi

**Dünyanı lərzəyə salan İŞİD terror təşkilatına qarşı hərbi əməliyyatlar son günlər daha ciddi hərbi fazaya keçib. Bu proses Azərbaycandan da radikal dini çevrələrə qoşulmaq istəyənlərə, o cümlədən müxtəlif dini cərəyanları təmsil edənlərə qarşı əməliyyatlarla bir vaxta təsadüf edir. MTN, DİN və Respublika Prokurorluğunda şərti olaraq "anti-İŞİD" adlandırılan birgə qrup yaradılması haqda xəbər vermişdik.**



# Bakı təhlükəsizlik çəmbərinə alınır

### Hakimiyyət Avropa Oyunlarının təhlükəsizliyinin qorunması üçün terrorla mübarizədə təcrübəsi olan dövlətlərdən biri ilə anlaşıb; Naxçıvandakı dindarın həbsinin pərdəarxası

Həmin xəbərdə yaradılan qrupun əsas koordinasiyasının MTN-in Antiterror İdarəsinə həvalə edildiyi deyilirdi. Məlumatda o da deyilirdi ki, qrup digər dövlət orqanları ilə əlaqəli işləyir: "Xüsusilə Bakıda saqqal saxlayanlar, müxtəlif dini cərəyanlarla təmasları olan, mənzilinin satıb ölkədən getmək niyyətində olanlar haqda məlumatlar toplanılır, onların çevrələri və dini baxışları araşdırılır". İddialara görə, Yeni il ərəfəsi Türkiyə də daxil, xüsusilə ərəb ölkələrinə getmək istəyənlərlə bağlı turist firmalarına sifarişlər belə inidən ciddi araşdırılır. "Çünki statistika göstərir ki, terror qruplarına qoşulmaq istəyənlər yaşadıqları ölkədən əsasən "turist" kimi çıxmağa üstünlük verirlər" - deyə, məqalədə bildirilirdi.



Yayılan xəbərlərlə bağlı moderator.az saytı MTN-ə müraciət edib. MTN-in ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Arif Babayev "anti-İŞİD" qrupunun yaradılması ilə bağlı "Yeni Müsavat"da yer almış məlumatı nə təsdiq, nə də təkzib edib. A.Babayev milli maraqları təhdid edən istənilən təhlükəni önləmək üçün zəruri addımların atıldığını vurğulayıb: "Məsələ ilə bağlı sadəcə onu deyə bilərəm ki, dövlətin təhlükəsizliyinə, milli maraqların təmin olunmasına qarşı mümkün təhdidlərin qarşısının alınması üçün bütün zəruri, qabaqlayıcı tədbirlər həyata keçirilir, əməliyyat şəraitinə nəzarət olunur".

Dini çevrələrlə bağlı xüsusi bir koordinasiyalı əməliyyatın aparıldığını həftəsonu Naxçıvandan gələn xəbərlər də təsdiq edir. Məlumata görə, Naxçıvanda dindarlar kütləvi şəkildə saxlanılaraq polisə aparılır.

Bu haqda "Azadlıq" Radiosuna dindarların özləri məlumat verib. Onların dediyinə görə, bir müddət öncə başlayan həbslər son günlər daha da artıb. Təhlükəsizliyi baxımından adının çəkilməsini istəməyən dindar deyib ki, təqib olunmalarına səbəb dini cərəyanlardan biri ilə bağlıdır: "Hüquq-mühafizə orqanları birgə əməliyyat keçirirlər. Dindarları aparıb hələlik adı bizə məlum olmayan dini cərəyanla bağlı sorğu-sual edilirlər. Demək olar ki, bütün dindarları aparırlar. Şübhələndikləri şəxsləri buraxmırlar. Dindar var ki, 4 gündür həbsdədir. Biz də oturmuşuq evdə, gözləyirik ki, nə vaxt gəlib aparacaqlar. Biz heç bir cərəyan tanımırıq, heç nədən də xəbərimiz yoxdur. Qurunun oduna yaş da yanır".

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi dindarların saxlanmaları ilə bağlı səslənən xəbərləri hələ ki təkzib edir. Konkret ad çəkilməsə də, aydındır ki, "dini cərəyanlardan biri" dedikdə məhz sələfilər nəzərdə tutulur.

Bu arada Azərbaycandakı sələfi təriqətinə məxsus şəxslərə xidmət edən saytların sayının artması barədə də məlumatlar yayılıb. Axar.az xəbər verir ki, məhz bu saytlar vasitəsi ilə dünyada və ölkədə baş verən hadisələr təriqət üzvlərinə çatdırılır. "Qısa araşdırma zamanı məlum oldu ki, sözügedən saytların konkret yerləşdiyi məkan yoxdur. Saytda ünvan, telefon göstərilmir, sanki gizli fəaliyyət göstərirlər. Bu saytlara nəzər yetirilən zaman məlum olur ki, məqsəd internet vasitəsi ilə təbliğat işlərinin aparılması, şəbəkə arasında rabitənin yaradılması və sələfi ideologiyasını yaymaqdır. Eyni zamanda, digər maraqlı məqam sələfilərə məxsus olduğu bilinən saytların Azərbaycanda və Azərbaycan dilində fəaliyyət göstərməsinə baxmayaraq, Rusiya domenlərindən istifadə edilməsidir" deyə, xəbərdə bildirilir.

Hüquq-mühafizə orqanlarına yaxın çevrələrdən aldığımız bilgiyə görə, xüsusilə paytaxt Bakıda radikal dini cərəyanlara qarşı mübarizənin gücləndirilməsinin əsas səbəbi Bakıda gələn il keçiriləcək 2015-ci il Avropa Oyunlarıdır. Məlum olduğu kimi, bu yarışa hakimiyyət çox böyük önəm verir və ciddi təhlükəsizlik tədbirləri görür. Hazırda dünyadakı şərtlər isə təbii olaraq bu kimi yarışlarda təhlükəsizlik, ictimai asayişin qorunması məsələsini daha da aktuallaşdırıb.

Hakimiyyətin narahatlığı üçün isə, əlbəttə, ciddi səbəblər də var. Çünki məhz 2012-ci ildə "Eurovision" mahnı yarışması zamanı Bakıda terror aktlarına cəhdlər oldu, bir neçə nəfər həbs edilərək məhkəmə qarşısına çıxarıldı. Hətta sələfilərə qarşı keçirilən əməliyyatların birində təhlükəsizlik orqanları itki də verdi. İŞİD xilafət quracaqları ölkələr siyahısında Azərbaycanın da olduğunu bir neçə dəfə bəyan edib. Məhz bu təhdidlər gələn il Bakıda keçiriləcək oyunlarda ciddi əməliyyat tədbirlərinin, təhlükəsizliyin qorunması işinin yüksək səviyyədə təşkil olunmasını tələb edir.

İddialara görə, Azərbaycan hakimiyyəti Avropa Oyunlarının təhlükəsizliyi ilə bağlı radikal dini cərəyanlarla və terrorla mübarizədə kifayət qədər təcrübəsi olan dövlətlərdən birinin (dövlətin adını çəkmirik-red) ciddi dəstəyini alıb. Bu dəstək ilk növbədə Avropa Oyunlarının keçiriləcəyi arenaların və idmançıların yerləşdiriləcəyi Heydər Əliyev prospektindəki olimpiya kəndinin qorunmasına aiddir. Qeyd edək ki, 17 gün davam edəcək tədbirdə 10 minədək rəsmi, 6000-dən çox idmançı 20 növ üzrə 18 arenada mübarizə aparacaq. Bu kimi mötəbər yarışların təhlükəsizliyi bir neçə ölkənin hüquq-mühafizə orqanları ilə birgə qorunur. Belə görünür ki, ölkə daxilində radikal dini çevrələrə qarşı mübarizə daha da gücləndiriləcək. Xəbərləri şərh edən təhlükəsizlik üzrə ekspertlərdən biri Bakının Olimpiya Oyunlarınadək təhlükəsizlik çəmbərinə alınacağını iddia edib: "Ona görə də radikallara qarşı mübarizə, dini çevrələrdə həbslərin daha da artacağı proqnozlaşdırılır. Ölkənin daxilində bu təhlükəsizliyik kəmərini yaratmaq isə Azərbaycan hüquq-mühafizə orqanlarının bir saylı vəzifəsidir".

Avropa Oyunlarının keçirilməsinə isə cəmi 200 gün qalır...

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014

**"Baxış bucağı"**

**Parlamentdə 2015-ci ilin büdcə müzakirələri üç günlük müzakirələrdən sonra başa çatdı və hökumətə sənədin yenidən hazırlanması üçün simvolik vaxt verildi. Ancaq daha çox diqqət çəkən bir məqam oldu ki, müzakirələrdə müəyyən istisnalar olmaqla əksər deputatlar daha çox ölçülü-biçili danışmağa üstünlük verdilər. Bunun bir səbəbi də o ola bilər ki, hazırkı tərkib sonuncu dəfə büdcə müzakirələri üçün toplaşmışdı və olduqca həssas vaxtdır.**

# "İqtidarın və mənim Hüseyn Abdullayev problemimiz yoxdur..."

## **Fəzail Ağamalı:** "Milli Məclis indi-indi səviyyəli institut kimi formalaşır"

Hesab olunur ki, deputatlar növbəti çağırışda da mandat qazanmaq üçün hökumət üzvləri ilə münasibətlərə xələl gətirə biləcək hər hansı sərt ifadəyə yol vermək istəməyib. Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı ilə büdcə ilə bağlı söhbətimizdə ilk olaraq bu barədə soruşduq:

***- Fəzail bəy, bəs, siz büdcə müzakirələrindəki çıxışınızda nə qədər korrekt olmağa çalışdınız?***

- Mən düşünürəm ki, bu, sizin o qədər də dəqiq olmayan, əslində çıxışlardan dolayı çıxarmış olduğunuz nəticələrin subyektiv yanaşması və daha çox da qəzetçilik baxımından, həmçinin, mənsub olduğunuz qəzetin müxalifət xarakterinə uyğun bir yanaşmadır. Çünki orada büdcə ilə bağlı bütün iradlar bildirildi. İstər parlamentin siyasi partiyalar bloku, istər müstəqil deputatlar tərəfindən. Hətta Siyavuş Novruzovun çıxışı və söylədiyi fikirlər kifayət qədər ciddi xarakter daşıyan notlarla zəngin idi.

***- Təbii ki, Siyavuş Novruzov budəfəki çıxışı ilə istisna təşkil edənlərdən oldu...***

- Bu, o demək deyil ki, Siyavuş Novruzov siz dediyiniz kontekstdən özü üçün tam mənada arxayındır. Mənim buna qətiyyən şübhəm yoxdur. Siyavuş Novruzov hələ uzun illər boyu Azərbaycan siyasətində öz sözünü deyəcək, bu, birmənalıdır. Siyavuş Novruzov orda bir sıra həqiqətləri dilə gətirməklə həm də belə bir fikri ortalığa qoydu ki, bu gün YAP da iqtidarda olmasına baxmayaraq inkişafımızın yüksək tempini etiraf etməklə bərabər, mövcud nöqsanların üzərinə getməyi də bacarır. Şəxsən mən özüm əldə edilmiş uğurları söyləməklə bərabər həm də Azərbaycanın iqtisadi inkişafının hədəflərinin müəyyənləşdirilməsi ilə bağlı fikirlərimi ifadə etdim. Kənd təsərrüfatı ilə bağlı fikirlərimi dedim. Eyni zamanda seçildiyim rayonun problemləri ilə bağlı fikirlərimi ifadə etdim. Texniki peşə məktəbləri kimi ciddi əhəmiyyət kəsb edən sahənin inkişafı ilə bağlı danışdım. Yəni mən düşünmürəm ki, biz 2015-ci ili göz önünə alaraq daha çox ehtiyatlı çıxış etdik. Xeyr! Milli Məclis artıq indi-indi səviyyəli, elitar bir siyasi institut olaraq formalaşır və ordakı deputatlar hay-küydən, emosiyadan kənar, daha çox konstruktiv xarakterli, məhsuldar mahiyyətli çıxışlara üstünlük verirlər. Hətta İqbal Ağazadənin çıxışında da bu, öz əksini tapdı. Yəni emosiyadan daha çox təklif xarakterli fikirlər oldu. Onun da səsləndirdiyi təkliflər real təkliflər idi və deputatların əksəriyyəti tərəfindən müsbət qarşılandı.

***- Amma bu da var ki, vaxtilə bir sıra müxalifətçi deputatların səsləndirdiyi təkliflər hakim çoxluq tərəfindən qəbul olunmadığı kimi, bu gün YAP təmsilçiləri tərəfindən dilə gətirilən nöqsanlar da məmurlar tərəfindən qəbul olunmadı. Bu qəbulolunmazlıq bizi toplum olaraq hara aparır?***

- O zaman deyim tərzi fərqli idi. Həmin müxalifət partiyalarının bəzi nümayəndələrinin vaxtilə Milli Məclisdə söylədiyi fikirlərlə Siyavuş Novruzovun söylədiyi fikirlərin deyim metodologiyasında, deyim formasında ciddi fərq var. Söhbət bundan gedir. Bəli, bu gün məmurlar çalışır ki, özlərinə haqq qazandırsınlar. Məsələn, mən özümdən deyim. Bu gün kommersiya banklarının Azərbaycan vətəndaşlarına verdiyi kreditlərin faizinin ailələrə gətirdiyi fəlakətlər göz önündədir. Bunun üçün təklif etdim ki, əgər Mərkəzi Bankın tövsiyələri konkret nəticə vermirsə, onda biz qanunvericilik baxımından sərt münasibəti ifadə edək və çalışaq ki, kommersiya banklarının qarşısı alınsın. Bəzi iqtisadçıların söylədiyi fikirlərə görə Azərbaycan əhalisinin 5 milyonu bu gün kreditlərin içərisində çırpınmaqdadır. Əgər Mərkəzi Bankda bu məsələyə adi bir şey kimi yanaşırlarsa, ört-basdır etməyə, ütüləməyə çalışırlarsa, bu, artıq sadəcə olaraq çox primitiv özünümüdafiə xarakteri daşıyır.

O biri məmurların da, digər millət vəkillərinin, siz söylədiyiniz kimi, Siyavuş Novruzovun fikirlərini də səmimi etiraf edərək bu problemlərin aradan qaldırılmasının zəruriliyini demək əvəzinə, özlərinə haqq qazandırması əslində başadüşülən deyil. Mən açıq etiraf edim ki, bütün bu proseslərdə Samir Şərifov daha səmimi görünür, hadisələrin üzərinə getməkdən çəkinmir, deputatlarla daha çox polemikaya hazırdır. Çox təəssüf ki, bir çoxları belə deyil.

***- Sizcə, baş nazir deputatların rəyi ilə nə dərəcədə hesablaşır? Onu müzakirələrdə çox az gördük və mövqeyi də bəlli olmadı...***

- Mən tam məsuliyyət və səmimiyyətlə deyirəm ki, ölkənin baş naziri cənab Artur Rəsizadə bütün hadisələrin içindədir və o, bütün ruhu ilə söylədiyimiz problemlərin aradan qaldırılmasında bizimlə həmrəydir. Burada ikinci fikir ola bilməz. Çünki mənim bir neçə dəfə deputatı olduğum regionla bağlı onunla keçirdiyim görüşlərdə verdiyim təkliflərə reaksiya, görüşün dərhal konkret nəticə verməsi məni belə fikir söyləməyə sövq edir. Bizim hökumət üzvləri bütün mənalarda Artur Rəsizadədən nümunə götürməlidir.

***- Bundan əvvəlki büdcə müzakirələrində də müəllimlər, həkimlərin maaşı, pensiya təminatı və s. bağlı təkliflər olub, amma problem həllini tapmayıb. Budəfəki təkliflərə isə hökumət üzvləri sanki 2015-lə bağlı ümidsizliklə fikir bildirdilər. Gələn illə bağlı narahatlığınız varmı?***

- Mən deməzdim ki, bu, ümidsizlik idi. Sadəcə, son dərəcədə ehtiyatlı yanaşma var idi. Çünki dünyada gedən proseslər, xüsusi olaraq Azərbaycanın xeyli dərəcədə Rusiya ilə, onun iqtisadi həyatı ilə əlaqələri, bizim soydaşlarımızın Rusiyada çalışmaları, ordan ölkəmizə gələn maliyyə vəsaiti, Azərbaycanın kənd təsərrüfatının xeyli dərəcədə Rusiya bazarından asılı olması, Azərbaycanın tikinti, xidmət, ərzaq məhsullarının Rusiya bazarı ilə bağlılığı kimi məsələlər, təbii ki, bizim real həyatımıza öz təsirini göstərəcək. Kimsə deyirsə ki, bu, mümkün deyil, o, kifayət qədər səhv edir. Digər tərəfdən Rusiyanın düşdüyü indiki vəziyyət və getdikcə bu vəziyyətin ağırlaşması bütün region ölkələrinə, Azərbaycana da təsirsiz ötüşməyəcək. Nəzərə alsaq ki, Rusiya dünyanın neft və qaz istehsal edən ən varlı ölkələrindən biridir və bu gün dünya güclərinin vacib hədəflərindən biri neftin və qazın qiymətlərinin aşağı salınmasına yönəlib, bunun özünün də Azərbaycanın iqtisadiyyatına təsiri qaçılmazdır. Bu baxımdan mən söylədiyiniz fikirləri daha dəqiq ifadə etmək istərdim. Bu da yaranmış situasiyada son dərəcədə ehtiyatlı münasibət və gedən proseslər haqqında proqnozun verilməsində ehtiyatlılığın nümayişidir.

***- Parlament qaydalara əsasən, hökumətə büdcəni yenidən hazırlamaq üçün vaxt verdi. 10 gündən sonra parlamentə qayıdacaq büdcə zərfində hansı ciddi dəyişikliklərin olacağını gözləyirsiniz?***

- Mən düşünmürəm ki, 10 gün ərzində büdcə layihəsində ciddi fundamental dəyişikliklər olacaq. Bu, olası da deyil. Çünki büdcə layihəsi kifayət qədər mükəmməl bir sənəddir və bunun ciddi xarakterli dəyişikliklərə ehtiyacı yoxdur. Lakin bununla bərabər deputatların söylədiyi fikirlər də var idi. Bu fikirlərdə həlli zəruri olan məsələlərdən də kifayət qədər bəhs olunmuşdu. Bunların hansının büdcə layihəsində nəzərə alınacağını zaman göstərəcək. Lakin bir ənənə var. Bu ənənə də ondan ibarətdir ki, millət vəkillərinin söylədiyi fikirlər komitələr, yaxud plenar toplantı səviyyəsində müzakirələrdə hökumət tərəfindən mümkün qədər nəzərə alınır. Mən ümidvaram və güman edirəm ki, söylədiyimiz bir sıra təkliflər büdcənin yekun sənədində nəzərə alınacaq və onun təkmilləşməsində öz ifadəsini tapacaq.

Biz bir şeyi unutmalı deyilik ki, iqtisadiyyatımızın davamlı və dinamik inkişafını qoruyub-saxlaya bilirksə, növbəti illərdə də Azərbaycanı bu kataklizmlərdən qoruya biliriksə və Azərbaycan şimaldan, cənubdan tam blokadaya alınmış, iqtisadi sanksiyaların hökm sürdüyü ölkələrin əhatəsindədirsə, düşmən Ermənistanla və iqtisadiyyatı zəif olan Gürcüstanla əhatə olunubsa, belə bir durumda Azərbaycan öz iqtisadiyyatını böhranlardan qoruya bilirsə, 20 milyardlıq büdcənin sahibi olaraq büdcəni növbəti ildə reallaşdıra bilirsə, bu, unikal bir Azərbaycan modelidir. Bu modelin dayanıqlı olması təqdirəlayiqdir. Bu model hər bir Azərbaycan vətəndaşının həyatında özünün ifadəsini tapırsa, biz birmənalı olaraq ölkə prezidentinə, onun müdrik siyasətinə minnətdar olmalıyıq.

***- Söhbətin əvvəlindəki suala qayıdıram, siz özünüzü 2015-ci il parlament seçkilərində iştiraka hazırlıqlı bilirsinizmi? Son vaxtlar ardıcıl məlumatlar yayılır ki, tərkib ciddi şəkildə dəyişəcək deyə...***

- Dəyişiklik, əlbəttə ki, olmalıdır. Cəmiyyət inkişaf etdikcə bütün sahələrdə olduğu kimi Milli Məclisin tərkibi də dəyişilməlidir. Bu, təbiidir, qaçılmazdır və buna çox normal yanaşmaq lazımdır. Mənim özümə gəldikdə, sağlıq olsun, qarşıdan gələn parlament seçkilərinə bir daha qatılmaq niyyətindəyəm. Hər şey sağlığın başında və Tanrının verdiyi qismətin içərisindədir.

***- Vaxtilə aranızda məlum insident yaşanan sabiq həmkarınız Hüseyn Abdullayevə məxsus obyektin dağıdılmasını siz necə qarşıladınız?***



**"Əgər Mərkəzi Bankda bu məsələyə adi bir şey kimi yanaşırlarsa, ört-basdır etməyə, ütüləməyə çalışırlarsa, bu, artıq sadəcə olaraq çox primitiv özünümüdafiə xarakteri daşıyır"**

- Tam səmimiyyətlə deyirəm, hansı obyektdən söhbət getdiyindən xəbərim yoxdur. Onu kim dağıdıb? Dağıtmaq bugünkü Azərbaycan reallığına uyğun gəlmir. Ola bilsin ki, onu ləğv edə, yaxud hansısa bir şəkildə nə iləsə əvəz edə bilərlər. Ya da Bakının Baş Planına uyğun olaraq söküntüyə məruz qala bilər. Ancaq dağıtmaq ifadəsini qəbul etmirəm. Düşünmürəm ki, bu, ancaq Hüseyn Abdullayevə məxsus olduğuna görə ləğv olunub. Onlarla obyekt, müəssisə ümumdövlət planlarına, məqsədlərinə uyğun olaraq sökülür, yenisi ilə əvəz olunur və lazım gələrsə, onun kompensasiyası verilir. Bu gün Bakı yeniləşmə içərisindədir və bu mənada çox binalar, obyektlər sökülür. Bir neçə ildən sonra Fəzail Ağamalının yaşadığı ictimai bina da söküntüyə məruz qalırsa, bu, o demək deyil ki, Fəzail Ağamalıya qarşı təzyiq, onun evdən məhrum edilməsidir. Bu cür başa düşmək lazım deyil və belə yanaşmanın özü də çox qeyri-obyektivdir. Yəqin, o obyekt hansısa məqsəd üçün lazım olub, sökülüb. Əgər o, qanuni şəkildə kiminsə adına, ünvanına olan tikintidirsə, yəqin dövlət onun birmənalı olaraq kompensasiyasını ödəyəcək, mənim buna qətiyyən şübhəm yoxdur. Hüseyn Abdullayevin bu gün Azərbaycanda xüsusi problemi yoxdur. İqtidarın da, dövlətin də, mənim də Hüseyn Abdullayev problemimiz yoxdur, hadisədir, oldu, bitdi, qurtardı, tarixə çevrildi, tirajlamağa, yeniləməyə də ehtiyac yoxdur. Ona görə də baş verən bu cür adi epizodik məsələlərin siyasiləşməsi, ictimailəşməsini, buna xüsusi vurğu ilə yanaşılaraq gündəmə gətirilməsini düzgün saymıram...

❑ **Elşad PAŞASOY**



# Xalq özü olanda

Zamin HACI
zaminhaci@gmail.com

**Çox romantik xalqımız var. Bu, hətta elmi məlumatların hazırlanmasında da özünü göstərir. Təzəlikcə internetdə, Vikipediya səhifəsində Teymurləngin oğlu Miranşah haqda belə cümlə oxudum: "Tarixi gedişatın təhlili onu göstərir ki, əgər xalq o zaman sözün əsir mənasında özü olsaydı, Fəzlullah Nəiminin arxasınca gedər, onun Miranşahın atının quyruğunda parça-parça edilməsinə imkan verməzdi". Bunu ilk dəfə oxuyanda, etiraf edirəm, xeyli güldüm də.**

İndi bu yazını hazırlayıb Vikipediya-ya qoyan qaqaşdan soruşsan ki, "xalq sözün əsir (orijinalında, gördüyünüz kimi, əsil sözünü də düz yazmayıblar - Z.H.) mənasında özü olsa" bu, necə olur - şübhəsiz, bir şey uydurub danışacaq. Sən də insandakı fantaziya gücünə heyran qalacaqsan. Xalq özü olanda necədir, özü olmayanda necədir, yaxşısı budur belə dərin müzakirələri elə uca xalqın öz ixtiyarına buraxaq, arzu edək o, heç vaxt düşüncə adamlarının at quyruğuna bağlanıb sürütmə edilməsinə imkan verməsin. Ta imkan versə də qınamayaq, gələcəkdə şərait yaradaq, desin neyləyim, özümdə deyildim, günahın hamısı Miranşahda oldu, əmr verdi, elədim. Mən əsgərəm, tapşırıq verirlər, xəstə siyasi dustaqları incidirəm. Göstəriş gəlir, günahsız yaşlı qadınları zindana salıram. Göstəriş verməsələr eləyərdimmi? Sənin əziz başın haqqı, qəti eləməzdim! Düzdür, sən indi buna qanunsuz göstəriş deyirsən, amma o vaxt qanuni idi. İnsafən, buyruq qulu olmağımın yaxşı haqqını da ödəyirdilər. İstəyirsən indi də sənə görə kimisə döyüm. Əmr ver, robotun hüzurundadır!

Neft cini ilə birgə bizdə yerin altından çoxlu sayda başqa cinlər, əcinnələr də çıxıb, daraşıb məmləkətin canına. Hər bir azərbaycanlının öz cini var. Bizi idarə edən cinlərdir, bizim günahımız bu cəhətdən də yoxdur. Cin - erkək xeylaqlarımızın canına doluşanlardır, əcinnə isə zənənlərdə yaşayan məxluqata deyilir. Təxminən müəllim-müəllimə söhbəti kimi bir şeydir.

Xalqımız özü olsa yəqin evində normal istilik, işıq da olardı. Qış hələ qapının ağzını təzə kəsdirib, ölkənin hər yerindən cürbəcür ağlaşma səsləri asimana bülənd olmuşdur. Bakıda, Sumqayıtda insanlar qazın kəsilməsindən şikayətlənir. İşığı yanmayan, suyu gəlməyən, interneti qırılan - bunlar ta heç, adi problemlərdir, heç yazmağa dəyməz. Sevgili xalqı dilxor edən odur ki, yapist yoldaşlar Yunanıstanın Peloponnes yarımadasından başlamış Polşanın Qdansk limanına qədər qaz verirlər, ya da verəcəkləri ilə baş-beynimizi aparırlar, ancaq Sumqayıtda, Əhmədlidə qaz gəlmir. Bu necə siyasətdir? Bəyəm azərbaycanlılar insan yox, iynədirlər ki, onların həyatda əsas vəzifəsi "aləmi bəzəyib özləri lüt gəzməkdən" ibarət olsun? Bəyəm evin içini inək peyini ilə doldurub çölünə qızılgül suyu çəkərlər?

Heç bir məntiqi olmayan vəziyyətdir. Eyni hal Azərbaycan Dövlət Neft Şirkəti üçün qayırılan, əyri xiyara oxşayan əcaib göydələnə aiddir. Bir neçə milyard da bu səfeh, nə milli, nə modern arxitekturaya dəxli olan binaya sərf edildi getdi. Dünən hardasa gözümə informasiya dəydi: ARDNŞ həmin binada çağdaş işıqlandırma sistemi qayırıb, binanın üstü gecələr işıq verəcək, camaat və şəhərimizin nəğməli qonaqları da bu düşüklüyə baxıb zövq alacaqmış. O işıqları bəlkə öncə camaatın evinə verəsiniz? Xiyara al-əlvan işıqlar çəkəndə, el dilində desək, "svetomuzika" qoşanda bəyəm onun xiyarlıq mahiyyəti dəyişir, banan olur? Olmur. Özünüzü yormayın. Min dənə elə əcaib bina qayırıb üstünə konfet kağızı bürüsəniz də dünya xalqları içinizdəki peyinli mahiyyəti anlayırlar, görürlər, qınayırlar və qınayacaqlar.

Vikipediyadakı o yazını hazırlayan qaqaşdan isə xahiş edərdim ora belə cümlə də artırsın: "Əgər ARDNŞ özü Miranşahın qabağında olsaydı Nəimini Rövnəq müəllimin cangüdənləri sürütmə edərdilər, xalqımız da sevinərdi ki, öz millətimizdir, canımız qurban"...

## Ankara-İrəvan münasibətlərində şok gəlişmə

# Türkiyə başımız üzərindən Ermənistana əl uzadır

### Qardaş ölkənin paytaxtında sərhədlərin açılmasının lobbiçiliyinə yönəlik beynəlxalq konfrans keçirilib; Ərdoğan iqtidarı 2015 bədnam yubiley ilini Azərbaycanı qurban verməklə adlamaq istəyir?..

**2015-ci il yaxınlaşdıqca Türkiyə hökuməti saxta erməni soyqırımı ilə bağlı ön hazırlıqları tədricən gücləndirir. Söhbət Ermənistandan getdiyindən, təbii ki, bu proses Azərbaycanda da ən müxtəlif səviyyələrdə və diqqətlə izlənməkdədir. Müşahidələr göstərir ki, qardaş ölkə iqtidarı qondarma "genosid"in 100 illiyini "minimum itki" ilə adlamaqdan ötrü həm effektli preventiv tədbirlər üzərində çalışmaqda, həm də hücum və "xalq diplomatiyaları"na önəm ayırmaqdadır.**




Önləyici tədbirlərdən biri kimi baş nazir Əhməd Davudoğlunun yeni postda fəaliyyətə başlar-başlamaz özünə erməni əsilli Türkiyə vətəndaşını müşavir təyin eləməsini göstərmək olar. Davudoğlu bu xüsusda bəyan edib ki, Ankara Ermənistanla münasibətlərdə daha aktiv kurs götürməyi planlaşdırır. Bir sıra təhlilçilər isə "daha aktiv kurs" dedikdə Ermənistanla sərhəd məsələsinin hansısa mərhələdə həllinin də nəzərdə tutulduğunu güman edirlər. Onların qənaətincə, Bakıya verilən çoxsaylı vədlərə rəğmən, Ankara hər halda, sərhədləri açmalı olacaq. Özü də bu, çox uzaq perspektivdə deyil, üzümüzə gələn il ərzində reallaşa bilər.

***

Belə görünür, sərhəd məsələsi artıq gündəmə gətirilib. Noyabrın 22-də qardaş ölkənin baş kəndində Azərbaycan-Türkiyə münasibətlərinə çat sala biləcək, hətta iki qardaş ölkənin arasını vuracaq tədbir öz işinə başlayıb: Ankara Universitetində düzənlənən və iki gün (22-23 noyabr) sürən konfransın adı isə belə olub - "Möhürlü qapı: Türkiyə - Ermənistan sərhədinin gələcəyi konfransı".

Əldə etdiyimiz bilgilərə görə, tədbir əsasən İstanbuldakı Qrant Dink Vəqfinin təşkilatçılığı və dəstəyi ilə (Qrant Dink İstanbulda nəşr olunan "Aqos" ermənidilli qəzetin erməni redaktoru olub, 2007-ci ildə qətlə yetirilib) reallaşıb. Forumun işində Türkiyə, Ermənistan, ABŞ və Fransadan tanınmış politoloq, konfliktoloqlar, iqtisadçı-ekspertlər, siyasətçilər iştirak ediblər.

Tədbirin "bilim kurulu" (ekspert heyəti) isə aşağıdakı tanınmış və nüfuzlu şəxslərdən ibarət qurulub:

Asaf Savaş Akat (Bilgi Universiteti, Türkiyə),

Aleksandr İsgəndəryan (politoloq, Ermənistan),

Əhməd İnsel (Qalatasaray Universiteti, Türkiyə),

Raymond Gevorkyan (Paris Universiteti, Fransa),

Fuat Keyman (Sabancı Universiteti, Türkiyə),

Jirayr Liparidyan (Miçiqan Universiteti, ABŞ),

H. Neşe Özgen (Mimar Sinan Universiteti, Türkiyə),

Volkan Vural (TÜSİAD, Türkiyə) -Aydın Doğanın köməkçisi,

Tomas de Vaal (Kornegi Fondunun aparıcı eksperti, "Qara Bağ" kitabının müəllifi, ABŞ).

Göründüyü kimi, siyahıda Azərbaycandan heç kim təmsil olunmayıb.

***

Konfransın proqramı ilə ilkin tanışlıqdan belə təəssürat yaranır ki, iki günlük müzakirələr müstəsna olaraq sərhədlərin açılmasının vacibliyi yönündə getməlidir və tədbir bütövlükdə məsələnin pozitiv həllinin lobbiçiliyinə həsr olunub. Proqramın giriş hissəsində əksini tapmış tezislər və əsas çıxışçıların siyahısında yer almış məşhur isimlərin bəlli mövqeləri, onların arasında Azərbaycandan heç kəsin yer almaması bu ehtimalı öncədən gücləndirirdi.

Konkretlik üçün qeyd edək ki, sənədin giriş hissəsində sərhədlərin 1992-ci ildən - Kəlbəcərin işğalından sonra qapalı qalmasının bölgəyə "neqativ təsirləri"dən daha çox danışılır. Eyni zamanda konfrans iştirakçılarının cavab tapmalı olacaqları suallar əsasən sərhədlərin açılmasının "pozitiv təsirləri" üzərində formalaşdırılıb. Qısası, tədbir üçün yönləndirici bir gündəmin qurulduğunu söyləmək mümkündür.

O da bildirilir ki, konfransın sənədləri 2015-ci ildə Qrant Dink Vəqfi tərəfindən yayımlanacaq.

***

Çatan bilgilərə görə, konfransa Türkiyənin ölkəmizdəki sabiq səfiri (2001-2004) Ünal Çeviköz də qatılıb. Bu yerdə yada salaq ki, tədbir ərəfəsində - ötən həftə sayın Çeviköz "Hürriyet" qəzetindəki yazısında Ermənistan siyasi-ekspert dairələrində rəğbətlə qarşılanan fikirlər işlətmiş, Türkiyəni "Qafqazdakı lider rolunu bərpa etmək üçün yeni təşəbbüslə çıxış etməyə, situasiyanın dalandan çıxmasına yardım göstərməyə" çağırmışdı.

İstefada olan diplomat yazmışdı ki, bunun yolu Ermənistanla sərhədləri açmaqdan keçir. Sitat: "Opponentlər deyir ki, Türkiyənin Ermənistanla sərhədləri bağlı saxlaması Qarabağ məsələsində Ermənistana təzyiqdir. Lakin 20 ildə Ermənistan Azərbaycanla razılaşmaya məcbur edilməyibsə, bu, necə təzyiq rıçaqıdır?" Onun zənnincə, sərhədlərin açılması Ermənistana böyük fayda gətirməklə yanaşı, ona daha ciddi təsir rıçaqı olacaq: "Türkiyə sərhədlərini tədricən açmaqla qonşularını yeni danışıqlara həvəsləndirə bilər. Ardınca Qarabağ prosesindəki irəliləyişi qiymətləndirərək sərhəd məsələsini daha funksional alətə çevirər".

Keçmiş diplomat hesab edir ki, Türkiyə Cənubi Qafqazdakı bütün oyunçulara "bərabər yanaşmalıdır", yəni həm Azərbaycan, həm də Ermənistandan bərabər məsafədə dayanmalıdır: "Yalnız bu yolla o, ədalətli vasitəçi imici formalaşdırmalıdır. Türkiyənin regiondakı önəmini nümayiş etdirməyin vaxtı çatıb. Əgər Türkiyə belə qətiyyət nümayiş etdirsə, Ermənistanla Azərbaycan da onun yolunu davam etdirə bilər".

Arayış üçün bildirək ki, Çeviköz Bakıdakı diplomatik missiyasını bitirdikdən sonra Türkiyə XİN-də idarə rəisi vəzifəsində çalışıb. 2007-2010-cu illərdə o, XİN-in Siyasi Planlaşdırma İdarəsinin direktoru olub və həmin postda ikən - 2008-ci ildə İsveçrənin Bern şəhərində Ankara-İrəvan gizli danışıqlarında Türkiyə nümayəndə heyətinə rəhbərlik edib. Ayrı sözlə desək, sərhədlərin qeyd-şərtsiz açılmasını nəzərdə tutan "Sürix protokolları"nın memarlarından olub.

Doğrudur, indi o, rəsmi şəxs sayılmır, lakin qısa və "zəngin" bioqrafiyasından aydınca görünür ki, hökumətə yetərincə yaxın adamdır və belə görünür, onun da xeyir-dua verdiyi bir törənlə (konfrans "Hürriyet"dəki müsahibədən bir neçə gün sonraya təsadüf edir) Türkiyə ictimai rəyinin sərhədlərin açılmasına hazırlanması prosesi başlayıb. Təbii ki, bu işdə Ərdoğan-Davudoğlu komandasının xəfif razılığı da olmamış deyil.

***

Belə çıxır ki, prezident Rəcəb Tayyib Ərdoğanın bu ilin sentyabrında Bakıda verdiyi bəyana rəğmən, qardaş ölkə hökuməti sərhədlər məsələsində Azərbaycanın köklü maraqlarının ciddiyə alınmadığı hansısa gizli plan, yaxud "Yol xəritəsi" ilə ilgili hazırlıqlar içindədir. Zatən, Azərbaycan əleyhinə altdan-altdan bu kimi "Yol xəritə"lərinin mövcudluğu və mümkünlüyü barədə "Yeni Müsavat" olaraq zaman-zaman yazmışıq. Bir daha bəzi məqamlara diqqət yönəltmək zərurəti var.

Məsələ ondadır ki, xeyli vaxtdır Birləşmiş Ştatların patronajlığı ilə Türkiyə ilə Ermənistanı barışdıracaq böyük anlaşmanın - "Yol xəritəsi"nin reallaşması yönündə cəhdlər edilir. Bundan ötrü hətta Türkiyə və Ermənistanda gizli təşəbbüs qrupların yaradıldığı da yayılan xəbərlər sırasındadır. 2015-ci ilə hədəflənmiş bu planın qayəsində isə sərhədlərin saxta soyqırımın 100 illiyinədək (!) açılması, yəni 5 ildir dondurulan (2009) "Sürix protokolları"nın nəhayət ki, reallaşdırılması dayanır.

Amerikanın hədəfləri bəllidir: Vaşinqton Ermənistanı iqtisadi-ticari cəhətdən Türkiyəyə daha sıx bağlamaqla onu Rusiyadan aralamaq və daha müstəqil söz sahibinə çevirmək, paralel surətdə Kremlin Güney Qafqaza yönəlik təhlükəli layihələrini əngəllmək istəyir. Ağ Ev (Qərb) bununla həmçinin, bədnam 100 illiklə bağlı özünə qarşı erməni təzyiqlərini neytrallaşdırıb bölgədəki əsas müttəfiqi Türkiyəyə daha əlverişli bir durum, daha əlverişli manevr imkanı qazandırmağa çalışır. Türkiyə ilə münasibətlərdə problemli məsələlərin azalması isə Amerikaya (Qərbə) ən əvvəl Yaxın Şərqin daha böyük problemlərinin yoluna qoyulması, yeni çağırışlar üçün vacibdir.

Ankaranın konkret dividendlərinə gəlincə, Türkiyə bu zaman saxta soyqımın 100 illiyindən dolayı gözlənilən güclü pressinqdən qurtulmaqla yanaşı, Çeviközün iddia elədiyi kimi, Ermənistana müəyyən təzyiq rıçaqı əldə edə və Qarabağ məsələsində neytral vasitəçi imici qazana bilər.

Bəs, Azərbaycanın uduşu, bəs Qarabağ, işğal məsələsi necə olsun? Sual da elə budur.

****

Maraqlıdır ki, konfransın açılış günü ABŞ-n vitse-prezidenti Co Bayden beynəlxalq energetika tədbirinə qatılmaq üçün İstanbula gəlib, Türkiyənin rəhbər şəxsləri ilə görüşüb. Bəlkə də təsadüfdür, ancaq yüz faiz diqqət çəkən təsadüfdür. Nədənsə belə "təsadüflər" son vaxtlar yaman artıb.

❑ **Siyasət şöbəsi**

**Əziz dostlar, 3 gün Avropa Birliyinin Batumi Forumunda sıradan reportyor kimi işlədim. Hazırladığım xəbərləri, yəqin ki, çoxlarınız oxuyub. O xəbərlər sayəsində Forumun gedişi ölkəmizdə və region dövlətlərində maraqla izləndi.**

Rauf ARİFOĞLU



# “Ermənipərəst” ifadəsini təhqir sayıb, bizi təhqir edən hüquqşünas soydaşıma

## “Allah YAP hakimiyyətinə də, sizlərə də insaf versin”



Lakin mənim yaydığım xəbərlər bir çox soydaşlarımızı möhkəm qəzəbləndirib. Nədi-nədi, Çexiya təşkilatı olan “Peeople in Need” barədə “ermənipərəst” yazmışam. Özlərinə əl qatıblar, həşir salırlar. İllərlə salam verdiyimiz, münasibət qurduğumuz, ən kritik anlarında informasiya dəstəyi verdiyimiz bir sıra adamlar dayanmadan təhqir, nifrin yağdırırlar. Sanki “ermənipərəst” ifadəsini bir xarici təşkilata yox, bunların soy ağaclarına yazmışıq.

Hər nə qədər yazsaq ki, xanımlar, cənablar, bu ifadə Forumun azərbaycanlı həmsədri Vüqar Bayramova məxsusdur. Hətta dırnaq içərisində onun fikirləri kimi verdik, ilk olaraq. Çifayda. Rauf Arifoğlunu növbəti dəfə qaralamaq fürsəti yaranıb və başlayıblar...

Vüqar bəy bir mühüm sirri də açıb - bu təşkilat bir ildən çoxdur ki, Vətəndaş Cəmiyyəti Forumunda Dağlıq Qarabağın separatçı ermənilərini tamhüquqlu heyət kimi Foruma üzv etmək istəyir. Və bununla bağlı dəfələrlə Azərbaycan heyəti ilə mübahisələr olub. Mən bu təşkilat haqqında ilk olaraq burada - həm də Forumun həmsədri olan Vüqar Bayramovdan eşitdim. Xəbər yazanda da hər dəfə milli heyətimizin üzvlərindən xahiş edirdim ki, onun adını yazmaqda mənə kömək etsinlər...

Mövzu böyüdü, indi bir sıra yazarlar, o cümlədən də siyasi mühacir olan Elbəyi Həsənli müstəqil araşdırma aparıblar, faktlar əsasında müəyyən ediblər ki, bu təşkilat doğrudan da özünü ermənilərə çox yaxın hesab edir. Təşkilatın yaranma konsepsiyası, ümumiyyətlə, Ermənistana yardım aksiyası ilə ortaya çıxıb.

Bu yazıları da mənim adıma yapışdırmaq cəhdləri var. Bədxahlarımı anlayıram - onlar futboldan da reportaj yazsam, məni hədəfə götürəcəklər. Lakin hörmət etdiyim, hüquqşünas kimi hər zaman qəzetimizlə əməkdaşlıq edən, bu prosesdə indiyəcən hansısa tənqid söyləməyən Xalid Bağırov da bu xora qoşulanda istər-istəməz, reaksiya verməli olursan.

Xalid bəy qiymətli adamdır. Cəsarətli hüquqşünasdır. Məni təhqir edib, qırmızı xətləri keçib - bu, yalnız bir fraqmentdir və mən bir fraqmentə görə yerdə qalanların üstündən xətt çəkəcək deyiləm. Təhqirlərə görə onu məhkəməyə də verməyəcəm. Çətin anlarında informasiya dəstəyi vermişik - bundan sonra da belə olacaq. Lakin Xalid Bağırov da həm hüquqşünas, həm də savadlı vətəndaş kimi əlində heç bir əsas olmadan bir qəzeti, onun təsisçisini, kollektivini təhqir etməməlidir.

Mənim özümü də, kollektivi də yaman deyən ağızlardan qorumaq üçün, hər kəsə həddini bildirmək üçün kimsədə olmayan yüksək imkanlarım var. Lakin dediyim kimi, bu imkanları saydığımız, sayğı duyduğumuz insanlara qarşı istifadə etməyə yox, onların xidmətinə verməkdə maraqlıyıq.

Hörmətli Xalid bəyə onun facebook profilində məni və qəzetimizi aşağılayan statusunun sonlarında bir cavab yazdım. Lakin sonra onun və başqalarının digər statuslarına baxdım, hesab etdim ki, bu məsələ ictimailəşməlidir.

Aşağıda Xalid Bağırova yazdığım cavabın əsasında bu mövzuya dair fikirlərimi təqdim edirəm.

****

Xalid bəy, gözləmədiyim halda sizdən ardıcıl təhqirlər alıram. Şəxsinizə və gördüyünüz işə hörmət olaraq, hələ ki, susuram, mətbuatda sizə cavab vermirəm. Hesab edirəm ki, sizinlə qəzet olaraq, hər zaman normal əməkdaşlığımız olub. Ən kritik anlarda sizə də, müvəkkillərinizə də informasiya dəstəyi vermişik. Sadəcə, sizi feysdə dostluqdan çıxardım, çünki virtual da olsa, belə dost olmaz. Bu, özünü düşmənim kimi aparan digər virtual “dostlar”a da aiddir. Amma lütfən, qırmızı xətləri keçməməyə çalışın. Mən doğru bildiyim və 25 ildir gördüyüm işi görürəm. Məlumat toplayır, xəbər hazırlayır və yayıram. Bir qəzet, 3 saytın təsisçisiyəm. Gündə orta hesabla 200 xəbər yayırıq.

Təbii ki, onların heç də hamısı hər kəsə xoş gəlməyəcək. Və fəaliyyətimiz barədə, təbii ki, sizin də, başqaları kimi, fikir bildirmək səlahiyyətiniz var. Lakin yüksək səviyyəli hüquqşünasa yaraşmayan ifadələr işlətməyin. Əlinizdə mötəbər, ya da hər hansı sübut, fakt növü olmadan barəmizdə hökm kimi ifadələr yazmayın. Onları haqq edəcək hər hansı bir əməlimiz olmayıb. Həm də siz hüquqşünas olaraq bilirsiniz ki, ermənipərəst, fransızpərəst, türkpərəst, amerikapərəst, iranpərəst və s. ifadələr təhqir deyil, heç böhtan da deyil. Bunlardan bir-ikisi bizə - azərbaycanlılara təhqir kimi gələ bilər. Lakin “Peeplo in Need” təşkilatının təmsilçiləri sırasında, bildiyim qədər, azərbaycanlı yoxdur. Həm də sizlərə nə düşüb - bu təşkilatın vəkilləri sırasında deyilsiniz, mən bilən. Onlar özləri rəsmi bildiriş yayıb, bunu kompliment kimi qəbul etsələr, nə edəcəksiniz? Bəlkə “ermənipərəst” ifadəsi onları sevindirəcək?

Ona görə də bu qədər narahat olmağa, bu qədər həyəcanlanmağa, hər gün bu təşkilatı dəstəkləyən 3-4 status yazıb, bizi təhqir etməyə dəyməz. Dediyiniz o yazını - bu təşkilatın erməni simpatizanı olması haqda araşdırmanı isə mən yazmamışam, naşir kimi dərc etmişəm. Hesab edirəm, bir hüquqçu kimi bunların da fərqli şeylər olduğunun fərqindəsiniz. Yazını öz təşəbbüsü ilə mühacir jurnalistimiz Elbəyi Həsənli yazıb. Oradakı bütün faktlarsa “Peeple in Need” təşkilatının saytından götürülüb.

Məni YAP-çı Səlim Babayevlə eyni sırada durmaqda ittiham edirsiniz... Nə olacaq ki - bunu təhqirdən saymam. Lakin diqqətinizi bir fakta yönəldim. Məlum xəbərə qoyduğum video-əlavədə bir fraqment var. Həmin anlarda tanımadığım, kimliyini, adını belə bilmədiyim Səlim Babayevə yaxınlaşıram və xahiş edirəm ki, müsavat.com-a açıqlama versin. Cavabı: “Nə danışırsan, məni güllələyərlər...” Mən bu hissəni də sayta-xəbərə qoydum.

Sonradan bildim ki, bu adam YAP-çıdır və onu da “...güllələyəcək” olan YAP iqtidarıdır.

Allah YAP-çılara da, Sizlərə də insaf versin.

Zəruri qeyd: Bəzi söyləntilərə cavab olaraq yazıram ki, məni bu tədbirə Avropa Birliyi dəvət edib. Biletimi də, otelimin pulunu da onlar ödəyib. Üstəlik, 3 günümə 90 avro da yeməkpulu veriblər ki, ac qalmayım...

---

# Düdüklər...



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Düzü, xeyli öncədən Gürcüstanda xüsusi ilə Azərbaycanla bağlı düzənlənən tədbirləri ölkəmizə qarşı məkrli planların “qaranquşu” hesab edirəm. Nədən ki, tarixən Azərbaycan üçün ziyanlı, işğalı rəsmiləşdirən sazişlər bu ölkədə imzalanıb. Məsələn, ötən əsrin əvvəllərində ermənilərin Azərbaycana qarşı torpaq iddialarının, işğal faktının, daşnaqların törətdiyi türk-müsəlman qırğınlarının sonunda Tiflisdə ziyalılardan ibarət “Barış Komissiyası” yaradılmışdı və qərarlar verilmişdi...**

Son illərdə beynəlxalq təşkilatlar müasir dövrün hiyləgər tələblərinə uyğun şəkildə Gürcüstanda müxtəlif forumlar, müzakirələr təşkil edirlər. Heç şübhəsiz, burada bir məqsəd də Azərbaycanı “təslimçi sülh”ə hazırlamaq, bu və ya digər formada ölkəmizin maraqlarına ziyan vurmaqdır. Əgər belə deyilsə, bu tədbirlər niyə Azərbaycanda yox, Gürcüstanda təşkil edilir? Çünki orada ermənilərin “əlinə oynamaq” istəyən beynəlxalq təşkilatlar üçün şərait var. Azərbaycanda isə bunu edə bilməyəcəklər. Deyilə bilər ki, bu forumların Gürcüstanda keçirilməsində məqsəd ermənilərin də iştirakını təmin etməkdir. Bəhanədir, çünki Bakıda keçirilən onlarla tədbirdə erməni nümayəndə heyətinin iştirakına imkan yaradılıb, sadəcə onlar burada necə deyərlər, “meymunluq” edə bilmirlər. Gürcüstanda isə bu şərait var...

Əlbəttə, bu tədbirlərdə insan hüquqlarından da danışılır, ola bilər ki, hansısa faydalı bir məsələ də var. Ancaq Azərbaycan vətəndaşlarının gözü önündə ermənilərin təşkilatçılığı ilə ölkəmizin imicinə xələl gətirən hərəkətlər edən təşkilatların bu niyyətini ifşa etmək sözsüz ki, lazımdır, vacibdir.

Ötən həftə Avropa Birliyinin Batumidə təşkil etdiyi forumda Çexiya təşkilatı “Peeople in Need” qısa desək, ermənilərlə müştərək şəkildə və hiyləgərcəsinə Azərbaycanın maraqlarına zidd addım atdılar. Bu forumda iştirak edən Rauf Arifoğlunun peşəkarlığı və vətənpərvərliyi sayəsində müsavat.com bu təşkilatın əməlini, eyni zamanda erməni nümayəndə heyətini məyus, ifşa etdi. Amma ardınca nə baş verdi? Azərbaycanda yaşayan və ölkəmizdən qaçıb getmiş biriləri yallandıqları “Peeople in Need”ə “ermənipərəst” deyildiyinə görə şivən qopardılar.

Bu ifadəni QHT rəhbəri Vüqar Bayramov səsləndirib, müsavat.com dərc edib. Əslində də tam haqlı olaraq, real əsaslarla. Çünki məlum plakatın asılmasında “Peeople in Need”ə Ermənistan təmsilçiliyinin rəhbəri yardım edib, bundan başqa həmin qurum uzun müddətdir Dağlıq Qarabağdakı separatçıların da bu forumda “müstəqil nümayəndə heyəti” kimi iştirakına can atıb. Bu təşkilata “ermənipərəst” deyilib, sanki birilərinin nəslinə, nəcabətinə deyilib bu söz! Qısa və konkret, nolub sizə, qarnınızın ağrısı nə yaman pis tutub? Siz hansısa bir yerdən yallanırsınız deyə, digərləri onu dövlətimizin maraqları üçün tənqid, ifşa etməməlidir?

Guya bu təşkilat siyasi məhbusları müdafiə edirmiş-filan. Azərbaycanın torpaqlarını işğal etmiş, qanımızı tökmüş dığalara konkret olaraq bu forumda dəstək verən birinin bu cür “müdafiəsi” mənim tanıdığım İntiqam Əliyevə heç lazım da deyil. Hətta lazım olsa belə, öncə dövlət maraqlarıdır, sonra siyasi-məhbus-falan...

Bu prosesdə bəziləri də “Yeni Müsavat”ı və onun kollektivini aşağılamaq üçün sanki fürsət buldular. Kəmfürsət, burnunun ucundan o yanı görməyənlər son 5-6 gündə ünvanımıza elə bir təhqir qalmayıb ki, səsləndirməsinlər. Çoxları hesab edir ki, bu təhqirçilərə baş qoşmaq lazım deyil, amma mən düşünürəm, bunlara açıq aşkar düdük deməliyik; birinə erməni düdüyü, birinə xarici kəşfiyyat düdüyü və s. Yəni hər kəsə öz ampluasına uyğun cavab verməliyik. Və bunlar o adamlardır ki, birmənalı olaraq reputasiyaları ləkəlidir...

“Yeni Müsavat”ı və onun öz zəhməti ilə dolanan, kimsənin əlinə baxmayan, milli ruhlu kollektivini təhqir etmək üçün ən azı düdük olmaq lazımdır...

Və sonda: Kəşfiyyatların Azərbaycanda maraqları o qədər artıb ki, onlar məmləkətimizdə tüğyan edirlər. Pul-para ilə özlərinə 10-15 tərəfdar, agent də tutublar. Belələri ilə çox sərt davranmaq lazımdır; müharibə dövrünün öz qanunları var, ölkənin maraqlarına zidd addım atanlar ciddi cəzalandırılmasalar, çox qələtlər edə bilərlər. Batumdakı forum bunu bir daha isbat etdi.

YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014

**“Siyasətçilərlə bulvar gəzintisi” rubrikamızın budəfəki qonağı Müsavat Partiyasına yeni başqan müavini təyin edilmiş Səxavət Soltanlıdır. Müsahibə təklifimizi qəbul edən S. Soltanlı ilə Bakı bulvarında Venesiyada görüşdük. Görüşümüz yağmurlu bir günə təsadüf edirdi. Yağış yağmasına baxmayaraq, “su aydınlıqdır” deyib, görüşəcəyimiz məkana yollandıq.**



# “Kənardan aqressiv görünə bilərəm...”

## **Səxavət Soltanlı:** “Mənim haqqımda müsbət fikirdə olan insanların sayı mənfi fikirdə olanların sayından çoxdur”

Bir neçə dəqiqə bizi gözlətdikdən sonra tələsik və narahat halda görüş yerinə gələn müsahibim gecikmə səbəbinin hər kəsi narahat edən problem -"28 May" metrosu ilə bağlı olduğunu dedi. Ümumiyyətlə, gecikməyi sevmədiyini deyən müsahibim metro haqqında öz giley-güzarını gizlətmədi: “Artıq 3 ilə yaxındır ki, ”28 May" stansiyasının əsas girişini aça bilmirlər, amma iqtisadi inkişafdan danışırlar. Görünən odur ki, hakimiyyət insanın və zamanın qədrini bilmir. Bilmir ki, dünyada ən dəyərli varlıq insan və zamandır. “28 May” metrosunda əsas tunelə gedib çıxanadək 10-15 dəqiqə vaxt itiririk. Mən hər dəfə bu stansiyadan keçəndə tələbələrin, o ətrafda işləyənlərin, yaşlıların narazılıqlarını eşidirəm. İstəsələr bu gün əsas girişi aça bilərlər, görünür istəmirlər, yəqin dənizkənarını gözəlləşdirməklə işlərini bitmiş sayırlar".

Bundan sonra problemləri bir qədər unudub Venesiyanın gözəlliyi haqqında danışmağa başladıq. Müsahibim güclü yağmurun altında Venesiyaya göz gəzdirdi və bu şəhərciyin göz oxşadığını desə də, əsas məsələnin Venesiyanı Bakıya köçürmək olduğu yox, bakılıları venesiyalıların səviyyəsinə çatdırmaq olduğunu bildirdi: “Kiçik Venesiya şəhərciyi zövq baxımından maraqlıdır. Sadəcə olaraq Venesiyanın burada kiçik maketini qurmaqla öyünmək, lovğalanmaq olmaz. Venesiyanı Bakıya köçürmüsən, amma vətəndaşını venesiyalının səviyyəsinə gətirməmisən. Bu proses sistemli olmalı idi. Adını Venesiya qoyma, başqa bir şey qoy. Əsas odur ki, sənin insanın bu gözəllikdən istifadə edə bilsin, kənardan baxıb köks ötürməsin. Bütün bu gözəllikləri yaradanda birincisi xalqın pulunu israf etməməlisən və daha faydalılardan başlamalısan. İtaliyanın Azərbaycana gətirdiyi Venesiya, baloniya adları hər şeyi həll etmir. Burada mahiyyət, keyfiyyət olmalıdır. Kiçik Venesiya şəhərciyi bayrağın fonunda daha maraqlı görünür. Amma bayrağın, milli atributların, kosmetik dəyişikliklərin, süni gözəlliklərin arxasında gizlənmək doğru deyil. Xalq bayrağı bayraqdan danışanlardan, o bayrağın altında korrupsiyaya bulaşanlardan, rüşvət alanlardan daha çox sevir. Kasıb Gürcüstanda da buna bənzər tikililər, fontanlar, maraqlı yerlər var. Amma bütün bunlar ”şeytan çarxı"nda olduğu kimi insanların evini yıxıb üzərində tikmirlər. Bütün bunlar əslində iqtisadi inkişafın göstəricisi kimi xalqa sırına bilməz. Dünyanın bir çox yerlərində belə istirahət yerləri var. Bizdən fərqli olaraq orda istirahət edənlər daha azaddırlar. Deyə bilərsiz ki, Azərbaycanda azadlıq Şimali Koreyadakı kimi deyil. Bəli elə deyil. Burada da bəzən söz deyənlərin bəzilərini döyürlər, hətta öldürürlər, həbs edirlər. Amma kütləvi hal almayıb. Hər kəs rəhbəri sevməlidir deyə bir qanun qəbul edilməyib. Əslində belə olmamasının əsas səbəbkarları demokratik düşərgədir. Mənim təmsil olunduğum partiyadır, həbsdə yatan müsavatçılar, “NİDA”çılar, cəbhəçilər və başqalarıdır. Bəzən bizə deyirlər ki, siz heç bir şey edə bilmirsiz. Əslində biz olmasaydıq, demokratik düşərgə olmasaydı, vəziyyət tamam başqa olardı. Təsəvvür edin ki, azadlıq bulağı adlı bir bulaq var, həmin bulağın suyu az-az damcı-damcı gəlir, hakimiyyət həmin bulağın suyunu kəsib həmin bulağın məhv etmək istəyir. Biz çalışırıq ki, həmin bulağın gözü tutulmasın".

Müsahibim yağış yağdığı üçün küçələrdən axan leysan suların yaratdığı problemlərin illərdir həll edilməməsindən gileyləndi. Müsavat Partiyasının isə hakimiyyətə gəlib bunlardan ən azı 10 dəfə çox iş görməyə və 10 dəfə az xərc çəkməyə qadir olduğunu vurğuladı. Venesiya şəhərciyində və bulvar ərazisində hər 50 metrdən bir polis-patrul xidmətinin maşınlarının şütüməsi və buna görə də burada gəzən gənc cütlüklərin narahat olması müsahibimin gözündən yayınmır: “Onlar bu hərəkətlə ölkədə polis olduğunu və insanların bundan qorxmalı olduğunu vurğulayırlar. Yəqin bir azdan Naxçıvanda olduğu kimi Bakıda da sevməyi qadağan edərlər”.

Yağışın səngimədiyini görüb Venesiyadakı çay evlərindən birinə doğru getdik. Lakin qiymət bizi geri dönməyə vadar etdi. Çünki burada çayın süfrəsini bizə 25 manata təklif edirlər.

Venesiya şəhərciyindən bulvara doğru istiqamət alıb buradakı münasib çay evlərindən birində oturub söhbətimizi davam etdirdik. Müsavat başqanının yeni müavininə həm vəzifəsi, həm də son vaxtlar baş verənlərlə bağlı bir neçə sual da ünvanladıq.

***- Bəzi insanlar var ki, sizin yeni təyin edildiyiniz müavinlik postunu haqq etmədiyinizi deyir. Siz deyilənlər haqda nə düşünürsünüz?***

- Mənə olan ittihamlardan biri budur ki, nəyə görə uzun müddətli həbs olunmamışan. Bəziləri deyir ki, necə olur ki, sən həbs olunmamısan, amma müavin vəzifəsinə təyin edilmisən. Seçkiylə həll olunan məsələlərə görə kimisə qınamaq, düşmən olmaq olmaz. Əgər sənə səs verməyiblərsə, sən dərhal növbəti seçkilərə hazırlaşmalısan, nəinki düşmənçilik aparmaq. Seçkidən sonra cığallıq, seçilənləri təftiş etmək əslində həmin adamları növbəti uçuruma aparır. Mən 2011-ci ildə gənclər təşkilatının rəhbəri olmuşam. Həmin illərdə xeyli fəaliyyətimiz oldu və mümkün qədər gənc dostlarımızın azad olunması üçün mübarizə apardıq. Bütün bunları Müsavat Gənclər Təşkilatının sədri olduğum üçün etmirdim. Sonra 30 yaşım tamam olan kimi demokratik prinsiplərə və nizamnaməyə əməl etdim və Müsavat Gənclər Təşkilatından istefa verdim. İstefamdan 2 gün sonra mənim də xəbərim olmadan o zamankı Müsavat başqanı İsa Qəmbər məni özünə müşavir təyin etdi. Mənim Müsavat rəhbərliyində təmsil olunmağım barədə heç bir iddiam olmadığı halda indiki başqan Arif Hacılı məni müavin təyin edib. Kimlərsə mənim layiq olmadığımı deyə bilər, amma bu o demək deyil ki, mən bu işi bacara bilmərəm. Hər kəs az sonra layiq olub-olmadığımı görəcək. Tez qərar verməsinlər. Baxmayaraq sizin dediyiniz narazı olanların sayı azdır, amma yenə də tələsməsinlər. Mən artıq siyasətdə özümü təcrübəli hesab edirəm. Mənim bu posta layiq olmadığımı düşünənlərə gəlincə isə təbii ki, insanlar bir vəzifəyə təyin olunanda onun haqqında müsbət və mənfi fikir səsləndirənlər olur. Mənim haqqımda müsbət fikirdə olan insanların sayı mənfi fikirdə olan insanların sayından çoxdur. Qurultayda çox səs almaqla qurultayda məclisə seçilən az sayda gənclərdən oldum. Müsavatçılar ədalətlidirlər, qiymətləndirməyi bacarırlar. Onları seçimlərində peşman etməyəcəm. Arif Hacılının da seçimində məncə qurultayın verdiyi səs, etimad əsas səbəblərdən biridir. Bu vəzifə mənim üçün bir şərəfdir. Mən bu vəzifəyə özümü layiq bilirəm. Bu vəzifəni özüm üçün əlavə məsuliyyət hesab edirəm.

***-Kənardan aqressiv insan kimi görünürsüz...***

-Siyasi müzakirələrdə kiminsə fikri ilə razılaşmayıb fərqli fikir nümayiş etdirmişəm. Amma bu fikirlərimi heç vaxt aqressiv ifadə etməmişəm. Ola bilər ki, zamanla, məkanla bağlı nəsə sərt reaksiya vermişəm. Amma bu mənim böyüklərə olan münasibətimdən irəli gəlmir. Kənardan aqressiv görünə bilərəm. Düşünürəm ki, davranışlarımı facebook yaxşı ifadə etmir. Mən hətta statuslarımda belə nida kimi durğu işarələrindən istifadə etmirəm ki, aqressiv görünməsin. Mənim üçün siyasi müstəvidə olan münasibətlər şəxsi münasibətlərə təsir etmir.

***-Səlahiyyətiniz imkan verir ki, Qubad İbadoğlu və onun narazı tərəfdarlarını bir masa ətrafına toplayıb söhbət edəsiniz. Bu cür söhbətlərə heç cəhd etmisinizmi?***

-Mənə heç kim tapşırıq vermədiyi halda qurultaydan sonra narazılarla şəxsən söhbət etməyə çalışmışam. Qurultaydan sonra Qubad İbadoğlu öz narazı qalan tərəfdarları ilə tədbir keçirdi. Mən öz təşəbbüsümlə yeni seçilmiş başqanı dəstəkləyən bir gənc olaraq həmin tədbirə qatıldım. Mənə orada söz verdilər. Ancaq mənim çıxışımı dinləmədilər və etirazlar oldu. Hətta Qubad İbadoğlu mənim çıxışımı yarımçıq kəsdi. Vurğun Əyyub mənim haqqımda yaxşı olmayan ifadə işlətdi. Buna baxmayaraq, mən təşəbbüslərimi davam etdirdim və fərdi şəkildə narazı qalan insanlarla danışmağa çalışdım. Mən bunu müavinəm deyə yox, partiyanın gələcəyi ilə bağlı özümü məsul hiss etdiyim üçün edirəm.

***-23 noyabr toplantısının nəticəsi bütün bu söz-söhbətlərə son qoyacaq?(müsahibə toplantıdan bir gün əvvəl alınıb).***

-Əgər narazı qalan insanlar problemin həll olunmasını istəsələr, bu həll olunacaq. Yox, əgər kimlərsə prinsipial olaraq bu gərginliyi saxlamaq istəyirsə, o zaman Müsavat Partiyasından və indiki rəhbərlikdən asılı olan çox az şey var. Çünki ortada onların ifadə etdiyi kimi bir problem yoxdur. Sadəcə, süni gərginlik görüntüsü yaradırlar. Bu müsahibə çıxanda toplantı artıq keçirilmiş olacaq. Düşünürəm ki, gərginliklər də xeyli azalmış olacaq.

***-Ailənizin sizin siyasətdə olmanıza münasibəti necə olub? Sizi bu yoldan çəkindirməyə çalışıblarmı?***

-Biz evdəkilər üçün problem yaradırıq. Şəxsən mənim valideynlərim mənə görə həmişə narahat qalıblar. Atam müəllimdir, anam isə evdar qadın. Anam internetdən istifadə etməyi, xəbər portallarını davamlı izləməyi mənə görə öyrənib. Çox gözəl də internetdən istifadə edir. Hətta bəzən görürsən ki, anam mənə zəng edir ki, facebookda yazdığın nə məsələdir və sairə. Anam interneti atama da öyrətdi. Sutkalıq həbslər olan zaman valideynlərim çalışırdı ki, məni bu yoldan çəkindirsinlər. Amma gördülər ki, bu, prinsipial məsələdir. Atam dedi ki, 4 oğlum var, hesab edirəm ki, onlardan birini, səni bu xalqa qurban vermişəm. Mən boş vaxtlarımda öz ailəmi, övladlarımı götürərək valideynlərimə baş çəkməyə gedirəm. Əslində bizim çalışdığımız bir işimiz yoxdur. Mən Müsavat Partiyasında xidmət göstərirəm. Mənim yol pulumu, gündəlik xərclərimi də atam təşkil edir. Atamın məvacibini təxminən iki yerə bölürük. O artıq bunu təbii öhdəlik kimi üzərinə götürüb.



**Müsavat başqanının yeni müavini:**
“Mənim yol pulumu, gündəlik xərclərimi atam verir”

***-Ailənizin təyin olunduğunuz yeni posta münasibəti necə oldu?***

-Ailəm məni təbrik etdi. Mənim və ailəmin müavinliklə bağlı düşüncələri fərqlidir. Mənim üçün isə müavinlik daha da məsuliyyət deməkdir. Çalışacağam ki, Müsavat Partiyası və müsavatçılar üçün faydalı olum. Müavinliyə qədər etdiyimdən daha çox işlər görüm. Mənə olan etimadı doğrultmağa çalışacam. Mən 7-ci sinifdə oxuyanda Məhəmməd Əmin Rəsulzadə haqqında oxuyub düşündüm, indi onun yaratdığı partiyada təmsil olunuram. Bu mənim üçün qürurverici bir haldır. Həyat yoldaşım da bu günə qədər mənə dəstək olub. O, ali təhsilli müəllimədir. Ancaq mənə görə onu da müxtəlif bəhanələrlə işə götürmürlər. Mən ailə həyatı quranda artıq siyasətdə idim. Bunu xanımım da bilirdi və qəbul etmişdi. O heç vaxt məni bu yoldan çəkindirməyə çalışmayıb. Buna görə də ona qəzet vasitəsi ilə təşəkkür edirəm.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014



# 12 noyabr vertolyot insidentinin iki dərsi

## Qarabağ nizamlanmasını əngəlləyən "sualtı daşları" götürmək mümkün olacaqmı? Rus analitik: "Separatçı rejimin danışıqlar prosesinə qoşulması prosesin sonu demək olardı..."

**Noyabrın 12-də Azərbaycan səmasında erməni hərbi vertolyotunun vurulması və ondan sonrakı günlərdə baş verənlər bir qənaətə növbəti dəfə öz möhürünü basmış oldu: Azərbaycan torpaqları hansısa mifik "Dağlıq Qarabağın özünümüdafiə qüvvələri" yox, məhz Rusiyanın dəstəyi ilə Ermənistan tərəfindən işğal olunub. ATƏT-in Minsk Qrupu həmsədrlərinin insidentlə bağlı bəyanatında da əslində bu gerçək əksini tapıb. Orada Dağlıq Qarabağın münaqişə tərəfi olduğu barədə heç nə deyilmir.**



Vasitəçilər bir neçə gün sonra sənədə etdikləri düzəlişlə ərazilərin Azərbaycana məxsusluğunu daha dəqiq şəkildə ifadə ediblər.

Aydındır ki, cəmi 110 minlik əhalisi olan separatçı bölgə 9 milyonluq dövlətin 20 faizlik ərazisini xaricdən güclü hərbi kömək olmadan 20 ildən artıqdır işğalda saxlaya bilməz. Bunu dünya da, həmsədr dövlətlər də bilir. Ümumiyyətlə, illik büdcəsi vur-tut 150 milyon dollar olduğu deyilən separatçı qurumun nə bahalı döyüş maşınları, o sırada qiyməti on milyon dollarla ölçülən hərbi helikopterlər almağa, nə də bütövlükdə hansısa ordu saxlamağa imkanı ola bilməz. Bunun əksini iddia eləmək absurddur.

Bu reallıq da kimə bəlli olmasa da, Qarabağa dair sülh missiyasını öz üzərinə götürən vasitəçi ölkələrə bəllidir. Təkcə bu amil kifayətdir ki, danışıqlar prosesində yalnız iki tərəf iştirak eləsin - Azərbaycan və işğalçı Ermənistan. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 məlum qətnamələrində də iki tərəf göstərilir, üç yox. Həmçinin, BMT-nin Minsk Qrupuna verdiyi mandatda Azərbaycan və Ermənistan münaqişə tərəfləri, Dağlıq Qarabağın azərbaycanlı və erməni icması isə maraqlı tərəflər kimi tanınır.

Uzun illər vasitəçilər bu mandata əsasən əməl ediblər. Ancaq son zamanlar separatçı rejimi də nizamlama prosesinə qoşmaqla bağlı sağdan-soldan cəhdlər edilir. Ara-sıra Rusiya və ABŞ tərəfdən bu qəbildən təkliflər səsləndirilir. Rusiya tərəfdən bu cür çağırışlar vaxtaşırı ermənipərəst politoloqlar (Tarasov və b.) və ermənipərəst sabiq vasitəçi Vladimir Kazimirovun dilindən eşidilir.

Əfsus ki, amerikalı həmsədr Ceyms Uorlik də ara-sıra "çaşıb" münaqişənin "Azərbaycanla Qarabağ arasında" olduğunu yazmışdı. Düzdür, sonra səhvini anladı, ancaq təhlükə hələ ki, qalır. Xüsusən də nizamla prinsipinə referendum ideyasının və öz müqəddəratını təyinetmə prinsipinin daxil edilməsi yönündə çabalar separatçı işğalçı Ermənistanı xeyli ruhlandırıb.

Şübhəsiz, İrəvan Dağlıq Qarabağın müstəqil tərəf kimi danışıqlar prosesinə qoşulmasına nail olmaqla nizamlama masası ətrafında əlavə manevr imkanı qazanmaq, təcavüzkar kimi damğalanmaqdan yayınmaq, Bakıya qarşı daha sərt şərtlər irəli sürmək imkanı qazanacaq. Rusiya isə bu dəfə bir yox, iki erməni tərəfinin - Xankəndi və İrəvanın "xidmətlərindən" yararlanaraq danışıqlarda əngəl yaratmaq, yaxud lazım gələrsə, onları pozmaq şansı əldə eləmiş olacaq.

Amerikaya gəlincə, ola bilsin Uorlik güman edir ki, Xankəndinin prosesə qoşulması sülh anlaşmasını tezləşdirə bilər. Lakin bu, illüziyadır. Səbəbini qeyd elədik - Rusiya faktoru və əlbəttə ki, erməni tərəfinin daha maksimalist tələblər irəli sürmək ehtimalı.

****

"İnkişafa Dəstək ABŞ-Azərbaycan" Fondunun baş eksperti Aleksey Sititsən də bənzər qənaəti bölüşür (vesti.az). Sitat: "Cənab Uorlik kifayət qədər incə şəkildə, bir neçə dəfə işarə vurub ki, "DQR"i danışıqlar masası arxasında görmək istəyir. Bu, Qərbin şüurlu yanaşmasıdır və Bakı ona heç bir halda getməməlidir. Əgər nizamlama prosesinə "DQR" təmsilçiləri qatılsa, onda bu prosesə nöqtə qoymaq olar. Bu, danışıqların əvvəlki nöqtəsinə qayıdılması mümkün olmayan bir uçurum olardı. Çünki onlar istənilən təklifi topa tutacaqlar".

Ekspert əmindir ki, münaqişə tərəfləri arasında "etimadın bərpasına dair" bütün tədbirlər yalnız Böyük Sülh Sazişi üzərində birgə işin başlayacağı təqdirdə mümkündür: "Əks halda, bu addımların heç bir anlamı olmayacaq və İrəvan tərəfindən "xoş məram jestləri" kimi yox, "şəxsi taktiki uduş" kimi qəbul ediləcək".

Politoloq daha bir "sualtı daş" qismində Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsini görür: "Qərb Qarabağ kontekstindən kənarda sərhədlərin açılmasını istəyir və güman edir ki, bu, regiondakı durumun ümumən sağlamlaşmasına gətirər. Ancaq bu, bəlli səbəbdən təkcə Bakının yox, İrəvanın Qərbə siyasi boylanmasına ehtiyatla baxan Moskvanın da maraqlarına uyğun deyil. Belə şəraitdə Rusiya, əlbəttə ki, Qarabağ münaqişəsində status-kvonu saxlamağa çalışacaq".

****

Beləliklə, 12 noyabr insidentinin iki mühüm nəticə-dərsini qeyd eləmək olar: bunlardan biri münaqişənin həllini illərlə təxirə salmağın yolverilməzliyidirsə, digəri konfliktdə iki əsas tərəfin - Azərbaycanın və Ermənistanın olduğu, separatçı rejimin isə İrəvanın və bəzi vasitəçi güclərin əlində spekulyasiya vasitəsi olaraq qalmasıdır.

# "Sərhədlərin açılması Türkiyənin öz ziyanına olar"

## Ankara Universitetindəki konfrans Azərbaycanda etiraz doğurdu



**Xəbər verdiyimiz kimi, Ankara Universitetində Hrant Dink Vəqfinin təşkilatçılığı ilə 2 günlük "Möhürlü Qapı: Türkiyə-Ermənistan sərhədinin gələcəyi" mövzusunda beynəlxalq konfrans keçirilib. Çıxışçılar əsasən heç bir şərt olmadan iki ölkə sərhədlərinin açılmasının tərəfdarı qismində mütəmadi olaraq mövqe ortaya qoyan şəxslər olub.**

Konfransla bağlı Hrant Dink Vəqfinin saytında yerləşdirilən məlumatda sərhədlərin bağlı qalmasının münaqişənin həllinə müsbət təsir göstərmədiyi, nizamlamanı daha da mürəkkəbləşdirdiyi iddia olunur.

Tədbir barədə danışan deputat Zahid Oruc deyib ki, Hrant Dinkin yarımçıq qalmış ideyaları üzərində iş aparanlar dünyanın hazırkı aparıcı tendensiyaları ilə nə qədər üz-üzə durduqlarının fərqində deyillər (APA): "Bəlkə də 8 ay, 1 il əvvəl həmin fondlar, onların beynəlxalq aləmdəki tərəfdarları və Türkiyə-Ermənistan arasında sərhədin açılmasından çox böyük fayda götürəcək qüvvələr belə konfranslar keçirsələr, biz onlara tarixdən misal gətirməklə cavab verəcəkdik. Amma Rusiya və Ukrayna arasında məlum hadisələr və Qərbin Rusiyaya sanksiyalar tətbiq etməsi bizi təzə arqumentlərlə təchiz edib. Necə olur ki, Qərb dairələri sərhədlərin açılmasını nəzərdə tutan Türkiyə və Ermənistan arasında imzalanmış "Sürix protokolları"nı bu ölkələrin parlamentlərinə göndərtdirirlər, bu dövr ərzində protokolların parlamentlərdə təsdiqlənib həyata keçməsi üçün informasiya dəstəyi, diplomatik-siyasi dairələrin əli ilə, təzyiqlərlə bu protokolları gündəmdə saxlayırlar, amma özləri Rusiyaya qarşı bütün qapıları bağlamaq siyasəti yürüdürlər? Əgər sanksiyalar gərəkli diplomatik, siyasi, iqtisadi mexanizm deyilsə, yararsızdırsa, yaxud xalqları bir-birindən ayırırsa, Qərb də sanksiyalar tətbiq etməsin. Qərb nəinki Rusiyaya, bundan öncə İrana, Şimali Koreyaya və digər ölkələrə qarşı belə sanksiyalar tətbiq edib, qapıları möhürləyib, hətta bu sanksiyaları qanunvericilik aktları ilə möhkəmləndirib. Ona görə də Türkiyədə keçirilən konfransın, konfrans iştirakçılarının açıq şəkildə Türkiyə hakimiyyətinə təzyiqinin heç bir anlamı yoxdur. Türkiyə-Ermənistan sərhədləri bağlı qalmaqda davam etməlidir. "Qapıların möhürü" o zaman açıla bilərdi ki, Ermənistan işğalçılıq siyasətindən əl çəksin".

Z.Oruca görə, Qərb dairələri Ermənistanı təcrid durumundan çıxarandan sonra Ermənistan həm Türkiyə əleyhinə fəaliyyətini genişləndirəcək, həm də Azərbaycanın işğal olunmuş ərazilərində də daha çox möhkəmlənəcək: "Ermənilər əmin olacaqlar ki, əgər bu gün hər hansı bir təsirlə sərhədləri açmağa nail olurlar, Avropa ilə əlaqə qurmaq üçün bir yol qazanırlar, deməli, işğala görə cəza yox, mükafat əldə edirlər. Ermənilər düşünəcəklər ki, niyə təkcə Qarabağla kifayətlənək? Ona görə də biz heç bir halda bu konfransı keçirənlərin, konfransı maliyyələşdirənlərin məramını bölüşə bilmərik, onları pisləyirik. Əminik ki, Türkiyə hakimiyyəti Azərbaycan dövlətinin, xalqının mövqeyini müdafiə etməkdə ardıcıl olacaq. Çünki biz təkcə Qarabağ məsələsindən, işğalın yaratdığı gerçəklikdən danışmırıq. Həm də Türkiyənin mənafeyindən çıxış edib, belə bir mövqe tuturuq. Bu konfransı keçirənlər Azərbaycanı itirməyin müqabilində Ermənistanı qazanmağı təklif edirlər. Ermənistan işğalçılıq siyasətindən əl çəksin, nəinki Türkiyə-Ermənistan sərhədlərinin açılması, Azərbaycanla Ermənistan arasında da əlaqələrin qurulması mümkündür".

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa isə hesab edir ki, Türkiyə cəmiyyətində Türkiyə hökumətini yönləndirməyə çalışan qüvvələr var: "Həmin qüvvələr iddia edirlər ki, sərhədlərin bağlı olmasının Qarabağ məsələsinə bir faydası yoxdur, Azərbaycan bir şey edə bilmir, gərək özümüz bir şeylər düşünək. Amma bu, faydasız yanaşmadır, fərqli bir yol izlənilməsi vacibdir. Qüvvələrin səfərbərliyə alınaraq bu problemin həllində istiqamətləndirilməsi yolunu tapmalıyıq. Çünki münaqişənin həll olunmaması Türkiyə üçün də eyni situasiyanı yaradır, Türkiyə də gələcəkdə bunun əziyyətini çəkəcək. Çünki erməninin Türkiyəyə güvənsizliyi bəlkə də Azərbaycana güvənsizlikdən daha artıqdır. Zaman-zaman belə tədbirlər keçirilir, belə mesajlar verilməyə çalışılır. Gərək biz buna qarşı əks-arqumentlərimizi ortaya qoyaq, Türkiyə cəmiyyətinin diqqətinə çatdıraq. Əgər belə olmasa, müəyyən mənada bu tendensiya güclənəcək. Biz də Türkiyədə belə konfranslar, tədbirlər keçirməli, Türkiyə cəmiyyətinə mesajlarımızı çatdırmalıyıq. Nəzərə çatdırmalıyıq ki, sərhədlərin açılması yönündə addımın atılması Türkiyənin özünün ziyanınadır".

YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014



# Tanrı Rusiya haqqında nə düşünür?

Hüseynbala SƏLİMOV

**İlləri yaşamaq bir zor, xatırlamaq ikiqat zor... Beləcə, bu il də başa çatmaqdadır. Xatırlamaq istəyirsən ki, bu bir ildə nələr oldu, hakimiyyətlə bizim aramızdan hansı çaylar axdı, bizim biri-birimizin arasından hansı küləklər əsdi?**

Xatırlamaq elə də asan deyil. Tam seyrçi olmasaq da, hadisələrə elə bir müdaxiləmiz yox-təhlil edirik, yazırıq, danışırıq və göstəririk... Amma elə bil cəmiyyət böyük bir "qara dəliyə" çevrilib-bütün informasiyaları udur, kənara isə heç nə buraxmır...

İlin qəhrəmanı, təbii ki, Rusiya oldu. İlin əvvəlində "Bu Putin Rusiyanı hara aparır?", ilin axırlarında isə "Bu Putin Rusiyanı hara apardı?" deyə sorduq. Amma bu sualların heç birinə cavab almadıq...

Dünya yavaş-yavaş böyük bir qarşıdurmaya sürüklənir. ABŞ-da respublikaçılar aralıq seçkiləri uddular. Hamı onların prezident seçkilərində də qalib olacağını proqnozlaşdırır...

Əgər hakimiyyətə respublikaçılar gəlirsə, deməli, dünya siyasəti bir az da soyuyacaq...

"Şər imperiyası"nın fatihəsini respublikaçılar vermişdi. Bəlkə Tanrı onlara yeni bir missiya hazırlayır? Bəlkə onların alnına Rusiyanı da parçalamaq yazılıb? Hər şey ola bilər. Yadıma gəlir, 90-cı illərin lap əvvəlində Rusiyada "Rus respublikası" yaratmaq haqqında yazırdılar...

Deyirəm, bunu yaratsaydılar, dünyanın canı Rusiyanın əlindən qurtarardı. İndi Rusiya tədricən tənəzzülə doğru gedir. Düzdür, iqtisadiyyat daha əvvəlki iqtisadiyyat deyil, istehsal resurslarının immuniteti əvvəlki dövrlərlə müqayisədə daha böyükdür. Amma sanksiyalar Rusiya iqtisadiyatına əvvəlki kimi işləməyə imkan verəcəkmi?

Təbii ki, İranın misalından demək olar ki, sanksiyalar o qədər də qorxulu deyil. Amma Rusiya İrandan daha, bəlkə də qat-qat mürəkkəb ölkədir. Rusiya daha çox, daha böyük imperiyadır...

Təəssüf ki, separatist tendensiyaları gücləndirə biləcək lider millətlər və respublikalar azdır. Bu dəfə Rusiyanın parçalanması aktuallaşsa, yük türklərin üzərinə düşəcək- indi, məsələn, Rusiyadan qopmağa ən böyük şansı olan respublikalrdan biri Tatarstandır...

Bəzən düşünürük ki, Rusiyanın taleyilə bağlı ssenariləri nəzərdən keçirərkən izafi şişirtməyə yol vermirik ki?

Ola bilər. Əvvəl 15 respublika vardı. Bu respublikaların hamısı əvvəl ayrı dövlət olmuşdu, onlarda rusdilli əhali üstünlük təşkil etmirdi. Amma Tatarstan da bir vaxt müttəfiq respublika olmuşdu...

Vacib deyil ki, imperiyada daim fəal millətçilik tendensiyası olsun. Əgər proseslər sürətlənsə, Rusiya iflic olsa, istisna deyil ki, ən fəal regionlardan biri məsələn, Şimali Qafqaz olacaq...

Beləcə, çox namizədlərin adını çəkmək olar. Onların bəzisinin əhalisinə indi ola bilsin ki, Rusiya daha cəlbedici görünür. Amma hər şey kolbasa vitrinlərdən qurtarana qədərdir. Burada yadıma bir detal düşür. Polşalı hüquq müdafiəçisi Marek Novitski deyirdi ki, onun ölkəsundə bütün inqilabların səbəbi kolbasa olub...

Təbii ki, bunu hərfi mənada başa düşmək lazım deyil. Həm də Rusiyanın daha da böyümək əzmində olduğu bir vaxtda onun çökməsindən danışmaq bir o qədər də inandırıcı görünmür. Amma bir vaxt SSRİ-nin parçalanacağı haqdakı söhbətlər də ciddi təsir bağışlamırdı. Amma sonrası nə oldu?

Bəs bu il üçün nə demək olar? Hələlik nə Rusiyanın Avrasiya İttifaqından, nə də Avropa Birliyinin assosiasiya sazişindən kökə bişirmək mümkün olmayıb və insanlar hələ də gözləməkdədirlər...

Əslində o vaxt da yazmışdıq ki, bu, böyük bir bazar uğrunda savaşdır. Məsələ hələ onda da deyil ki, vitrinlər Avropa və ya Rusiya malları ilə dolsun. Onları ala bilmək üçün insanlarda pul da olmalıdır...

Bu pul hardan gələcək? Bax, burada, necə deyərlər, Kərəmi ağlamaq tutur. Bu o qədər də asan məsələ deyil. Hətta Avropa da hələ satmaq haqqında daha çox düşünür, nəinki almaq haqqında...

Amma bu, böyük yolun astanasıdır. Bizim istehsalçılar da rəqabət qabiliyyətli mallar istehsal etməyi, normal xidmət etməyi öyrənməlidirlər. Əks təqdirdə bu adamlar hələ də akvarium balıqlarına bənzəməkdə davam edəcəklər...

Məndən soruşsalar ki, birinci yerdə nəyi qoyardın, istehsalçıların, yoxsa istehlakçıların marağını, düşünmədən deyərdim ki, təbii ki, istehlakçıların. Ən azı ona görə ki, onlar daha çoxdur...

# ABŞ-Türkiyə münasibətlərində "buzlar əriyir"

## Orxan Qafarlı: "Vaşinqton Moskvanı qabaqlayaraq Türkiyə ilə anlaşma əldə etmək istəyir"

**Son aylarda Türkiyə-ABŞ münasibətlərinin gərgin olması fonunda ABŞ vitse-prezidenti Co Baydenin Türkiyəyə səfəri maraqla qarşılanıb. Qeyd edək ki, Bayden son aylarda soyuqlaşan Amerika-Türkiyə münasibətlərində kövrükləyici açıqlaması ilə gündəmə gəlmişdi. Güman olunur ki, Baydenin İstanbula səfəri son zamanlar soyuqlaşan iki ölkə münasibətlərini qaydaya salmaq cəhdidir.**



Bayden özü də İstanbulda verdiyi açıqlamada xeyli dərəcədə pozitiv mövqe sərgiləyib, Türkiyənin regionun təhlükəsizliyində önəmini vurğulayıb. Xüsusən də Xəzər qazının Avropaya çıxarılması ilə bağlı layihələrə diqqət çəkən ABŞ dövlət rəsmisi bu məsələdə Ankaranın rolunu təqdir edib.

Politoloq, Ankara Universitetinin doktorantı Orxan Qafarlı deyir ki, Baydenin Türkiyədə keçirdiyi görüşlər zamanı üç ana gündəm mövzusu olub. Bunlar IŞİD, Əsəd iqtidarının gələcəyi, Suriya müxaliflərinin hazırlıq proqramı, kürdlərin regionda gələcək statusudur: "Türkiyə Yaxın Şərq regionunda İŞİD kimi qruplaşmaların ortaya çıxmasında səbəb kimi daima Vaşinqtonun yürütdüyü yanlış siyasəti görür. Türkiyə və ABŞ arasında Əsədin gələcəyi ilə bağlı daima fikir ayrılığı var idi. Nə qədər qəribə görünsə də, Türkiyədən daha çox Əsədin devrilməsində maraqlı ölkə yoxdur. Vaşinqton bu amilləri diqqətə alaraq, Türkiyə ilə Əsəd devrilməsi planını yaxın gələcək üçün düşünmür. Regionda və Suriyada status-kvonu dəyişmək üçün iki ölkənin gücü yetərli deyil. Bunun üçün ABŞ ilə Türkiyə indiki məqamda İŞİD-ə qarşı ortaq mübarizə şəklini və müxalif güclərin hazırlanması prosesinə dəstək olacaqlarını açıqlamış oldular".

O.Qafarlı deyir ki, kürd məsələsində ABŞ-la Türkiyə arasında ortaq mövqe belədir ki, PKK-nın əlinə silah keçməsin və Kobani qədər digər regionlara, məsələn, Hələbə də diqqət edilsin. Ekspert deyir ki, Türkiyə ABŞ-ın Ankaranın "kürd açılımı" siyasətini dəstəklədiyi mesajını almasının önəmli olduğunu düşünür: "Çünki son zamanlar Türkiyədə bir sıra kürd siyasilərin ABŞ ziyarətləri və döndükləri zaman daxildə daha radikallaşmaları narahatlıq doğurur. Xüsusilə də Səlahəddin Dəmirtaşın Vaşinqton ziyarətləri "kürd açılımında" Vaşinqtonun proseslərə müdaxilə etməsi fikri formalaşdırır. Bayden ilə Ərdoğan və Davudoğlu arasında bu mövzuda bir açıqlama olmasa da bu narahatlığın Amerika rəhbərliyinə çatdırıldığına işarədir".

Orxan Qafarlı deyir ki, Bayden və Davudoğlu arasında görüş ikincinin İraq səfərindən döndüyü vaxt olub. Ekspertin sözlərinə görə, ABŞ vitse-prezidenti Türkiyə liderləri ilə kürd neft və qazının xarici bazarlara çıxarılması mövzusunda da müzakirə aparıb: "Ancaq görünən odur ki, iki ölkə arasında bu mövzuda tam anlaşma əldə edilmədi. Çünki ABŞ bir daha İraq mərkəzi hökuməti ilə Türkiyənin hesablaşması lazım olduğunu vurğuladı".

Baydenin Türkiyə səfərinin ikinci əsas mövzusu Türkiyə-Rusiya münasibətləri olub. O.Qafarlı deyir ki, dekabrın 1-3 arasında Vladimir Putinin Ankaraya rəsmi ziyarəti gözlənilir. Bu ziyarət Rusiya siyasi ilə bağlı mühüm hadisə hesab olunur: "Vaşinqton Moskvanı qabaqlayaraq Türkiyə ilə bir anlaşma əldə etmək istəyir. Vaşinqton Rusiya-Türkiyə münasibətlərinin Moskva ilə aralarında olan böhran zamanı inkişaf etməsini istəmir. Çünki münasibətlərin inkişaf etməsi ABŞ-ın planlarına ziddir. Rusiya iqtisadiyyatının nəfəs almasına səbəb ola bilər".

Baydenin səfərinin üçüncü əsas hədəfi son zamanlar Türkiyə ilə Yunanıstan arasında Şərqi Aralıq dənizində enerji ehtiyatlarının bölüşdürülməsi ilə bağlı yaranmış gərginlikdir: "ABŞ mümkün qədər tərəf tutmadan yunan və türk tərəfini bir masada oturtmağa çalışır. Eyni zamanda, ABŞ öz gücündən istifadə edərək regionda Yunanıstan, Misir və Türkiyə arasında münasibətlərin daha da gərginləşməsinin qarşısını almağa çalışır. Və bunun üçün, məsələn, İsrailin Misirlə Yunanıstan və Türkiyə arasında gərginliyə müdaxilə etməməsini təmin edir. ABŞ Türkiyənin sülh yönümlü siyasətini dəstəklədiyini açıq şəkildə bildirir. Yunanıstanı Türkiyə ilə masaya oturub bu məsələləri müzakirə etməyə çağırır".

❑ Kənan RÖVŞƏNOĞLU

# Rusiyada yeni inqilab yetişir

## Qabil Hüseynli: "Rusiya ilə bağlı başda Amerika olmaqla Qərbin ciddi planları var..."

**Rusiya prezidenti Vladimir Putin deyib ki, Rusiya ekstremizmin və rəngli inqilabların qarşısını almaq üçün hər şeyi etməlidir. Noyabrın 20-də Təhlükəsizlik Şurasında çıxış edən Putin bildirib ki, "biz rəngli inqilabların hansı faciəvi nəticələrə apardığını görürük". Prezident "rəngli inqilabları" ekstremizmə bənzədib.**

Maraqlıdır ki, ötən həftə Çinin və Rusiyanın müdafiə nazirləri də rəngli inqilablardan qorunmaq məsələsini müzakirə ediblər. Bu barədə Rusiyanın müdafiə nazirinin müavini Anatoli Antonov deyib. "Azadlıq" radiosunun məlumatına görə, Antonov deyib ki, Şoyqu və Vanguan o cümlədən rəngli inqilab təhlükəsindən danışıblar. Honq-Konqda demokratiya uğrunda nümayişlərə toxunan müdafiə nazirləri etiraf ediblər ki, heç bir ölkənin rəngli inqilabdan qorunmağa immuniteti yoxdur.

Antonov deyib ki, rəngli inqilab Qərb, o cümlədən Amerika siyasi strateqlərinin eksperimentidir. Onun sözlərinə görə, Ukraynada rəngli inqilab oldu və Ukraynanı çətinliyə və sınaqlara saldı.

Qeyd edək ki, "rəngli inqilab" termini son 10 ildə postsovet məkanında baş verən siyasi hakimiyyət dəyişikliyi, daha dəqiqi keçmiş sovet kadrları olan avtoritar rejimlərin inqilab nəticəsində Qərbyönümlü hakimiyyətlə əvəzlənməsi hadisəsidir. Qırğızıstan, Gürcüstan və Ukraynada "rəngli inqilab" baş verib. Ancaq hazırda Rusiya liderlərinin məhz rəngli inqilab mövzusunu gündəmə gətirməsi Qərbin Rusiyaya qarşı sanksiyaları ilə izah olunur. Görünən odur ki, Rusiya liderləri ölkə daxilində inqilabi proseslərin baş verəcəyindən narahatdırlar.

Mövzu ilə bağlı "Yeni Müsavat"a şərh verən politoloq Qabil Hüseynli deyir ki, Rusiya hakimiyyətinin narahatlığı anlaşılandır. Q.Hüseynlinin fikrincə, Kreml artıq anlayır ki, Qərb Rusiya ilə bağlı ciddi planlarını işə salıb: "Rusiyada rəngli inqilab realdır. Rusiya hazırda tikan üzərində oturmuş vəziyyətdədir. İnsanlar çox narahat, pərişandırlar. Hətta gələn məlumatlara görə, səhhətində problemlər yarananlar da var. Bütün bunlar onu göstərir ki, Rusiyada inflyasiya dərinləşdikcə, rublun məzənnəsi aşağı düşdükcə, iqtisadi göstəricilər pisləşir və Qərbin sanksiyaları öz təsirini göstərir".

Hazırda Rusiyanın dünyadan təcrid olunmuş vəziyyətdə olduğunu qeyd edən Q.Hüseynli əlavə edir ki, neftin qiymətinin aşağı düşməsiylə bu vəziyyət günü-gündən daha da



Qabil Hüseynli

pisləşir: "Əhalinin maddi rifah səviyyəsində daha çox təzahür edən bu vəziyyət Putinin reytinqinin aşağı düşməsinə də ciddi surətdə təsir göstərir. Açığını demək lazımdır ki, Qərbin özü də Rusiyada ən azından Putinlə bağlı, eləcə də əhalinin yaranmış vəziyyətə etirazları ilə bağlı xüsusi planlarının olması ehtimalı yüksəkdir. Məsələn, xarici işlər naziri Lavrov açıq şəkildə bəyan edir ki, Qərb Putini devirmək istəyir. Mənim zənnimcə, Rusiya ilə bağlı başda Amerika olmaqla Qərbin ciddi planları var. Və bu planlar həyata keçənə qədər Qərb təmkinli mövqe tutacaq. Deyirlər ki, cəhənnəmə gedən özünə yoldaş axtarır. İndi Rusiya hələ belə deyək, vəziyyətin qarışmadığı, qarışması ehtimalının aşağı (yalnız Honq-Konq istisna olunmaqla) səviyyədə olduğu Çini də özünə yoldaş etmək istəyir".

Q.Hüseynli hesab edir ki, hazırda Honq-Konqdakı iğtişaşları çıxmaqla Çin xeyli dərəcədə sabit ölkədir və inqilab ehtimalı yoxdur. Ekspertin fikrincə, hazırda əsas hədəf Rusiyadır və Qərb dünyası Rusiya hakimiyyətini zəifləmək və ən azından yaxın illər üçün aqressiv siyasətdən imtina etməyə məcbur vəziyyətə gətirmək istəyir: "Çin də Honq-Konqla bağlı ciddi təşviş içərisindədir. Ancaq ölkənin iqtisadi vəziyyəti, kontinental Çində əhalinin maddi durumu Rusiya ilə müqayisəedilməzdir. Bu səbəbdən də Qərb hələ ki Çini Honq-Konqla pressinq vəziyyətində saxlamaqla, belə demək mümkündürsə, "bütün cəbhə boyu" Rusiyaya doğru hücuma keçib.

Rus siyasi elitasının belə təşvişli vəziyyəti də artıq təzahürləri görünməyə başlayan bu durumdan qaynaqlanır. Ona görə də Rusiya yeni bir siyasi vəziyyətə hamilədir desək, yanılmarıq. Putinin xilas yolu yoxdur. Rusiya bu dəfə də zəifləsə, Yeltsin dönəmi postsovet Rusiyası səviyyəsinə düşsə, ona bir daha xarici aqressiv siyasət yürütmək imkanı verilməyəcək".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014



# Binəqədidə yenə ağaclar kəsildi, sakinlər etiraza qalxdı

## Onların sözlərinə görə, ağacların yerində bina tikmək istəyirlər

**Binəqədi rayonu, Azadlıq prospekti 196 ünvanda binanın arxasındakı yaşıllığı icra hakimiyyəti məhv edir. Noyabrın 17-dən bu günə kimi hər gün ağaclar yavaş-yavaş kəsilir. Bu haqda məlumatı rayon sakinləri musavat.com-un əməkdaşına deyiblər. Sakinlər deyirlər ki, ağacların kəsilməsi öncədən planlaşdırılıbmış:**

“Çünki yay aylarında ağaclara verilən suyu kəsdilər. Biz də qonşularla birgə maşınla su gətirtdik, ağacları özümüz suvardıq. Məqsədləri bəlli idi. Ağaclara su verməyərək, onların yanmasını gözlədilər. Sonra da gəlib deyəcəklər ki, ağaclar qocalıb, quruyub, kəsilməlidir. Amma bu onlarda alınmadı. Buna baxmayaraq ağacları kəsirlər. Xəbər yayılıb ki, bu ağacların yerinə bina tikəcəklər. Onsuz da şəhərdə yaşıllıq qalmayıb. Hamısını kəsib, yerində bina tikirlər. Yəqin buranın da taleyi elə olacaq”.

Şikayətçi sakinlərin sözlərinə görə, onlara burada park salınacağı deyilir: “Bizi aldadırlar. Əvvəlcə Binəqədi Rayon İcra Hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcəbov bizə dedi ki, sadəcə köhnə ağaclar budanır. Heç bir ağac kəsilməyəcək. Amma elə olmadı. Bundan bir müddət sonra iş maşınları əraziyə gətirildi və ağaclar kəsməyə, kökündən çıxarmağa başladılar. Ədalət Rəcəbov özü də tez-tez ərazidə olur. Deməli, icra hakimiyyətinin tapşırığını yerinə yetirir. Ağacların kəsilmə səbəbini soruşanda deyirlər ki, guya yeni park tikiləcək. Ağacsız park kimə lazımdır? 250-dən çox ağacı kəsiblər. Bundan sonra burada nə park salmaq olar? Lap park olsa belə, beton üzərində salınmış, yaşıllıqsız, təmiz havası olmayan park kimə lazımdır? Müxtəlif qurumlara şikayət etmişik. Heç bir faydası olmayıb. Gəlib kimsə baxıb və gedib”.



Binəqədi rayonu icra başçısı Xaləddin İsgəndərov “Təmiz Binəqədi” deyəndə yəqin ki, bunu nəzərdə tuturmuş, Ağacları kəsib, hər tərəfi “təmiz” etmək... Axı ağaclar “pis görünür”, rayonun təmizliyini “pozur” və gəlir gətirmir. Onları məhv edib yerində bina tikmək isə pul gətirir...

Məsələ ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər üzrə şöbə müdiri Nuridə Allahyarova ilə əlaqə saxladıq.

N. Allahyarovanın sözlərinə görə, həmin ərazidə ən son müasir standartlara cavab verən park salınacaq: “Cavan ağacların kəsilməsindən söhbət gedə bilməz. Qurumuş ağaclar kəsilir, cavan ağaclar isə kökündən çıxarılır. Ərazi təmizlənib, yeni park salınacaq. Bu parkda həm də meyvə ağacları əkiləcək. Sakinlər üçün ən yaxşı şərait yaradılacaq. Sakinlərin haqlı narahatlıqlarını başa düşürük. Onlar elə düşünürlər ki, orada kimsə bina tikəcək. Amma elə deyil. Buna tam əmin ola bilərlər. Həmin ərazidən böyük, yaşıllıqlar içində olan bir park salınacaq”.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Siyavuş Novruzovun aşağıladığı bəstəkarlar

## Musiqiçilərin də çoxu zamanında döyüşüb; onların arasında yaralananlar da var...

**Ötən həftə parlamentdə yenə maraqlı məqamlar yaşandı, fikirlər səsləndi. Bəzən müzakirə olunan məsələ deputatların deyimlərinin kölgəsində qalır. Bu dəfə də istisna olmadı. Götürək, Siyavuş Novruzovun “İŞİD gələrsə, qarşısına bəstəkarlarla çıxaq?” sualını.**

Sualın mənası əslində dəqiq anlaşılmır. Bəlkə deputat düşünür ki, bəstəkarlar əlinə silah alıb döyüşə gedə bilməz? Yəni onlar ya ürəyi yuxadılar, ya da qəlblərində vətənə sevgi hissi yoxdur. Əgər sualın məğzi budursa bildirmək istərdik ki, S.Novruzovun müharibədə döyüşərək qəhrəmanlıq göstərən bəstəkarlarımız haqda məlumatı yoxdur.

Biri dünya şöhrətli bəstəkar, Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələrindən olan Qara Qarayev. Bəstəkar ikinci dünya müharibəsinin iştirakçısı olub. Özü də həmkarı Cövdət Hacıyevlə birgə. Bu döyüşlərdə C.Hacıyev ağır yaralanıb. Daha sonra müharibənin təsiri ilə hər iki bəstəkar birlikdə Vətən operasını yazırlar. İndi ortaya belə bir sual çıxır: cənab Novruzov, məgər sizin Qara Qarayev haqda məlumatınız yoxdur?

İlk dəfə muğamımızı simfonikləşdirərək dünyaya səs salan, əsərləri nəinki vətənimizdə eləcə də dünya səhnələrindən düşməyən, mahnıları dillər əzbəri olan Fikrət Əmirov da müharibə başlanar-başlanmaz cəbhəyə yollanıb. Faşistlərlə üz-üzə ağır səngərlərdə döyüşən bəstəkar düşmən gülləsindən yan keçə bilməmişdi.

Və yaxud mahnıları ilə ürəkləri riqqətə gətirən gözəl bəstəkar Tofiq Quliyev. Onun yaradıcılığı Azərbaycan mədəniyyəti üçün bir töhfə, mahnıları isə əbədidir. Müharibə zamanı isə o, 402-ci Zaqafqaziya Atıcı Diviziyasının orkestrini yaradaraq öz xanımı ilə birgə çıxışlar edib və hərbiçilərdə ruh yüksəkliyi yaradıb.

İnanıram ki, 23 yaşında İkinci Dünya müharibəsinin qurbanı olmuş, Azərbaycan xalqının böyük dramaturq və yazıçısı Hüseyn Cavidin yeganə oğlu, dahi bəstəkarımız Üzeyir Hacıbəyovun fitri istedadlı sevimli tələbəsi, gözəl şair, rəssam, folklorçu, musiqi tədqiqatçısı, unudulmaz bəstəkar Ərtoğrul Cavid haqda deputatın ümumiyyətlə məlumatı yoxdur.



Siyavuş Novruzov

Dahi Üzeyir Hacıbəyovdan söz düşmüşkən, Üzeyir bəyin mədəniyyət, musiqi, ədəbi, publisistika sahədə gördüyü əvəzedilməz işləri böyükdən-kiçiyə hər birimizə məlumdur. Ancaq onun 20-ci əsrin əvvəllərində Azərbaycan Demokratik Respublikasının yarandığı ilk gündən göstərdiyi şücaət, bütün varlığı ilə apardığı mübarizə, siyasi xidmətləri bu gün də öyrənilir. Onun ADR-in Milli İstiqlaliyyət gününün birinci ildönümü münasibətilə yazdığı məqaləsindəki sözləri isə dahiyanədir: “Ölmək var, dönmək yoxdur”.

Sadalanan faktlar sübut edir ki, bəstəkarlar, musiqiçilər (təbii ki, söhbət əsl musiqiçilərdən gedir, not anlayışı olmayanlardan yox) lazım gəldikdə düşmənlə mübarizə aparmaq, dövlətçilik, xalq uğrunda şücaətlik göstərmək iqtidarındadırlar.

Uşaq vaxtı musiqi ədəbiyyatından belə bir faktı tez-tez oxuyurduq: 1942-ci ildə müharibənin ortalarında dahi rus bəstəkarı D.Şostakoviç 7-ci “Leninqrad” simfoniyasını yazır. Əsər müharibənin mərkəzində, bombaların altında səhnədə ifa edilir. Simfoniyanı dinləyən əsgərlər musiqinin təsiri altında salondan birbaş düşmənlə üz-üzə döyüşə girirdilər. Bəli, bu bəstəkarın, yaratdığı əsərinin təsiri nəticəsi idi.

Ekspertlər də sübut edirlər ki, ümumiyyətlə, mədəniyyət sahəsində olan insanlar daha həssas, güclü mənəviyyata, geniş vətənpərvərlik ruhuna, daha humanist anlayışa malik olurlar. Vicdan deyilən məfhum bu insanlarda nadir hallarda ölür. Gəlin görək nə qədər vicdanı susan məmurlarımız, “kreslo” hərislərimiz var. Niyə sual edilmir ki, nə üçün indiyədək bircə məmurun oğlu da ön cəbhədə xidmət etməyib? Və yaxud şəhid olan məmur balası varmı? Parlamentdə oturub ağızdolusu status deməyə nə var ki.

Yazını müğənni-bəstəkar Cabbar Musayevin “Yeni Müsavata” dediyi fikirlərlə bitirmək istərdik: “Döyüşmək anı gələndə o bəstəkara, musiqiçiyə və yaxud başqa sənətə malik olmasına baxmır. Vətən hamımızındır. Təki o gün gəlsin və biz də öz borcumuzu yerinə yetirək...”

❑ **XALİDƏ**

# Nə yardan doyur...

**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com



**Bir qayda olaraq öz çalışdığım qəzeti tərifləməyi sevmirəm. Bu haqda məqalə, facebookda status yazmağı, dost çevrəsində nitq söyləməyi də. Bunu bir az yumşaq desək, qeyri-ciddilik sayıram. Amma iş “müharibə şərtlərinə” gələndə durum dəyişir. Kompüteri açan kimi, sağdan-soldan, sosial şəbəkədən, ayrı-ayrı saytcıqlardan ünvanına haqsız tənqid, təhqir gəlirsə, bir zəhmət sən də əlindəki “silahdan” istifadə edirsən... 13 ildir çalışdığım bir iş yeri barədə 3000 işarəlik yazını da çox görməzsiz yəqin, vəfa borcu deyib keçin...**

Bəli, bir balaca qrup var. Aqressiyanın pik həddindədilər, nirvanaya yüksəliblər hamısı. Həyatlarındakı cümlə problemlərə bais bəzi jurnalistlərmiş kimi davranırlar. Məsələn, hesab edin ki, yağış yağır və yollar bərbad günə qalır, asfaltlar çökür. Bu çoxbilmişlər sosial şəbəkədə yazır ki, bəs “Yeni Müsavat” o vaxt yollardan filan şeyi yazanda bilmirdiz belə olacaq?" Gülməyin, elədir... Səhər-axşam bütün işləri qəzetin monitorinqini keçirməkdən ibarətdir. Hərf-hərf, cümlə-cümlə izləyirlər. Filan səhifədə filankəsin şəkli bəhmənkəsin şəklinin altında gedib... Bəhmənkəsdən də müsahibə götürüblər, aman Allah... Başlandımı sənə şüvənizm?

Və bunu edənlərin çoxu Allah heç qoymasa jurnalistlərdir, həmkardır. Gündə 100 dəfə musavat.com-u F5 edib, yeni, eksklüziv xəbərləri copy-past (dədə malı kimi köçürənlər) edənlər, utanmadan, ağızdolusu “balam, bunlar jurnalist deyil” deməyə özündə cəsarət tapır. Sənin məhkəmə yazını, araşdırmanı, müsahibəni, eksklüziv xəbərini köçürmək üçün saniyəni ötürməyənlər sosial şəbəkədə “Yeni Müsavat”ın qəzet, musavat.com-un sayt olmadığını iddia etməyə çalışır. Adama deyərlər, qəzet, sayt deyil, niyə açırsan, baxırsan, köçürürsən, lap belə gözünə təpirsən? Bu iştahla belə pəhriz saxlanmaz, əzizlərim. İmtina da bir mədəniyyətdir, estetikadır.

Pisdir, yaza bilmirlər, siz daha yaxşı nümunə qoyun ortaya. Yazdıqlarınızla utandırın, təəccübləndirin bizi, cəlb edin oxucunu. Hansısa bir mötəbər tədbirdən hazırlanan jurnalist reportajı niyə kimlərinsə yuxusunu qaçırır? Ağzında reportaj, səs yazısı, görüntü deyirsən... Şərh yox, mübaliğə yox, fakt var... Fakt pisdirsə, Sabir demiş, niyə bərəldirsiz gözünüzü? Əyri oturub düz danışaq, bu təftişçilərin son aylar demirəm, son illər hansı yaddaqalan yazısını oxumusuz? Bunlar yazı yazmaq yerinə başqalarının yazdıqlarını müfəttiş kimi təftiş etmə haqqını hardan tapıblar? Keçən il yardım aksiyası zamanı qəzetimizin redaksiyasına gələn insanların siyahısını yada salın bir zəhmət. Hər kəsimdən var idi, hər kəsimdən. Müxalifəti, ziyalısı, hüquq müdafiəçisi, şairi... Onda da gözləri bərəlmişdi, “bizə niyə gəlmirlər” deyə şüvən salmışdılar. Bəlkə ona görə ki, qəzetçi yox, firqəçiliklə məşğulsuz? Hamını təhqir, təftiş edə-edə, satqın çıxara-çıxara ətrafınızda bir özünüz qalmısız, bir də özünüz?

Adını vəkil qoymuş birinin o gün qəzet barədə açıqlamasını oxudum. Dünyanın hansı ölkəsində olsaq, o vəkilin mantiyasını... əynindən çıxararlar. Bu nə jarqon, bu nə yanaşma? Amma qınamıram, “Nida”çıların məhkəməsindəki müdafiə nitqini “Bu pişik qara pişik, gətirib bizi zara pişik” kimi “şedevr” meyxana ilə başlayan müəllimdən bundan artığını gözləmək sadəlövhlük, uşaq optimizmi olardı. Avropa Məhkəməsinə göndərmək üçün yazılarından istifadə etdiyi, “podşivka”sını istədiyi qəzet “Yeni Müsavat”ın idi, hörmətli vəkil. Heç ən qatı cinayət işlərində belə fakt yaddan çıxmır, onda qala sizin odlu-alovlu çıxışınızda. Bəli, jurnalistin işi hadisə yaratmaq, lazım olanda minlərlə, hətta milyonlarla insanı arxasınca aparmaqdır. Kimlərsə rahat yerindən tərpənməyəndə, okeanın o tayında təhlükəsiz həyat keçirəndə jurnalist tədbirdən şərhsiz, canlı reportaj verirsə, bu, sizi niyə narahat edir?

Arqumentləri uzatdıqca uzatmaq olar... Amma bir zəhmət o məlum gerçəyi unutmayın: ya yardan doyun, ya da əldən qoyun... İkisi bir arada olmur, olsa da, çirkin görünür. Sizin kimi...

# Süfrəmizdəki şirniyyatlar haqda acı həqiqətlər







## Eyyub Hüseynov: “Satılan tortların, şirniyyatların 80 faizinin üzərində buraxılış tarixi və tərkib haqda məlumat yoxdu...”

**Belə bir deyim var: “Şirin ye, şirin danışasan...” Bəli, elə insanlar var ki, onlar qida rasionlarını şirniyyatsız təsəvvür edə bilmirlər. Bəs, bəh-bəhlə alıb süfrəmizə gətirdiyimiz şirniyyatların nə dərəcədə keyfiyyətli olduğundan xəbərdarıqmı?**

Məlum olduğu kimi, paytaxtda və bölgələrdə çoxlu sayda şirkət və sexlər tərəfindən şirniyyat məhsulları bişirilərək satış mərkəzlərinə göndərilir. Həmçinin ölkə bazarında yerli məhsullarla yanaşı xaricdən, xüsusən də Rusiya, Türkiyə və Ukraynadan gətirilən şirniyyat növləri də var. Təəssüf ki, satış mərkəzlərində əhaliyə satılan çeşidli şirniyyat məhsullarının heç də hamısı keyfiyyətli və istifadəyə yararlı deyil. Azərbaycanda artıq şirniyyat bazarının simasını müəyyən edən istehsalçı şirkətlər özəyi formalaşıb.

Hələ sovet dövründə respublikamızda ümumittifaq əhəmiyyətli iri şirniyyat müəssisələri fəaliyyət göstərib. Təkcə 1941-ci ildə əsası qoyulmuş Bakı Biskvit Fabrikini qeyd etmək kifayətdir. İndi də marka adı qazanmış AZZA, Z-style, Bon Appetit, Vinni, Güloğlu kimi şirniyyat evləri var ki, burada hazırlanan tortlar və şirniyyatlar dillər əzbəridir. Biz də adı hallanan bu şirniyyat sexlərindən bir neçəsi ilə əlaqə saxlayıb iş prosesinə gəlib baxmaq istədiyimizi bildirsək də, razı olmadılar. Hər zaman keyfiyyətli şirniyyatlar sərgiləyən və özünə güvənən bu şirniyyat sexlərinin niyə iş proseslərinə baxmağa razılaşmadıqları isə bizim üçün müəmmalı qaldı. Belə qənaətə gəlmək olar ki, nədənsə çəkinirlər və heç də hər şey göründüyü kimi deyil. Bəlkə də yanılırıq. Amma hər halda, situasiya bunu deməyə əsas verir.

Özəl günlərdə daha çox satılan şirniyyat növünün tort olduğunu nəzərə alaraq bir neçə şirniyyat mağazasına baş çəkib tortların qiyməti ilə maraqlandıq. Qiymətlər müxtəlif idi. Öyrəndik ki, tərkibindən və böyüklüyündən asılı olaraq tortların qiyməti 30 manatdan başlayaraq 1000 manatadək artır. Təbii ki, mağazaların vitrinində 1000 manatlıq tort yox idi. Vitrinə qoyulan tortların qiyməti 30-200 manat arasında dəyişirdi. Bahalı və müxtəlif fiqurda tortlar isə sifariş edilir və bir neçə saata hazırlanıb müştəriyə təqdim edilir. Bunu AZZA şirniyyat mağazasının satıcısı deyir.

Qeyd edək ki, xarici ölkələrdə müxtəlif fiqurlu tortların hazırlanma mexanizmi Azərbaycan da tətbiq edilir. Artıq sifarişlə istənilən formada - fotoaparat, ofis, kreslo mini-maketini tortdan hazırlayırlar. Təbii ki, onların qiyməti də elə dizaynlarına oxşardır. Bu tip tortları isə əsasən varlı təbəqənin nümayəndələri, məmurlar sifariş edir. Onların qiyməti 500 manatdan başlayır.

Baş çəkdiyimiz mağazalarda tortların və şirniyyatların əksəriyyətində saxlanma müddəti, tərkibi yazılsa da, bəzilərində tərkibi barədə məlumat qeyd olunması bir yana, heç istehsal tarixi də göstərilmirdi. Alıcılar arasında da çox vaxt tortlardan marqarin yağı tamının gəlməsindən şikayət edənlərdə vardı. Xatırladaq ki, sovet dövründə kremli məhsullara marqarin yağı işlədilə bilməzdi. Amma hazırda şirniyyat istehsalı ilə məşğul olan mağazalar şəbəkəsinin böyük əksəriyyəti kərə yağından istifadə etmir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov satılan tortların və şirniyyatların 80 faizinin üzərində istehsal tarixinin qeyd olunmadığını dedi: “Malların təhlükəsizliyi Sovet vaxtı çox pis təmin olunurdu, nəinki indi. Təəssüflər olsun ki, indi bəzi dövlət orqanları sovet üsulu ilə malların təhlükəsizliyini təmin edir. Buna oteka deyilir. Maldan bir ikisini götürüb ekspertiza edirlər. Əgər həmin götürdükləri nümunə yaxşı çıxdısa, deyirlər ki, hamısı yaxşıdır. Hətta mənim bu yaxınlarda İqtisadiyyat Nazirliyində bu barədə ciddi mübahisəm oldu. Əslində qida zənciri xammaldan istehlakçının stolunun üstünə qədər keçdiyi proses izlənməlidir. Yəni partiya maldan bir ikisi yaxşıdırsa, onun hamısı yaxşıdır demək olmaz. Bu kimi yoxlanış Sovet dövründən qalma bir yoxlanışdır. Müasir dövrdə bundan istifadə edilməməlidir”.

E.Hüseynov şirniyyat bazarında olan tortların 80 faizinin üzərində istehsal tarixinin olmadığını bildirdi: “Satılan tortların, şirniyyatların təxminən 80 faizinin üzərində buraxılma tarixi, tərkibi haqda məlumat yoxdu. Əhali bilməlidir ki, tortları 36 saatdan artıq saxlamaq olmaz. Ancaq mağazalarda elə tortlar olur ki, günlərlə saxlanılır və əhaliyə satılır. Bu kimi neqativ halların qarşısını almaq üçün də ilk növbədə gərək hökumətin qanunları mükəmməlləşsin. Çünki istehlakçı hüquqlarını qoruyan qanunlar kompleksi həddindən artıq zəifdir. Bu dəqiqə haradasa insanları zəhərləyən bir qida aşkar etsək belə dövlət orqanlarının heç birinin səlahiyyəti yoxdur ki, həmin yerə cəld müdaxilə etsin. Çünki sahibkarlığa müdaxilənin qarşısını almaq üçün dövlətin çox saylı qanunları var. Bu qanunlar isə istehlakçının əleyhinə işləyir. Ona görə də mən prezidentə də açıq məktub yazmışam ki, hökumətin bu səhv siyasətini dəyişmək lazımdır. Azad İstehlakçılar Birliyi hökumətin bu siyasətini dəyişdirmək üçün müəyyən işlər aparır”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Azərbaycanda vəhhabilərə peyntbol qadağası qoyuldu

**Vəhhabi təriqətindən olan şəxslərin Bakıda və digər şəhərlərdə fəaliyyət göstərən peyntbol atıcılıq mərkəzlərinə girməsinə icazə verilmir. Bu barədə virtualaz.org saytına hüquq-mühafizə orqanlarındakı mənbələrdən məlum olub.**

Xəbərdə bildirilir ki, bu barədə peyntbol mərkəzlərinə qeyri-rəsmi qaydada xüsusi tapşırıqlar verilib. Bu yasağa görə də hazırda ölkədəki peyntbol mərkəzləri vəhhabiləri müştəri olaraq qəbul etmir. Məlumata görə, qadağa bir neçə gün əvvəl mətbuatda İŞİD-ə qoşulmaq istəyən vəhhabilərin guya “Baku Paintball Center”də təlimlər keçməsi haqda xəbərlər yayılandan sonra qoyulub.

Qeyd edək ki, musavat.com saytının vəhhabilərin peyntbol mərkəzlərində təlimlər keçməsi ilə bağlı yaydığı xəbər Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri tərəfindən təkzib edilmişdi. Buna baxmayaraq məlumata görə, həmin məlumatın yayılmasından sonra hüquq-mühafizə orqanları profilaktik tədbirlər həyata keçirməyə başlayıb və peyntbol mərkəzlərinə baxış keçiriblər. Peyntbol mərkəzlərinin sahiblərinə xüsusi tapşırıq verilib ki, vəhhabilər bu atıcılıq mərkəzlərinə qətiyyən buraxılmasın.

Məlumatı sayta açıqlamalarında peyntbol mərkəzlərinə gedən şəxslər də təsdiq edib. Onların sözlərinə görə, peyntbol mərkəzlərində müştərilərin xarici görünüşünə xüsusi fikir verilir, bəzən müştərilərdən vəhhabi olub-olmadıqları belə soruşulur. Belə bir qadağanın qoyulmasını Bakıda və Sumqayıtda fəaliyyət göstərən peyntbol atıcılıq mərkəzlərindən də təsdiqlədilər. Adlarının çəkilməsini istəməyən əməkdaşlar bu xəbərdarlığı noyabrın 13-dən aldıqlarını deyiblər.

Onlar da təsdiq edirlər ki, vəhhabilərin peyntbol mərkəzlərinə buraxılmaması barədə hüquq-mühafizə orqanlarından xəbərdarlıqları “Baku Paintball Center”də guya İŞİD-çilərin təlim keçdiyinə dair iddiaların yayılmasından sonra alıblar.

YENİ MÜSAVAT
N 287 (5996) 24 noyabr 2014

# Təbrik edirəm, siz işkoliksiniz...

## Qəribə xəstəliyin ən maraqlı tərəfləri barədə bilmədiklərimiz; alimlər iş mərəzini "ən çox hörmət olunası xəstəlik" adlandırır, amma...

**Bu ssenari sizə tanışdır? İşinizi sevir, çoxsaylı layihələrə görə məsuliyyət daşıyırsınız. Son möhlətlər təzyiq göstərməyə davam edir. İş vaxtınız uzundur. Ailənizə və özünüzə vaxt ayıra bilmirsiniz. Məzuniyyətlər və ictimai səfərlər uzaq xatirələrə çevrilib. Yeganə hobbiniz işinizdir.**

Cavabınız "hə"dirsə, bu, işkolik olduğunuz mənasına gəlir. İşkoliklər yalnız işləri üçün yaşayır, əlavə vaxtlarını da işlərinə sərf edir və işlərini evlərinə aparırlar. Bir çoxları çalışqanlıqları ilə fərqlənir. Lakin iş yaşama səbəbinə çevriləndə, bu bir qədər ağır hal alır. Bunun isə ictimai, texnoloji və maliyyə səbəbləri var. Bəzi tədqiqatlar insanların 40%-dən çoxunun geri qayıdarkən artıq işini itirmiş olacağı qorxusu ilə məzuniyyətlərə çıxmaqdan imtina etdiyi göstərir. Bundan başqa bu hal ailələrin dağılmasına, bir sıra xəstəliklərin yaranmasına gətirib çıxara bilər. İşiniz varolma səbəbinizə çevriləndə, düşündüyünüz və sizə xoşbəxtlik gətirən yeganə şey olanda müdaxiləyə ehtiyacınız var deməkdir.

Çox işləməklə, həddindən çox işləməyi qarışdırmaq olmaz. Çalışqan insanlar sərhədlərini müəyyənləşdirməyi və işi şəxsi həyatdan ayırmağı bacarırlar. İşkoliklər üçün isə şəxsi həyat deyilən bir şey yoxdur.

**"Bu bəlaya" düşüb-düşmədiyinizi anlamağın ən asan yolu**

Yaxşı, bəs insan işkolik olduğunu necə anlaya bilər?

1.İşləmədiyiniz vaxt özünüzü əsəbi və bədbəxt hiss edirsiniz?

2. Özünüzə ayırdığınız boş bir vaxtınız yoxdur?

3. Eviniz də ofis kimidir?

4. Sosial münasibətləriniz get-gedə pozulurmu?

5. Hər işi, hər məsuliyyəti üzərinizə götürürsüz?

6. Daim zamanla yarışa girirsiz?

7. Həm fiziki, həm zehni olaraq daim bir gərginlik hiss edirsizmi?

8. Dostlarınızla, ailənizlə daim müzakirə etdiyiniz mövzu işlərinizlə bağlıdır?

Bu suallara verdiyiniz cavab "hə"dirsə, siz bir işkoliksiniz.

**İşkoliklər xəstələnir, həyata küsür və...**

İşkolik olmaq nələrə səbəb ola bilər?

Dalğınlıq və yaddaşsızlığa səbəb olur. Diqqəti toplamaq demək olar ki, qeyri-mümkünə çevrilir.

Xroniki yorğunluğun ən vacib səbəblərindən biridir.

Sosial münasibətlərinizə təxmin etdiyinizdən daha çox ziyan verir.

Boyunda, beldə və kürəkdə davamlı ağrılara səbəb olur.

İnsanda əhvalsızlıq və isteksizlik yaranır.

Yaradıcılığın qarşısını alır.

Həzm və immunitet sistemini çökdürür.

Zehni olaraq performansın aşağı düşməsinə səbəb olur

Baş dönməsi, baş ağrısı kimi şikayətlərə sahib ola bilərsiniz.

İnsan daha əsəbi və dözümsüz olur. Bu, yuxu narahatlıqlarına qədər davam edə bilər.

**İşkoliklik... dərddirsə, dərmanı da var - sevin, sevilin...**

Dərd varsa, dərmanı da var şübhəsiz ki. Maraqlıdır, bir insan işkolikdirsə, bundan necə xilas ola bilər? Çıxış yolları da aşağıdakı kimidir:

Əsas məsələ qızıl ortanı tapmaqdadır... Öncə iş və özəl həyat arasında sağlam bir tarazlıq qurmaq lazımdır.

Daimi planlar quraraq bu tarazlıqla bağlı ilk addımı atmaq mümkündür.

Hər işi, hər məsuliyyəti üzərinizə götürməyin.

İşkolik olmanızın altında yatan səbəbləri tapın.

İşin xaricindəki vaxtda ağlınıza daim iş düşürsə, bunu dərhal başınızdan atın.

İş xaricindəki vaxtınızı işdən olmayan dostlarınızla, ailənizlə keçirməyə və iş mövzusunu heç açmamağa çalışın.

Başqa mövzulardan danışın mümkünsə.

Özünüzə hər zaman ən önəmli insanın "siz" olduğunu anladın.

Mütləq özünüzə hobbilər tapın. Bu idman da ola bilər, kitab da, hər hansı bir kurs da...

Hər şeyin mükəmməl ola bilməyəcəyini və xətalara yol verə biləcəyini qəbul edin, bunu həzm etməyə çalışın.

Həftəsonu tətilləri haqqında düşünün. Daha sonra isə uzunmüddətli səfərlər planlaşdırmağa başlayın.

X Könüllük barədə düşünün, başqalarına kömək edin ,yeni insanlarla tanış olun.

X Hobbi tapın.

X Gördüyünüz hər bir işin mükəmməl olmalı olduğu düşüncəsindən azad olun.

X Bəzən heç bir şey etmədən dincəlməyin normal olduğunu qəbul edin.

X Bütün bunlar işə yaramırsa, onda professional yardım alın.

**İşkoliklik - sayğı duyulası xəstəlik siyahısında imiş...**

Amma psixoloqların da bu mövzuda maraqlı araşdırmaları var. Məsələn, onlar hesab edirlər ki, işkoliklik əslində çox işləmək demək deyil. Belə ki, çox çalışmaq bəzi məcburiyyətlərdən irəli gələn bir nəticədir. Çox işləyən insanlar eyni zamanda iş xaricində də sosial həyatlarını qorumağa çalışırlar. İşkoliklər isə normal vaxtlarda belə ediləcək bir sürü iş "tapırlar". Şərtləri nəzərə alanda çox işləmək, işini sevmək və ya uğurdan zövq almaq yanlış bir şey deyil. Bunun əksinə olaraq, işkoliklər fasiləsiz olaraq iş haqqında düşünürlər. İşləmədikləri vaxt özlərini depressiv hiss edirlər. Hətta fasilə vermək, səyahətə çıxmaq kimi məsələləri tamamilə siyahıdan çıxarırlar. Hədəfə çatıb, onun zövqünü yaşamaq əvəzinə, hər gün özlərinə yeni hədəflər tapırlar. Əgər siz işkolik birindən "lotoreyadan böyük pul udsan nə edərsən" soruşsanız, cavabı belə olar ki, o pulla işimə davam edərəm.

"İşkoliklik" bir qayda olaraq, daim işini düşünmək, işinə böyük zaman ayırmaq və özündən gözləniləndən daha çox çalışmaq kimi davranışlarla təsvir olunur. İşkolikliyin işinə bağlı olmaq və ya işini uğurla bitirə bilmək üçün lazım olanda daha çox işləməklə heç bir əlaqəsi yoxdur. Onlar işlərindən başqa heç nə düşünmürlər. Özlərini və həyatlarını işləri ilə bağlı olaraq tamamlayır və hər zaman özlərini işləmək məcburiyyətində hiss edirlər.

Mütəxəssislər deyirlər ki, çox vaxt insanlar həyatdakı həqiqi problemlərlə üzləşməkdən qaçdıqları və ya ailədəki digər işkoliklərə bənzəməyə çalışdıqları üçün işkolik olurlar. Sosial münasibətlərdə çətinlik çəkənləri də çox vaxt iş xilas edir. Bu tiplər yatmağı, oyun oynamağı, səyahət etməyi, qısacası, iş xaricindəki hər işi, fəaliyyəti lazımsız və lüks hesab edirlər. Kanadalı



psixoloq Barbara Killinger isə işkolikləri "hörmət edilesi xəstələr" adlandırıb. Onun fikrincə, mükəmməllikləri onları çox vaxt narsizmə qədər apara bilir.

Bu günə qədər işkoliklərlə bağlı çoxlu sayda araşdırma aparılıb. 2001-ci ildə aparılan və Family Journal jurnalında yayımlanan bir araşdırma işkoliklərin uşaqlarının daha depressiv olduqlarını və valideyn boşluğu hiss etdikləri üçün özlərini yaşlarından xeyli böyük apardıqlarını üzə çıxarıb. 2000-ci ildə "Journal of Family Therapy"də yayımlanan bir başqa araşdırmadan çıxan nəticə isə odur ki, işkoliklərlə evli olan qadınlar digər həmcinslərindən daha çox boşanır. 1999-da aparılan və "Sex Roles" jurnalında yayımlanan bir digər araşdırma isə eyni dərəcədə işkolik olan qadınların stress faizi kişilərinkindən daha çoxdur. Buna səbəb isə onların işdən əlavə, ev və uşaqların da qayğısını öz üzərinə götürməsidir.

**Bundan ən çox Amerika ziyan çəkir**

İşkolik sözünün ən çox istifadə edildiyi ölkələrdən biri Amerikadır. Hətta Amerikanın yaşadığı ən önəmli problemlərdən biri kimi dəyərləndirilə bilər. Amerikada işkolikliyin zərərləri fiziki problemlərdən daha çoxdur. Ona görə də son illər Amerikada yaşanan boşanmaların böyük faizi işkolikliyə görə yaşanır.

Hətta problem o qədər ciddi səviyyələrə çıxıb ki, ABŞ-da bununla bağlı sosial müdafiə dərnəkləri qurulub, internetdə işkoliklərin qrupları yaradılır. Həyat yoldaşlarının işkolik olmasından şikayətlənən qadın və ya kişilər bu dərnək və ya sosial şəbəkələrdə bir araya gəlirlər. Onlar bu problemdən çıxış yolu axtarmağa çalışırlar. Hətta ABŞ-da işkoliklik alkoqolizm, siqaret və ya narkotik maddə kimi ciddi asılılıq olaraq qəbul edilir.

❑ **Sevinc TELMANQIZI**

# Bakının bağrını yaran baykerlərlə polis bacaracaqmı?

## Vaqif Əsədov: "Motosikletçilərə qarşı aparılan reydlərdə kimsəyə güzəşt edilməyəcək"



**Yol polisi bir neçə gündür Bakıda motosikletçilərə qarşı xüsusi reyd keçirir. Artıq bir neçə motosikletçi saxlanılıb. Məlumatda reydin keçirilməsinə səbəb kimi daxili işlər naziri, general-polkovnik Ramil Usubovun göstərişi olub. Bundan sonra qeydiyyatlarında problem olan, yol hərəkəti qaydalarını pozan motosikletçilərlə bağlı təcili reyd keçirilib.**

Nazirin tapşırığının necə icra olunduğunu öyrənmək üçün Daxili İşlər Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Xidmətin rəis müavini Ehsan Zahidov bu barədə xəbərsiz olduğunu bildirdi.

**Xüsusi, yoxsa adi reyd..**

Nazirliyin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Cavanşir Məmmədov "Yeni Müsavat"a bildirdi ki, keçirilən reyd adi reydlərdən fərqlənmir: "Burda xüsusi heç nə yoxdur. Həmişəki keçirilən reydlərdəndir. Bu barədə geniş şəkildə heç nə deyə bilmərəm".

Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimai qurumlarla əlaqə bölməsinin rəisi Vaqif Əsədov qanunu pozan motosikletçilərdən danışdı: "Təkcə "Neftçilər" prospektində 11-dən çox motosikletçi saxlanılıb. Onlar polisdən qaçmağa cəhd etdilər. Lakin süni sıxlıq yaradaraq onları saxlaya bildik. Nəticədə barələrində protokol yazılaraq aidiyyatı üzrə tədbirlər görülüb. Nəzərinizə çatdırım ki, motosikletçilərin məsuliyyətsizliyi nəticəsində ölümlə nəticələnən hadisələr baş verir. Motosikletin qazanlarından yayılan hay-küy ətrafda olanların narazılığına səbəb olur, göstərdikləri şou vətəndaşları narahat edir. Çox zaman onlar xüsusi qaydalara əməl etməyərək şinel və kaskalar geyinmir, dövlət nişanlarından istifadə etmirlər. Səhər saat 9-dan axşam 10-dək yollardan istifadəyə icazə vermişik. Ancaq gecə saatlarında onlarla motosikletçi qanunvericilikdə tələb edilən qaydaları pozur".

Vaqif Əsədov motosiklet xuliqanlığının azaldığını dedi: "Onu deyə bilərəm ki, keçirdiyimiz reydlərin təsiri olaraq ötən illərə nisbətən qaydanı pozan motosikletçilərin sayı azalıb. Bu, çox sevindirici haldır. İctimai qınağın və cəmiyyətin səyi nəticəsində inanıram ki, belə halların sayı daha da azalacaq".

V.Əsədov "Yeni Müsavat"ın tribunasından çağrış da etdi: "Cəmiyyətin mariflənməsində mətbuatın rolu əvəzsizdir. Sizin vasitənizlə motosikletçilərə çağırış edərək bildirirəm ki, həmişə yol mədəniyyətini gözləsinlər. Ən azından öz sağlamlıqlarını və ətrafındakı insanları düşünsünlər. Bildirirəm ki, heç bir motosikletçiyə güzəşt edilməyəcək".

**"Dəmir at"ların belindəki məşhurlar...**

Azərbaycanda bahalı motosikletlərin sahibləri sıradan insanlar deyil. Çünki bu cür "dəmir at"lar həddən artıq bahadır. Bu yaxınlarda Bakıda keçirilən Beynəlxalq "Moto-Şou" sərgisində ən ucuz və ən bahalı motosiklərin qiyməti məlum olub - 60-150 min civarında. Belə çıxır ki, yeni motosiklетə sahib olanlar zəngin təbəqədəndir.

Məlumdur ki, Bakı gecələrinin ulduzlarına çevrilən baykerlər arasında deputatların, nazir balalarının da adı hallanır. Elə götürək deputat Aydın Abbasovu. Onun 60 min manatlıq "Harley Devidson" markalı motosikleti görənləri heyran edir. Deputat uzun müddətdir ki, baykerliklə məşğuldur. Üstəlik onun baykerlərin təşkilatı olan "Baku HOG Azerbaijan"nın üzvü olduğu bildirilir. Deputatın oğlu da motosiklet həvəskarıdır. Ötən aylar baykerlərlə bağlı yaranan qalmaqalda Aydın Abbasovun da adı hallanırdı. Həmin vaxt o, bu mövzuda açıqlama vermişdi. Deyilənləri təkzib etmişdi. Amma deputatın facebook səhifəsində onun bahalı motosikldə şəkillərinin olduğu əslində bu təkzibin təkzibi sayıla bilər...

**Polisin gözü önündə motosiklet şousu**

İndiki vəziyyətdə vətəndaşlar artıq avtoşlarla birgə motosikletiylə şou göstərən sürücülərin də əlindən bezib. Bəzən insan həyatı ilə oynayan motosikletçilər fürsət düşən kimi gözdən itə bilirlər. Gizlin deyil ki, belə hallar çox vaxt elə polislərin gözü önündə baş verir. Baykerlərin əksəriyyətinin özünə məxsus yazılmamış qanunları var. Onlar daha çox rok musiqisinə qulaq asır, istədikləri içkini qəbul edir, polisə heç vaxt təslim olmur və s.

Görək nazirin bu tapşırığı Bakı baykerlərinin fəaliyyətinə təsir göstərə biləcəkmi?

❑ **XALİDƏ**

# YENİ MÜSAVAT

Son səhifə

*N 287 (5996) 24 noyabr 2014*




# Saç düzümünə görə məktəbdən qovuldu

İngiltərədə Barlou Katolik adlı məktəbin rəhbərliyi qeyri-adi saç düzümünə görə bir şagirdi məktəbdən uzaqlaşdırıb. Bu barədə İngiltərə mətbuatı yazıb. 13 yaşlı Lyus Kenniyə saç düzümünü dəyişənə qədər məktəbə gəlməmək barədə tapşırıq verilib. Xəbərdə qeyd olunur ki, "Mançester Siti"nin azarkeşi olan oğlan saçını o komandanın əsas oyunçusu olan Sercio Aquero kimi kəsdirib. Ötən həftə də saç düzümünə görə oğlanın ən yaxın dostu Cek Littlvud məktəbdən uzaqlaşdırılmışdı. Uşağın valideynləri isə deyiblər ki, administrasiyanın bu hərəkətindən narazıdılar, uşaqlarının saç düzümünü normal hesab edirlər. Məktəbin direktoru isə bildirib ki, onların məktəbi olduqca elitdir və uşaqlar da onun səviyyəsinə uyğun davranmağı bacarmalıdırlar. Məktəbin saytında qeyd olunub ki, kollec həyatının əsasında xristianlıq əsas yer tutur. Burda insanlar bir-birinə və ən önəmlisi təhsilə hörmət etməlidir. Administrasiya isə məktəb divarlarının arxasında qarşılıqlı hörmət və anlayış olmadığı halda səbəbkarın cəzalandırılacağını qeyd edib.

# 39 illik türmə həyatından sonra günahsız olduğu üzə çıxdı

Klivlenddə 57 yaşlı afroamerikalı Riki Cekson adlı keçmiş məhbusun başına ilginc hadisə gəlib. 39 ilini türmədə keçirəndən sonra onun günahsız olduğu üzə çıxıb. Rikini adam öldürməkdə ittiham edirdilər. Lenta.ru saytının yazdığına görə, bu, rekord göstərici sayılır. Cekson daha iki nəfərlə birgə 1975-ci ildə Klivlenddə bir valyutadəyişmə məntəqəsi sahibi olan Harold Frenks adlı kişini vəhşicəsinə öldürmək iddiası ilə həbsə düşmüşdü. Yeganə sübut kimi isə 12 yaşlı yeniyetmə Eddi Vernonun guya Rikini hadisə yerində görməsi ilə bağlı ifadəsi yer almışdı. İşə yenidən baxılmasının səbəbi isə hazırda 53 yaşında olan Vernonun 37 il əvvəl verdiyi ifadədən imtina etməsi olub. Oqayo ştatında qüvvədə olan "Günahsızlıq" layihəsinə görə, Vernon bu etirafını həm də keşiş qarşısında edib. O deyib ki, hadisə baş verən zaman o, məktəb avtobusunun içində olub. Ona görə də baş verənləri dəqiqliklə görə bilməyib. Bundan başqa, keçmiş məktəbli hökumətin işinə yaramaq üçün yalan danışdığını da boynuna alıb. Nəticədə R.Cekson azadlığa buraxılıb. Onunla birgə cinayəti həyata keçirdiyi iddia edilən digər 2 şəxsin də işi məhkəmədədir, onların da azadlığa buraxılacağı gözlənilir.



# Qadınlar hansı yaşda qısa ətək geyinir?

Bu faktlar Debenhams univermaq mağazalar şəbəkəsinin sifarişi ilə hazırlanıb. Britaniya mütəxəssislərinin araşdırmalarına görə, ən cəsarətli xanımlar 23 yaşı olanlardır. Mütəxəssislərin rəyincə, orta statistik xanım artıq 14 yaşında qısa ətəyə (yubka) can atır, lakin məktəbli formasının qədərində qalır, uzunluğu 46 sm olan don və ətəklər geyinir. 15 yaşdan sonra ətək 36 sm-ə qədər qısalır, 19 yaşdan sonra 32 sm. Açıq ətəklərdə 23 yaşlı xanımlar gəzir. Cavan xanımın əri ilə normal stabil münasibətləri varsa, ətək 5 sm uzun olur. Bundan əlavə, 40 yaşlı qadınlar da öz ayaqlarının gözəlliyini göstərmək üçün 36 sm-lik ətək geyinirlər. Lakin 49 dan sonra ətək dizdən aşağı düşür, 60-dan sonra isə artıq mini öz yerini maksiyə verir.





# Yeni dieta: bu, arıqlamaq üçün deyil...

Zəmanəmizin yeni "xəstəliyi" sosial media asılılığı təkcə fiziki xəstəliklərə deyil, həm də müxtəlif psixoloji xəstəliklərə səbəb olur. Bir çox insanlar özlərində bir anlıq cəsarət tapıb Facebook və Twitter hesablarını dondururlar. Lakin bu da 3 gün son dözməyib virtual həyata qayıdırlar. Anspress-in məlumatına görə, mütəxəssislər bu asılılıqdan və xəstəliklərdən xilas olmaq üçün sosial media "pəhriz"ini məsləhət bilirlər. "Pəhriz"in şərtləri isə çox sadədir. Bunun üçün ilk növbədə, "insanlar nə edirlər" sualını beyninizdən silməlisiniz. Birinci addım olaraq telefon və planşetlərinizdən sosial mediaya aid proqramları silin. Özünüzə vaxt müəyyənləşdirin. Məsələn, "mən iki həftə sosial media hesablarıma girməyəcəm" deyin və həmin müddət bitənədək sosial mediadan istifadə etməyin. Əgər bunları etmək çətindirsə, sosial mediada ən çox izlədiyiniz insanları izləməkdən əl çəkin. Son olaraq isə sosial media ilə bağlı saytlardan uzaq durun. Bunlara əməl etsəniz, sosial media asılılığınız azalacaq, real həyatı yaşamaq üçün daha çox vaxtınız olacaq.




**QOÇ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə ciddi məbləğdə pul xərcləməyəsiniz. Əks təqdirdə ayın sonuna qədər problemləriniz olacaq. Nəzərə alın ki, tarixi seçim ərəfəsindəsiniz.

**BUĞA** - Yeni əlaqələr yaratmaq üçün bütün gücünüzü axtarışlara həsr etməlisiniz. Bu gün sizə daha da əzmkarlıq göstərmək məsləhətdir. Nahardan sonra maraqlı görüşləriniz olacaq.

**ƏKİZLƏR** - Ümumi əhvalınızda aktivlik baş qaldırdığından neytral mövqedə dayanmamalısınız. İşlə bağlı planlarınızın həllini sürətləndirin. Nahar ərəfəsində sürprizlə rastlaşacaqsınız.

**XƏRÇƏNG** - Saat 16-ya qədər bütün planlarınızı reallaşdırmağa çalışın. Qərarlarınızda obyektiv olun ki, nəticədə udasınız. Axşam saatlarında qəlbinizə yaxın insanlarla bir araya gəlin.

**ŞİR** - Ailədaxili problemləriniz qabara bilər. Bunun qarşısını almaq üçün qarşı tərəfə güzəştə getməyiniz vacibdir. Sevgiyə xələl gətirən bütün neqativ hərəkətlərə son qoyun.

**QIZ** - Yalnız sənədləşdirmə və alış-veriş işi üçün uğurlarınız ola bilər. Saat 14-16 arası isə qazanc əldə etmək imkanınız yaranacaq. Şəxsi münasibətlər üçünsə gərgin gündür.

**TƏRƏZİ** - Saat 14-ə qədər münaqişəli situasiyalara cəlb olunma ehtimalınız yarandığından həmin müddəti yalnız ev şəraitində keçirməlisiniz. Sonrakı ərəfəni isə xoş ovqatda başa vuracaqsınız.

**ƏQRƏB** - Ümumi yorğunluğunuzu nəzərə alan ulduzlar günün əsas vaxtını istirahətə həsr etməyinizi məsləhət görür. Çox da uzaqda yerləşməyən ünvanlara qonaq getməyə də dəyər.

**OXATAN** - Böyük dəyişikliklər astanasındasınız. Daxili süstlüyünüz də səngiməkdədir. Elə addımlar atın ki, qarşınızdakı şanslardan bəhrələnin. Fəaliyyətdə uğurlarınız yaxınlaşmaqdadır.

**OĞLAQ** - Bugünkü astroloji mənzərə yalnız sizin Zodiakdan olanlar üçün uğurlu səfərlər vəd edir. Bununla yanaşı maliyyə məsələlərinin həllində də müəyyən irəliləyişlərə nail ola bilərsiniz.

**SUTÖKƏN** - Bütün vaxtınızı görüş və əyləncələrə həsr etsəniz, bu təqvimdən xeyli razı qalacaqsınız. İştirak etdiyiniz məkanlarda çalışın ki, daha çox sevdiyiniz adamlarla birgə olasınız.

**BALIQLAR** - Hər mənada uğurlu gündür. İstər ailə-sevgi münasibətlərində, istərsə də məqsədlərə yetişmək istiqamətində uğurlarınız artacaq. Özünüzə güvənməklə çox zirvələri fəth edəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bir hərf sildi, 4 ay həbs cəzası, 20 min avro cəza aldı



Romadakı Kolizeydə bir hərfi silən rus vətəndaşını həbs edərək 4 ay iş veriblər. Bundan başqa, İtaliya məhkəməsi onun yaxın 3 ay ərzində 20 min avroluq cəriməni ödəməsini tələb edib. Bu vandalizmi 42 yaşlı Kazbek Akayev edib. Rusiyadan olan turist 21 noyabrda həbs edilib. O, bir daşla Kolizey sözündəki "K" hərfini silməyə cəhd edib və bunu başarıb. Hərfin eni 17, uzunluğu isə 25 santimetr olub. Bunu görən kimi polis hadisəyə müdaxilə edib. Bu, Kolizeydə 5-ci belə hadisədir. Yanvarda Avstraliyadan olan bir ata-oğul amfiteatrda buna bənzər vandalizmə yol vermişdi. Martda bir kanadalı, mayda isə braziliyalının belə bir əməli tarixdə yer alıb.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100